# 20 SENTYABR DÖVLƏT SUVERENLİYİ GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 171 (10191) 19 sentyabr 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# 23 saatlıq Zəfərin qüruru



## 3 il əvvəl "dəmir yumruq" Qarabağda separatizmin başını əzdi

Lokal xarakterli antiterror tədbirləri zamanı cəmi bir gün ərzində terrorçuların başı əzildi, xuntaçılara "ağ bayraq" qaldırtdırıldı. 23 saat 43 dəqiqə ərzində həyata keçirilən antiterror tədbirləri nəticəsində igid döyüşçülərimiz böyük qəhrəmanlıq və peşəkarlıq göstərərək Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş Ermənistanın ordu bölmələrinin böyük hissəsini tamamilə məhv etdilər. Eyni zamanda hərbi texnika sıradan çıxarıldı.

Rəşadətli ordumuz cəmi bir gün ərzində düşməni diz çökərək ağ bayraq qaldırmağa və sentyabrın 20-də saat 13:00-da şərtlərimizi qəbul etməyə məcbur etdi.

Bunu da vurğulayaq ki, lokal xarakterli antiterror tədbirləri zamanı hərbçilərimiz tərəfindən yalnız hərbi hədəflər sıradan çıxarıldı. Qarabağda aparılan antiterror tədbirləri nəticəsində suverenliyimiz tam təmin edildi. Azərbaycan qarşıya qoyulan bütün hədəflərə nail oldu, kommunikasiyalar, yollar, yüksəkliklər nəzarətə götürüldü. Bütün Qarabağ ərazisində Azərbaycan qanunları və siyasi hakimiyyət təmin olundu.

İllərdir xalqımızın qanına susayan separatçıların başçıları qandallanaraq Bakıya gətirildi və ədalət mühakiməsinə təslim edildi.

Cəmi 23 saata həyata keçirilən bu tarixi əməliyyat ədalətsizliyə və separatizmə vurulan son, qətiyyətli zərbə oldu. Yüz il boyunca Azərbaycan torpaqlarında cücərdilməyə çalışılan sərsəm "böyük Ermənistan" xülyası, "Miatsum" avantürası və qondarma "Artsax" rejimi birdəfəlik tarixin zibilliyinə atıldı.

Bu gün Qarabağın hər qarışında Azərbaycan qanunları bərqərar olub. Ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa edən Azərbaycan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun qəhrəmanlığı ilə regionda yeni reallıq yaratdı. Bu Zəfər milli ləyaqətimizin, ədalətin və sarsılmaz birliyimizin təntənəsi və "Qarabağ Azərbaycandır!" haqq nidasının rəmzidir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 15 oktyabr 2023-cü ildə Xankəndidə Zəfər meydanında Azərbaycan Dövlət Bayrağını qürurla yüksəldən zaman dediyi kimi:

"Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

2

## Əsrlərə hesablanmış saziş

"Əsrin müqaviləsi"nin 20 illik yubileyi qeyd edilərkən Azərbaycanın təkcə neft-qaz sənayesinin deyil, ümumən tarixinin daha bir önəmli hadisəsi baş verib. Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin təməli qoyulub. Bu, həmin dəhlizdir ki, onun reallaşması ilə Avropanın enerji xəritəsi dəyişib, qədim neft diyarı Azərbaycan dünyada həm də qaz ixrac edən ölkə kimi tanınıb.

Vaxtilə "Əsrin müqaviləsi"ni xülya adlandıranlar vardı. Hamı, elə onların özləri də gördülər ki, bu, təkcə bir əsrin kontraktı deyil, əsrlərə hesablanmış bir müqavilədir. Belə ki, 2017-ci il sentyabrın 14-də AÇG-nin işlənməsinin müddəti 2050-ci ilin əvvəlinə qədər uzadıldı. Prezident İlham Əliyevin iştirakı ilə imzalanan bu saziş isə "Yeni əsrin müqaviləsi" adını aldı.

Bütün bunlar Azərbaycan neftinin təntənəsidir ki, bir-birinə qovuşan bu bayramları



xalqımız sözügedən şərəfli peşə sahibləri ilə birlikdə qeyd edir. Bəli, bu salnamə 32 il əvvəl sentyabrın 20-də imzalanan uğurlu müqavilədən başlandı.

5

## Türk dünyasının strateji gücü və milli dövlətçiliyin yeni mərhələsi

Türk dünyasının gücünü yalnız iqtisadi göstəricilərlə qiymətləndirmək mümkün deyil. İqtisadi və siyasi imkanların uzunmüddətli nəticəyə çevrilməsi üçün onları daşıyan cəmiyyətin milli özünüdərki, dövlətçilik düşüncəsi və ictimai həmrəyliyi mühüm əhəmiyyət daşıyır.

Tarixi təcrübə göstərir ki, dövlətin maddi resursları ilə ictimai dayaqları arasında möhkəm əlaqə mövcuddur. Milli-mənəvi dəyərlər bu baxımdan yalnız mədəni irsin qorunması məsələsi deyil. Onlar cəmiyyətin öz tarixinə, dövlətinə və milli kimliyinə münasibətini formalaşdıran mühüm amillərdir. Türk dövlətləri arasında ortaq tarixi yaddaş, dil, mədəniyyət və mənəvi dəyərlərin mövcudluğu da dövlətlərarası münasibətlər üçün xüsusi ictimai baza yaradır.

Cənab Prezident İlham Əliyevin çıxışında milli şüur, mənəvi dəyərlər və gənc nəslin dövlətçilik ruhunda yetişdirilməsi məsələlərinə diqqət yetirilməsi bu baxımdan mühüm məna daşıyır. Dövlətçiliyin gələcəyi yalnız bu günün siyasi qərarları ilə müəyyənləşmir. Gələcək nəsillərin öz tarixini, milli kimliyini



və dövlətçilik ənənələrini necə dərk etməsi də uzunmüddətli strateji məsələdir.

Bu səbəbdən türk dövlətlərinin gəncləri arasında əlaqələrin genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Təhsil proqramları, elmi və mədəni layihələr, forumlar, konfranslar və gənclər platformaları ortaq düşüncə məkanının inkişafına xidmət edə bilər. Gənclər arasında formalaşan əlaqələr gələcəkdə dövlətlərarası münasibətlərin ictimai əsaslarını daha da möhkəmləndirə bilər.

6

## Bir Zəfər - dörd şəhər, əbədi qürur

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün Xankəndi şəhərində bayrağımızı ucaldarkən bildirdi: "Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. "Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi. Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əmin idik və inanırdıq ki, bu gün gələcək. İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma birnömrəli vəzifə qoymuşdum ki, Azərbaycan bayrağı o vaxt işğal al-



tında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır".

4

# Dövlət suverenliyi milli sərvətimizdir

**2023-cü ilin 19-20 sentyabr tarixləri Azərbaycanın dövlətçilik salnaməsinə millətin qürurunun, bütövlüyünün və sarsılmaz Zəfər iradəsinin zirvəsi kimi həkk olundu. 2020-ci ildə "dəmir yumruq" altında diz çöküb kapitulyasiya aktına imza atan düşmənə həmin tarixlərdə bir daha unutmayacağı şəkildə başa salındı ki, bu müqəddəs torpaqlarda yalnız bir dövlətin - Azərbaycanın əbədi qanunları hökm sürə və üçrəngli bayrağı dalğalana bilər!**



## 23 saatlıq Zəfərin qüruru

### 3 il əvvəl "dəmir yumruq" Qarabağda separatizmin başını əzdi

Bu gerçəyi 2023-cü il sentyabrın 20-də xalqa müraciətində Prezident İlham Əliyev bir daha dünyaya bəyan etdi: "İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi. Bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz!"

### Ədalət təmin olundu

Sərsəm "Miatsum" xülyasına qapılaraq dinc azərbaycanlılara qarşı etnik və milli zəmində təmizləmə siyasəti həyata keçirən ermənilər Qarabağ bölgəsini separatizm yuvasına çevirmişdilər. Qarabağ de-yure ölkəmizin ərazisi olsa da, 1988-ci ildən etibarən bu bölgə de-fakto Azərbaycan qanunlarının işləmədiyi, separatizmin at oynatdığı "boz zona"ya çevrilmişdi. Özbaşına "müstəqillik" elan edən, əski parçaları düzəldən, "Artsax" adlı qondarma qurum yaradan separatçılar ötən illər ərzində Qarabağı Azərbaycandan qoparmaq üçün çirkin əməllərə, hərbi cinayətlərə əl atmışdılar. Ermənistan və separatçılar ərazilərimizi işğal etməkdən, azərbaycanlıları zorla öz yurdlarından didərgin salmaqdan, onlara qarşı soyqırımları törətməkdən tutmuş ölkəmizə qarşı hər cür təcavüzkarlıqlar həyata keçirmişdilər. Ən dəhşətlisi isə bunu bütün dünyanın gözü qarşısında açıq-aşkar etmələrinə baxmayaraq, beynəlxalq təşkilatların susqunluq nümayiş etdirməsi idi. BMT qətnamələri kağız üzərində qalmışdı, ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişənin həlli ilə bağlı faktiki olaraq heç bir iş görmürdülər, onun sonsuzadək sürdürülməsi kimi məkrli niyyət güdürdülər.

Lakin 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi ilə torpaqlarının işğalına son qoyan Azərbaycan beynəlxalq ədaləti özü təmin etməli oldu. İkinci Qarabağ müharibəsinin üzərindən ötən üçillik zaman kəsiyində də ölkəmiz silsilə qələbələrə imza atdı. 23 aprel 2023-cü ildə Laçında sərhəd-buraxılış məntəqəsinin qurulması ilə ərazi bütövlüyümüz bərpa edildi və bayrağımız bütün sərhədlərimizdə dalğalandırıldı.

Vətən müharibəsindən sonra Ermənistan rəhbərliyi bir tərəfdən Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdığını yüksək tribunalarda, sülh istiqamətində keçirilən üçtərəfli görüşlərdə etiraf edir, digər yandan davamlı şəkildə ölkəmizə qarşı siyasi, hərbi təxribatlar törədirdi. Qərbdəki himayədarlarına güvənən Ermənistan rəhbərliyi getdikcə həddini aşan əməllər də tuturdu. Nikol Paşinyanın 2023-cü il sentyabrın əvvəlində Qarabağda qondarma "prezident seçkiləri"nə dəstək göstərməsi Ermənistanın həddini aşdığının növbəti göstəricisi idi.

Həmçinin Vətən müharibəsindən 2023-cü ilədək keçən üç ilə yaxın müddət ərzində öhdəliklərinə zidd şəkildə Ermənistan Azərbaycan ərazilərinə əlavə silah-sursat, hərbi texnika, minalar ötürür, milli sərvətlərimizi talayırdı.

### İldırım sürətli qələbə

2023-cü il sentyabrın 19-da Əhmədbəyli-Füzuli-Şuşa yolunda törədilən növbəti xain terror aktı isə səbrimizi daşıran son damla oldu. Erməni kəşfiyyat-diversiya qruplarının sözügedən avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırdığı minaların partlaması nəticəsində mülki şəxslər və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları həlak oldu və yaralandılar. Bununla yanaşı, ordumuzun bölmələri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu. Nəticədə Azərbaycan Ordusunun 2 hərbi qulluqçusu yaralandı.

Həmin zaman Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında bildirilirdi ki, erməni silahlı qüvvələrinin bu təxribatları davam etdirmək məqsədilə döyüş mövqelərini gücləndirməsi və bölmələrini yüksək döyüş hazırlığı səviyyəsinə gətirməsi Azərbaycan Ordusunun bölmələri tərəfindən təsbit edilib: "Qarabağ iqtisadi rayonunda erməni silahlı qüvvələri tərəfindən gözlənilən genişmiqyaslı təxribatların qarşısının alınması, habelə üçtərəfli Bəyanatın müddəalarının icrasının təmin olunması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, dinc əhali, o cümlədən ərazidə aparılan bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb".

Azərbaycan dərhal "dəmir yumruğ"u işə salaraq düşməni layiqincə cəzalandırdı. Lokal xarakterli antiterror tədbirləri zamanı cəmi bir gün ərzində terrorçuların başı əzildi, xuntaçılara "ağ bayraq" qaldırtdırıldı. 23 saat 43 dəqiqə ərzində həyata keçirilən antiterror tədbirləri nəticəsində igid döyüşçülərimiz böyük qəhrəmanlıq və peşəkarlıq göstərərək Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş Ermənistanın ordu bölmələrinin böyük hissəsini tamamilə məhv etdilər. Eyni zamanda hərbi texnika sıradan çıxarıldı.

Rəşadətli ordumuz cəmi bir gün ərzində düşməni diz çökərək ağ bayraq qaldırmağa və sentyabrın 20-də saat 13:00-da şərtlərimizi qəbul etməyə məcbur etdi.

Bunu da vurğulayaq ki, lokal xarakterli antiterror tədbirləri zamanı hərbçilərimiz tərəfindən yalnız hərbi hədəflər sıradan çıxarıldı. Qarabağda aparılan antiterror tədbirləri nəticəsində suverenliyimiz tam təmin edildi. Azərbaycan qarşıya qoyulan bütün hədəflərə nail oldu, kommunikasiyalar, yollar, yüksəkliklər nəzarətə götürüldü. Bütün Qarabağ ərazisində Azərbaycan qanunları və siyasi hakimiyyət təmin olundu.

İllərdir xalqımızın qanına susayan separatçıların başçıları qandallanaraq Bakıya gətirildi və ədalət mühakiməsinə təslim edildi.

Cəmi 23 saata həyata keçirilən bu tarixi əməliyyat ədalətsizliyə və separatizmə vurulan son, qətiyyətli zərbə oldu. Yüz il boyunca Azərbaycan torpaqlarında cücərdilməyə çalışılan sərsəm "böyük Ermənistan" xülyası, "Miatsum" avantürası və qondarma "Artsax" rejimi birdəfəlik tarixin zibilliyinə atıldı.

Bu gün Qarabağın hər qarışında Azərbaycan qanunları bərqərar olub. Ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa edən Azərbaycan Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli ordumuzun qəhrəmanlığı ilə regionda yeni reallıq yaratdı. Bu Zəfər milli ləyaqətimizin, ədalətin və sarsılmaz birliyimizin təntənəsi və "Qarabağ Azərbaycandır!" haqq nidasının rəmzidir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 15 oktyabr 2023-cü ildə Xankəndidə Zəfər meydanında Azərbaycan Dövlət Bayrağını qürurla yüksəldən zaman dediyi kimi:

"Əziz həmvətənlər, bu meydanda bu gün durmaq böyük xoşbəxtlikdir, böyük fərəhdir, qürur mənbəyidir. Mən qürur hissi ilə Azərbaycan bayrağını bu gün qaldırmışam və doğma xalqıma bir daha demək istəyirəm ki, biz bu Qələbəyə layiqik. Azərbaycan xalqı bu Qələbəni öz qanı, canı bahasına əldə etmişdir. Bu gün burada qaldırdığım bayraq burada əbədi dalğalanacaq və biz burada əbədi yaşayacağıq. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Qarabağ Azərbaycanın suveren ərazisidir və hər bir dövlətin nümayəndəsi bura səfər edə bilər

**Azərbaycan xalqı əsrlər boyu özünün milli-mənəvi dəyərləri, tarixi, mədəni, dini abidələri ilə fəxr edib. Eyni zamanda özünün milli dəyərlərini qoruyub saxlayaraq inkişaf etdirib. Lakin uzun müharibələr, istilalar, xüsusilə son illərdə erməni təcavüzkarlarının Qarabağı işğal etməsi tarixi abidələrimizə ciddi ziyan vurub və onların bir çoxu məhv edilib.**

Bu gün Qarabağda və Şərqi Zəngəzurda çox mühüm bərpa, tikinti-quruculuq işləri gedir. Bu işlərin görülməsi, əlbəttə ki, Azərbaycanın iqtisadi imkanlarından, inkişafından xəbər verməklə yanaşı, həm də öz torpaqlarından məcburi köçkün düşən, uzun illər çətin günlər keçirən insanlara qayğısından xəbər verir. Bərpa-quruculuq işləri nəinki Azərbaycan xalqını, eləcə də Azərbaycanı istəyən, onun uğurlarına sevinən hər bir insanı qürurlandırır, sevindirir.



**Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir RZAYEV** qəzetimizə açıqlamasında bildirib ki, müntəzəm olaraq işğaldan azad edilən ərazilərə xarici qonaqlar, dövlət başçıları, siyasətçilər, mədəniyyət xadimləri dəvət olunur: "Onlar həmin yerlərdə görülən işlərlə tanış olur və Azərbaycanın sülh, əmin-amanlıq yolunda atdığı addımları dəstəklədiklərini bildirirlər. Bu günlərdə Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin, media təmsilçilərinin Qarabağ və Şərqi Zəngəzura səfərləri də məhz bu məqsədə xidmət edirdi: Qarabağda görülən işlərlə tanışlıq, erməni faşistlərinin törətdikləri əməlləri gözləri ilə görmək və gələcək üçün vəzifələri bəyan etmək".

Deputat söyləyib ki, ancaq çox təəssüflər olsun ki, bu səfər əksər dövlətlər tərəfindən yüksək qiymətləndirildiyi halda Ermənistanda geniş əks-səda yaratdı və qısqanclıqla qarşılandı: "Bir çox diplomatın, xüsusilə Fransanın, Hindistanın, Amerikanın diplomatik korpus nümayəndələrinin Qarabağda və Şərqi Zəngəzurda olması Ermənistan tərəfindən təəssüflə qeyd edilir və bunun guya beynəlxalq normalara zidd olduğunu bəyanatlarla səsləndirirlər. Əlbəttə ki, söylənilən fikirlər və Ermənistanın mövqeyi gələcək sülhə yox, müharibənin, münaqişənin qızışdırılmasına, qarşıdurmanın yenidən alovlanmasına xidmət edir".

Tahir Rzayev söyləyib ki, Qarabağ Azərbaycanın suveren ərazisidir və hər bir dövlətin nümayəndəsi, diplomatlar, media nümayəndələri, eləcə də istənilən hər bir kəs Azərbaycanın razılığı ilə bu bölgəyə səfər edə və həmin ərazilərdə görülən işlərlə tanış ola bilərlər: "Azərbaycan uzun illər Qafqazda sülhün, əmin-amanlığın yaradılması üçün səylər ortaya qoyub və bu gün ölkəmizin ayrılmaz hissəsi olan Qarabağ və Şərqi Zəngəzurda insanların məskunlaşması, bu ərazilərdə möhtəşəm işlərin görülməsi nədənsə Avropada bəzilərini, eləcə də Ermənistan hakimiyyətini narahat etməkdədir".

Deputat qeyd edib ki, bu torpaqlar otuz il təcavüz nəticəsində çox ciddi dağıntıya məruz qalıb: "Bu məkanda Qafqaz Albaniyasının irsi, tarixi abidələri mövcuddur və təcavüz dövründə Ermənistan hakimiyyəti, təcavüzkar qüvvələr daim bu irsi məhv etməyə və həmin ərazidə yerləşən tarixi abidələri özgələşdirməyə səy göstəriblər. Qurama adlar, saxta əməllər nəticəsində həmin abidələr erməni irsi kimi dünyaya təqdim olunmuş və bir çox halda özünün təsdiqini tapmışdır.

Erməni təbliğatı Azərbaycan xalqının tarixi-mədəni irsinin saxtalaşdırılması sayəsində fəaliyyətini daim artırmasına baxmayaraq, bu, həmişə əyani faktlarla iflasa uğramışdır. Bu gün də erməni revanşistlər yenidən Qarabağ torpaqlarında münaqişə yaratmaq, hadisələri təhrif etmək, sülhə əngəl yaratmaq fikrindədirlər".

Tahir Rzayev bildirib ki, Ermənistanın rəhbərliyi bu barədə ciddi düşünməlidir: "Çünki Azərbaycan qalib dövlətdir. 44 günlük müharibədə, 23 saatlıq antiterror tədbirlərində Azərbaycan Ordusu öz qüvvəsini göstərmiş, Azərbaycan xalqı birliyi, qüdrəti, iqtisadi gücü ilə nəyə qadir olduğunu dünyaya sübut etmişdir. Ona görə də Ermənistanın hakim dairələri bir daha gələcək taleləri üçün düşünməlidirlər. Yollar axtarmalıdırlar və bayağı bəyanatları, saxta düşüncələri, fikirləri ilə sülhə əngəl yaratmaqdan çəkinməlidirlər. Əks halda onları daha acınacaqlı tale gözləyə bilər".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Xalqımızın dövlətçilik salnaməsinin qürur doğuran səhifəsi

**"Suverenlik hər bir dövlətin müstəqilliyinin, milli iradəsinin və beynəlxalq hüquqda subyekt kimi tanınmasının ən yüksək göstəricisidir. Hüquqi baza isə bu müstəqilliyin qorunmasının təminatıdır. Azərbaycan Respublikasında son illərdə qəbul edilən siyasi və hüquqi qərarlar məhz bu iki konseptual anlayışın - Konstitusiya və suverenliyin vəhdəti üzərində qurulub. 20 Sentyabrın Dövlət Suverenliyi Günü elan edilməsi isə bu istiqamətdə strateji xarakterli addımlar sırasına daxildir. Bu qərarlar yalnız hüquqi-siyasi məzmun daşımır, eyni zamanda xalqın tarixi yaddaşını gücləndirən, milli dövlətçilik fəlsəfəsini möhkəmləndirən və gələcək nəsillərə ünvanlanan rəmzi hadisələrdir".**



Bu fikirləri **Milli Məclisin deputatı Samir VƏLİYEV** deyib. Deputat bildirib ki, beynəlxalq hüquq suveren dövlətləri daimi əhaliyə sahib olmaqla, müəyyən bir ərazisi olmaqla, ali və tək hökuməti olmaqla və digər suveren dövlətlərlə münasibət qurmağa gücü olmaqla xarakterizə edir. Həmçinin suveren dövlət başqa bir dövlətdən nə asılı, nə də ona tabe olmalıdır.

Samir Vəliyevin sözlərinə görə, Ermənistanın 30 illik işğalı səbəbindən uzun illər Azərbaycanın suverenliyi təhdid altında idi və ərazimizin bir hissəsində konstitusion quruluşumuz tətbiq oluna bilmirdi. Lakin Vətən müharibəsində Azərbaycan öz ərazisinin böyük hissəsini azad etdi. Bununla belə, hələ də qondarma rejimin Qarabağda fəaliyyətini davam etdirməsi qeyri-qanuni və əlbəttə ki, suveren dövlət daxilində qəbuledilməz idi. Tərəflər arasında imzalanan 10 noyabr sənədinə əsasən, Ermənistan və qondarma Dağlıq Qarabağ arasında əlaqəni Azərbaycan ərazisindən - Laçın üzərindən qurmalı idi. Ermənistan və qondarma Dağlıq Qarabağ rəhbərliyi bu yoldan sosial problemlərini həll etməkdənsə, Ermənistandan separatçı rejimə silah və sursat daşımağa üstünlük verdilər. Ermənilər mütəmadi olaraq atəşkəsi pozur, təhlükəsizliyi ciddi şəkildə təhdid edirdilər. Azərbaycan dövlətinin səbrini sınayan qondarma Dağlıq Qarabağ rejimi militarist bəyanatlarına ara vermədi.

"Azərbaycan hökuməti qətiyyətli addım ataraq, peşəkarlıqla həyata keçirilən əməliyyat nəticəsində 2023-cü il aprelin 23-də Laçın-Xankəndi yolunun başlanğıcında, Həkəri çayının üzərində Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsi yaratdı. Bu, hakimiyyətin aliliyinin və nəzarət funksiyasının yerinə yetirilməsinin təmin edilməsi istiqamətində atılan ən ciddi addım idi. Bu, Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra bir güllə belə atmadan əldə etdiyi növbəti tarixi nailiyyət oldu. Buraxılış məntəqəsinin qurulması ilə Azərbaycan beynəlxalq aləm tərəfindən tanınmış bütün sərhədləri boyunca suveren hakimiyyətini və nəzarətini, başqa cür desək, ərazi bütövlüyünü təmin etdi" deyən deputat əlavə edib ki, sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror tədbirlərinə başlandı. Cəmi 23 saat 43 dəqiqə davam edən əməliyyat nəticəsində müzəffər Azərbaycan Ordusu qarşısındakı bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Qondarma Dağlıq Qarabağ rejimi özünü buraxdığını elan etdi. Bununla da Azərbaycan bütün əraziləri üzərində suverenliyini tam bərpa etdi. Hakimiyyətin aliliyi və nəzarət funksiyası tam şəkildə bərpa olundu. Bu, Azərbaycanın dövlət suverenliyinin təşəkkülündə mühüm bir mərhələ hesab edilir.

"Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə sentyabrın 20-si ölkəmizdə Dövlət Suverenliyi Günü kimi qeyd olunur. Sərəncam Azərbaycanın 1991-ci ildə müstəqilliyinin bərpası ilə başlayan hadisələrin kulminasiya nöqtəsi olan ərazi bütövlüyü və müstəqillik uğrunda onilliklər boyu davam edən mübarizənin rəmzi sonunu əks etdirir. Bu yeni tarixin təqvimdə rəsmi yer alması 2020-ci ildə 44 günlük Vətən müharibəsində qazanılan Qələbənin, 2023-cü ildə antiterror tədbirlərinin və XXI əsrdə ölkənin müstəqilliyinin möhkəmləndirilməsinin əhəmiyyətini bir daha vurğulayır. Azərbaycan xalqı bu günü tarixboyu daim böyük qürurla qeyd edəcək", - deyə Samir Vəliyev vurğulayıb.

***"Azərbaycan"***

# Dövlət suverenliyi milli sərvətimizdir



## Dövlət suverenliyi xalqımızın tarixi nailiyyətidir

**2003-cü ilin 15 oktyabrından etibarən ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu proseslərinin, sosial-iqtisadi inkişafın, ordu quruculuğunun, həmçinin ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin tam təmin edilməsi istiqamətində aparılan ardıcıl fəaliyyətin növbəti mərhələsi Ulu Öndərin siyasi varisi və layiqli davamçısı Prezident İlham Əliyevin missiyası ilə bağlı olmuşdur.**

Onun rəhbərliyi ilə aparılan köklü dövlətçilik islahatlarının birinci mərhələsi 18 mart 2009-cu ilədək (Konstitusiyaya əlavə və dəyişikliklərlə bağlı referendum) davam etmiş, bu dövr əsasən demokratik islahatların, dövlət quruculuğu proseslərinin davam etdirilməsi ilə səciyyələnmişdir. Bu mərhələdə Azərbaycan Konstitusiyasına əlavə və dəyişikliklərin edilməsi, həmçinin ölkə iqtisadiyyatında əldə olunan nailiyyətlər keçid dövrünün 2009-cu ildə başa çatdığını təsdiqləyən mühüm göstəricilər kimi qiymətləndirilə bilər.

2009-cu ildən etibarən cənab İlham Əliyevin prezidentliyi hüquqi dövlət quruculuğunun daha da möhkəmləndirilməsi mərhələsinə daxil oldu. Bu dövr dövlət idarəetməsində institusional inkişaf, hüquqi mexanizmlərin təkmilləşdirilməsi və idarəetmədə şəffaflığın artırılması ilə səciyyələndirilir. Həmçinin 21 fevral 2017-ci il tarixində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə Mehriban Əliyevanın təyin olunması dövlət idarəçiliyində davamlılığı və möhkəm strukturların formalaşmasını təmin edən strateji addımdır.

Cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövr hər cəhətdən Azərbaycanın yüksəliş dövrüdür, bu intibah dövlət və vətəndaş birliyinin nəticəsi kimi qiymətləndirilməlidir. Bu prosesin əsas dayağı ölkə rəhbərinin strateji və yaradıcı vizyonu, eləcə də Azərbaycan vətəndaşlarının dövlət başçımızın yürütdüyü siyasətə dəstəyi olmuşdur. Bu dövr eyni zamanda Azərbaycan siyasi-mədəni həyatında xalq və hakimiyyət birliyinin yeni, daha məhsuldar epoxasının başlanğıcını təşkil etmişdir.

Böyük dövlət xadimi İlham Əliyevin prezidentliyi Azərbaycanın xarici siyasətində də yeni mərhələni təmsil edir. Bu mərhələ özündən əvvəlki dövrün təməlləri üzərində qurulmuş və onları daha da dərinləşdirərək, xarici siyasətin məzmun və əhatəliliyini genişləndirmişdir. 2003-cü ildən etibarən Azərbaycanın xarici siyasətinin əsas məqsədləri dövlətin müasir, rəqabətədavamlı və dayanıqlı iqtisadi-mədəni struktura malik ölkəyə çevrilməsindən, Ermənistanın hərbi təcavüzü nəticəsində yaranmış Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olunmasından, Azərbaycanın beynəlxalq enerji, nəqliyyat-kommunikasiya və tranzit mərkəzlərindən birinə çevrilməsindən, vətəndaşların rifahının yüksəldilməsi üçün əlverişli beynəlxalq şəraitin yaradılmasından ibarət olmuşdur.

Bu məqsədlərin həyata keçirilməsi üçün çevik, tarazlaşdırılmış və səmərəli xarici siyasət xətti müəyyən edilmiş, Azərbaycan Prezidentinin həyata keçirdiyi çoxsaylı xarici səfərləri, beynəlxalq platformalarda fəal iştirakı, Azərbaycanın qəbul etdiyi beynəlxalq nümayəndə heyətləri ölkənin xarici siyasətinin dinamikliyini və effektivliyini nümayiş etdirmişdir.

Ötən onilliklər ərzində ölkəmizdə keçirilmiş ikitərəfli, regional və beynəlxalq toplantılar, həmçinin Azərbaycan tərəfinin dövlətlərarası ziddiyyətlərin həllində vasitəçilik fəaliyyəti ölkənin beynəlxalq mövqeyini daha da möhkəmləndirmiş, qlobal səviyyədə rolunu artırmışdır. Bu dövr Azərbaycanın diplomatik imkanlarının genişləndirilməsi və beynəlxalq əlaqələrinin dərinləşdirilməsi baxımından son dərəcə strateji əhəmiyyət daşıyır.

Azərbaycanın bu mərhələdəki xarici siyasətində ölkəmizin BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi mühüm yer tutur. Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasındakı qeyri-daimi üzvlüyü 2012-ci il yanvarın 1-dən 2013-cü il dekabrın 31-nə qədər davam etmiş, bu müddət ərzində Azərbaycan dünya siyasətini müəyyən edən 15 dövlətdən birinə çevrilmiş, Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionundan Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə kimi diqqəti çəkmişdir.

Azərbaycan 2011-ci ilin mayından Qoşulmama Hərəkatının da tamhüquqlu üzvü olmuş, 2019-2023-cü illərdə isə BMT-dən sonra dünyanın ən böyük təşkilatı olan bu quruma uğurla sədrlik edərək Qoşulmama Hərəkatının institusional inkişafına, qlobal güc mərkəzi kimi təsir imkanlarını artırmasına misilsiz töhfələr vermişdir.

Bu illərdə Azərbaycanın xarici siyasət prioritetlərinin ən mühümü, təbii ki, Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq hüquq normaları çərçivəsində həlli məsələləri ilə bağlı olmuş, güclü ordu quruculuğuna paralel şəkildə ölkəmiz münaqişənin insan itkilərinə, yeni faciələrə yol vermədən həlli üçün sülh prinsiplərinə sadiq qalmış, danışıqlar prosesi cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə də səbir və təmkinlə davam etdirilmişdir.

2007-ci ilin noyabrında ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə dair təkliflər paketi hazırlamış və bu sənəd "Madrid prinsipləri" adı ilə tarixə düşmüşdür. Onun ilkin versiyası tərəflərə təqdim edilmiş, 2009-cu ilin sonunda isə yenilənmiş variantı hazırlanaraq müzakirəyə çıxarılmışdır. Hər iki sənəd münaqişənin mərhələli nizamlanmasını nəzərdə tutur, o cümlədən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını, məcburi köçkünlərin doğma yurdlarına qayıdışını, kommunikasiya xətlərinin bərpasını və digər mühüm elementləri əhatə edirdi. Lakin Ermənistanın destruktiv mövqeyi səbəbindən bu dəfə də gözlənilən nəticə əldə olunmamışdır.

Sonrakı mərhələdə keçirilən görüşlərdə dövlət başçıları münaqişənin sülh yolu ilə nizamlanması məqsədilə dialoqun davam etdirilməsi barədə razılığa gəlmiş, problemin humanitar aspektlərinə xüsusi diqqət yetirmişlər. Bununla belə, danışıqların intensivləşməsi və prosesin Ermənistanın maraqlarına uyğun inkişaf etməməsi fonunda qarşı tərəf hərbi təxribatlara əl ataraq siyasi dialoqu pozmağa çalışmışdır. Xüsusilə Fransanın təşəbbüsü ilə 2014-cü il oktyabrın 27-də keçirilmiş Paris görüşündən dərhal sonra Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində 40 min nəfərdən artıq şəxsi heyətin iştirakı ilə genişmiqyaslı hərbi təlim keçirmiş, eyni zamanda Ermənistan silahlı qüvvələrinin təmas xəttində hücum xarakterli uçuşlarla təxribat törətməsi danışıqlar prosesinin intensivliyinin azalmasına səbəb olmuşdur. Bunun nəticəsində iki ölkə prezidentləri arasında dialoq yalnız 2015-ci il dekabrın 19-da İsveçrənin Bern şəhərində bərpa edilmişdir.



2016-cı ilin əvvəlində münaqişənin həlli ilə bağlı konkret planların müzakirə edildiyi bir vaxtda Ermənistan silahlı qüvvələri yenidən təxribat xarakterli addımlara əl atmışdır. Belə ki, aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı yaşayış məntəqələri, o cümlədən məktəblər, xəstəxanalar və ibadət yerləri intensiv atəşə tutulmuşdur. Bu hücumlar nəticəsində uşaqlar da daxil olmaqla 6 nəfər mülki şəxs həlak olmuş, 33 nəfər isə ağır yaralanmışdır.

Ermənistan 2017-ci ildə də siyasi və hərbi təxribatlarını davam etdirmiş, iyun və iyul aylarında, ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin həlli istiqamətində səylərini intensivləşdirdiyi və beynəlxalq ictimaiyyətin substantiv danışıqlara dair çağırışlarının gücləndiyi bir şəraitdə, Ermənistan tərəfi qoşunların təmas xətti boyunca vəziyyəti məqsədli şəkildə gərginləşdirməyə cəhd göstərmişdir. Ermənistan silahlı birləşmələri ağır artilleriya vasitələrindən istifadə edərək Azərbaycan Silahlı Qüvvələrinin mövqelərini və mülki əhalinin yaşadığı məntəqələri intensiv atəşə tutmuşdur.

Eyni zamanda müxtəlif beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı sənədlərdə Azərbaycanın beynəlxalq hüquqa və tarixi ədalətə əsaslanan mövqeyi dəstəklənmişdir. Bu sənədlər münaqişənin həllinin yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində mümkünlüyünü bir daha təsdiq etmişdir.

2018-ci ildə dəyişən Ermənistan hökuməti münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində addım atmadı, Azərbaycanın və vasitəçilərin bütün sülh təkliflərini rədd etdi, həll yoluna sıfırdan başlayacağını bildirdi. Yeni hakimiyyət özündən əvvəlki hakimiyyətlər kimi müzakirələri uzatmaq taktikasına üstünlük verdi. Təbii ki, Azərbaycan buna laqeyd qala bilməzdi.

Ermənistanın 2020-ci il sentyabrın 27-də başlatdığı II Qarabağ müharibəsində iddiaları böyük idi. Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına Azərbaycanın verdiyi cavab nəticəsində 44 gün davam edən müharibədə Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etdi və tarixi Zəfər qazandı. Müharibə nəticəsində işğal altındakı ərazilərinin böyük bir hissəsi azad edildi, Kəlbəcər, Ağdam və Laçın rayonlarında yerləşən Ermənistan silahlı qüvvələri isə həmin ilin sonuna qədər ərazidən çəkildilər. Bununla da torpaqlarını 30 illik işğaldan azad edən Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirdi.

44 günlük müharibədə məğlub olan Ermənistan və qondarma Dağlıq Qarabağ rəhbərliyi heç bir vəchlə sülh müzakirələrinə başlamaq istəmədilər, konstruktiv davranmadılar. BMT-yə üzv olan heç bir dövlət tərəfindən müstəqilliyi tanınmayan qondarma rejimin Qarabağda fəaliyyətini davam etdirməsi qeyri-qanuni və əlbəttə ki, suveren dövlət daxilində qəbuledilməz idi. Tərəflər arasında imzalanan 9 noyabr sənədinə əsasən, Ermənistan və qondarma Dağlıq Qarabağ arasında əlaqəni Azərbaycan ərazisindən - Laçın üzərindən qurmalı idi. Ermənistan və qondarma Dağlıq Qarabağ rəhbərliyi bu yoldan sosial problemlərini həll etməkdənsə, Ermənistandan qondarma Qarabağa silah və sursat daşımağa üstünlük verdilər. Ermənilər mütəmadi olaraq atəşkəsi pozur, təhlükəsizliyi ciddi şəkildə təhdid edirdilər. Azərbaycan dövlətinin səbrini sınayan qondarma Dağlıq Qarabağ rejimi militarist bəyanatlarına ara vermirdilər.

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması və Ermənistan silahlı qüvvələrinin qalıqlarının tərk-silah edilərək torpaqlarımızdan çıxarılması, həmin ərazilərdə Azərbaycan Respublikası konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə antiterror tədbirlərinə başlandı. Cəmi 23 saat 43 dəqiqə davam edən əməliyyat nəticəsində müzəffər Azərbaycan Ordusu qarşısındakı bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi.

Qondarma Dağlıq Qarabağ rejimi özünü buraxdığını elan etdi. Bununla da Azərbaycan bütün əraziləri üzərində suverenliyini tam bərpa etdi. Hakimiyyətin aliliyi və nəzarət funksiyası tam şəkildə bərpa olundu.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə sentyabrın 20-si ölkəmizdə Dövlət Suverenliyi Günü kimi qeyd edilir.

20 Sentyabr - Dövlət Suverenliyi Günü Azərbaycanın tarixində yalnız bir tarixin deyil, milli iradənin, dövlət müstəqilliyinin və ərazi bütövlüyünün təntənəsinin ifadəsidir. Bu gün biz suverenliyimizin bərpasının yaratdığı yeni reallıqları dəyərləndirməklə yanaşı, əldə olunan nailiyyətlərin qorunmasının və gələcək nəsillərə etibarlı şəkildə ötürülməsinin məsuliyyətini də dərk edirik.

Suverenlik yalnız dövlət sərhədlərinin toxunulmazlığı deyil. O, xalqın öz taleyini müəyyən etmək hüququ, dövlətin öz qərarlarını sərbəst qəbul etmək iradəsi və milli dəyərlər üzərində gələcəyini qurmaq əzmidir.

***Arzu ABDULLAYEV,***
***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini***

## Qalib və suveren Azərbaycan

**Dövlət suverenliyi hər bir xalqın iradəsini, milli dünyagörüşünü və taleyini müəyyən edən fundamental dəyərdir. Zəngin dövlətçilik ənənələri olan Azərbaycan xalqı suverenliyə, dövlət müstəqilliyinə nail olmaq üçün çox sınaqlarla üz-üzə qalıb. 3 il əvvəl, 2023-cü il sentyabrın 20-də Qarabağda erməni separatizminə son qoyulması ilə Azərbaycanın dövlət suverenliyinin bütün ölkə ərazisində təmin olunması isə müasir tariximizin ən mühüm və şərəfli səhifələrindən birini təşkil edir.**

Beynəlxalq hüquq baxımından suveren dövlət sərhədləri daxilində və əraziləri üzərində ali hakimiyyətə və hakimiyyət qollarına malik olan, daxili və xarici siyasətini müstəqil müəyyən edən, ən əsası, digər dövlətlərdən asılı olmayan dövlətdir. Dövlətin müəyyən əraziyə, ali hakimiyyətə və digər dövlətlərlə münasibətlər qurmaq imkanına malik olması suverenliyin fundamental elementləri sırasında dayanır. Bu mənada ərazi bütövlüyü ilə dövlət suverenliyi bir-birini tamamlayan anlayışlardır.

Azərbaycanın müasir tarixində suverenlik məsələsinin xüsusi aktuallıq qazanmasının əsas səbəblərindən biri ölkə ərazisinin - Qarabağ və Şərqi Zəngəzurun Ermənistanın işğalı altında qalması idi. 30 ildən artıq davam edən işğal nəticəsində ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərində şəhər və kəndlər dağıdıldı, yaşayış məntəqələri viran edildi, mədəni və dini irsə ciddi ziyan vuruldu, yüz minlərlə vətəndaşımız öz doğma ev-eşiyindən köçkün düşdü. Təəssüflə qeyd edilməlidir ki, beynəlxalq hüququn Azərbaycanın tərəfində olmasına baxmayaraq, işğal dövründə problemin həllində iştirak edən siyasi mərkəzlər ədalətin təmin edilməsində maraqlı olmadılar və dolayısı ilə Ermənistanın işğal siyasətinə dəstək verdilər. Prezident İlham Əliyev sentyabrın 15-də Türk Dövlətləri Təşkilatının müsəlman dini idarə rəhbərləri Şurasının üzvlərindən və müşahidəçilərindən, Yəhya Bakuvi Beynəlxalq Konfransının həmtəşkilatçılarından və Qafqaz Xalqları Ali Dini Şurasının üzvlərindən ibarət nümayəndə heyətini qəbul edərkən bu məsələni onların diqqətinə çatdıraraq deyib: "Qarabağda və Şərqi Zəngəzurda yerləşən bütün şəhər və kəndlərimiz yerlə yeksan edilmişdir. Xalqımıza qarşı etnik təmizləmə aparılmışdır. Bir milyona yaxın azərbaycanlı Ermənistan dövlətinin etnik təmizləmə siyasəti nəticəsində öz doğma torpaqlarından didərgin salınmışdır. Bildiyiniz kimi, 30 il davam edən danışıqlar heç bir nəticə verməmişdir. Çünki Ermənistan öz xoşu ilə torpaqlarımızdan çıxmaq istəmirdi. Ermənistanı dəstəkləyən böyük sayılan dövlətlər isə məsələni həll etmək yox, uzatmaq və bu işğalı əbədi etmək istəyirdi. Bu dövlətlər Ermənistana hərbi, iqtisadi, siyasi dəstək verərək faktiki olaraq işğalçını mükafatlandırırdı".



Fəaliyyəti 2025-ci ilin Vaşinqton görüşündən sonra hüquqi müstəvidə tam dayandırılmış ATƏT-in Minsk qrupu artıq keçmişdə qalmış Qarabağ məsələsini beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həll etməkdən yayındı. Danışıqlar prosesinin nəticəsiz qalması və Ermənistanın yeni hərbi təxribatlar törətməsi Azərbaycana ərazilərini döyüş yolu ilə azad etməkdən başqa yol qoymadı. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi ölkəmizin ərazi bütövlüyünün bərpası istiqamətində həlledici mərhələ oldu. 44 gün davam edən müharibədə işğal altında olan ərazilərimizin böyük hissəsi döyüş yolu ilə azad edildi, Üçtərəfli Bəyanata əsasən, Kəlbəcər, Ağdam və Laçın rayonları Azərbaycana qaytarıldı. Bununla Azərbaycan BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin icrasını özü təmin etdi.

Lakin Qarabağın bir hissəsində separatçı rejimin mövcudluğu və Ermənistan silahlı qüvvələrinin qalıqlarının bölgədə qalması Azərbaycanın konstitusiya quruluşunun həmin ərazilərdə tam bərpasına maneə olaraq qalırdı. Və bunun fonunda Azərbaycan ictimaiyyəti əmin idi ki, 44 günlük müharibədə qazanılan böyük zəfər dövlət suverenliyinin bütün ərazilərimiz üzrə tam bərpası baxımından başladılan prosesin son mərhələsi deyil. Bu əminliyin təməlində Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli siyasət və Vətən müharibəsində torpaqlarımızın işğaldan azad edilməsi dayanırdı.

Vətən müharibəsinin başa çatmasından sonra, daha dəqiq desək, 2020-2023-cü illərdə Ermənistan Azərbaycanın irəli sürdüyü sülh təşəbbüslərindən müxtəlif bəhanələr və spekulyasiyalarla yayınmağa üstünlük verdi, hərbi təxribatlar törətməklə sülh prosesini sabotaj etdi. İrəvanın üçtərəfli Bəyanatla üzərinə götürdüyü öhdəliklərə əməl etməməsi, silahlı qüvvələrinin qalıqlarını Qarabağ iqtisadi rayonundan çıxarmaması, separatçı dəstələrin tərk-silah olunmaması, Azərbaycan hərbçilərinə və işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri aparan mülki şəxslərə qarşı davamlı şəkildə təxribatların törədilməsi Ermənistanın qarşıdurma və revanşist siyasətə üstünlük verdiyini göstərirdi. Bunlarla yanaşı, Laçın yolu vasitəsilə Ermənistandan Qarabağa silah-sursat daşınır, Azərbaycan ərazilərinin müxtəlif istiqamətlərdə minalanması həyata keçirilirdi. Erməni separatçılar Qarabağın təbii sərvətlərini talan edərək Ermənistana daşıyır, ekosisteminə zərbə vururdular.

Təbii ki, Azərbaycan dövləti üçün bu vəziyyət qəbul edilməz idi. Həmin dövrdə cənab Prezident İlham Əliyev çıxışlarında Ermənistana və Qarabağdakı separatçılara dəfələrlə xəbərdarlıqlar etmişdi. Lakin ermənilər bu xəbərdarlıqlardan, Vətən müharibəsindəki məğlubiyyətdən, 2022-ci ilin sentyabr döyüşlərindən, Fərrux və Qisas əməliyyatlarından, o cümlədən 2023-cü ilin aprelində Laçın rayonunda Ermənistanla sərhəddə nəzarət-buraxılış məntəqəsinin yaradılmasından nəticə çıxarmaq istəmədilər. 2023-cü il sentyabrın 19-da Qarabağdakı separatçı rejimin cinayətkar ünsürləri tərəfindən polislərimizə və mülki vətəndaşlarımıza qarşı törədilən terrorçu hücumlar isə Azərbaycan dövləti tərəfindən antiterror tədbirlərinin həyata keçirilməsini qaçılmaz etdi.

Azərbaycan Silahlı Qüvvələrinin bölmələrinin 2023-cü il sentyabrın 19-da başlatdıqları və bir sutkadan da az davam edən lokal xarakterli antiterror tədbirləri "dəmir yumruğ"un növbəti təntənəsi oldu. 23 saat 43 dəqiqə davam edən tədbirlər nəticəsində qarşıya qoyulan hərbi vəzifələr yerinə yetirildi, Azərbaycan ərazilərində XIX əsrdən kök atmış erməni separatizminə son qoyuldu, Azərbaycan ərazilərində ikinci erməni dövləti yaratmaq kimi sərsəm ideya iflasa uğradıldı. Beləliklə, 2023-cü il sentyabrın 20-də Qarabağda dövlətimizin konstitusion hüquqları təmin olundu, Azərbaycan Respublikası özünün bütün əraziləri üzərində hakimiyyətin aliliyini və suverenliyini tam bərpa etdi. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında Dövlət Suverenliyi Gününün təsis edilməsi haqqında" 19 sentyabr 2024-cü il tarixli sərəncamı ilə 20 sentyabrın Dövlət Suverenliyi Günü kimi təsis edilməsi məhz bu tarixi reallığın siyasi və hüquqi mahiyyətini ifadə edir.

Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri antiterror tədbirlərinin nəticəsində azad edildiyi üçün sentyabrın 20-si ölkəmizdə eyni zamanda Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərləri günü kimi qeyd olunur. Prezident İlham Əliyev tərəfindən 2023-cü il oktyabrın 15-də bu şəhərlərdə Azərbaycanın Dövlət Bayrağının ucaldılması isə bu ərazilərdə dövlət suverenliyinin bərpasının simvolik ifadələrindən biri oldu.

20 Sentyabr Dövlət Suverenliyi Günü Azərbaycanın müasir tarixində bir mərhələnin yekununu və yeni mərhələnin başlanğıcıdır. Yeni mərhələdə dövlətimizin qarşısında dayanan bütün vəzifələr qətiyyətlə yerinə yetirilir. Vətən müharibəsi və antiterror tədbirləri nəticəsində yaranan yeni reallıqların və sülh prosesinin beynəlxalq ictimaiyyət tərəfindən qəbul olunması, sülh sazişinin mətninin paraflanması, Qarabağ və Şərqi Zəngəzurun quruculuğu, Böyük qayıdışın sürətlə həyata keçirilməsi, Azərbaycanın Avrasiya coğrafiyasının əməkdaşlıq mərkəzinə və regionun orta gücünə çevrilməsi göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bu yeni mərhələdə Azərbaycan öz hədəflərinə doğru inamla irəliləyir, tarixini yeni uğurlarla zənginləşdirir.

***Nəsib MƏHƏMMƏLİYEV,***
***Milli Məclisin deputatı***

# Dövlət suverenliyi milli sərvətimizdir



## Yurduna əbədi qayıdan müqəddəs bayraq

### 2022-ci il sentyabrın 21-də dövlətimizin başçısı Laçın şəhərində Azərbaycan bayrağını qaldırıb

**Laçının dağları çox tarixi hadisənin şahidi oldu. Sinəsi yurd yerlərinə çevrildi, el-oba quruldu. O yurdlara yurddaş olanların sevincli günlərini də, toy-büsatlarını da, kədərli, dərdli anlarını da gördü. Bu dağların üzərində yurdunun hər qarışını, torpağını, daşını yağılardan qorumaq üçün silaha sarılan, sinəsini sipər edən, canından keçən igidlərin adları həkk olunub. Çox qovğalar görüb. Ən ağırı 1990-cı illərdə erməni quldurlarının işğalına məruz qalması oldu. 1992-ci il mayın 18-də Laçın işğalçıların əlinə keçdi. Laçınlılar yurd-yuvasından didərgin düşdülər. On illər boyu məcburi köçkün adının əzablarına qatlaşmalı oldular. Qarabağın və Şərqi Zəngəzurun Ermənistan tərəfindən işğal edilmiş digər əraziləri kimi, Laçını da erməni vandalları xarabalığa çevirdilər.**

2020-ci ilin payızında baş verən Vətən müharibəsində Azərbaycan böyük Zəfəri ilə bu ədalətsizliyə son qoydu. Müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini ağır məğlubiyyətə uğratdı.

Azərbaycanın azadlığının, dövlət müstəqilliyinin rəmzi olan üçrəngli ayulduzlu bayrağımızı sovet hakimiyyəti yetmiş il işığa həsrət qoymuşdu. 1990-cı illərdə ölkəmiz yenidən müstəqilliyinə qovuşduqdan sonra bayrağımız da azadlığa çıxmışdı. Ancaq həmin illərdə dövlətimizin Ermənistan tərəfindən işğal olunan iyirmi faiz ərazisinə bu səadət nəsib olmamışdı. Vətən müharibəsində qazandığımız qələbələrdən sonra işğalçıların əsarətindən qurtulan torpaqlarımızda üçrəngli bayrağımız dalğalandı.

Hələ bir müddət də gözü yolda qalan Laçına və digər ərazilərimizə nəhayət ki, xoş günlər gəldi. Müqəddəs bayrağımız həmin torpaqları da salamladı. Prezident İlham Əliyev 2022-ci il sentyabrın 21-də Laçın şəhərində Azərbaycan bayrağını ucaltdı. Dövlətimizin başçısı çıxışında qeyd etdi ki, 44 günlük Vətən müharibəsinin sonunda Ermənistan kapitulyasiya aktına imza atmağa məcbur oldu və beləliklə, Azərbaycanın tarixi Zəfəri təsdiqləndi. Dövlətimizin başçısı xatırlatdı ki, bu kapitulyasiya aktının nəticəsində Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal edilmiş hissəsindən öz qoşunlarını çıxarmalı idi və buna əməl etdi. Azərbaycan dövlətinin növbəti qətiyyətli addımları nəticəsində avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu. Prezident İlham Əliyevin vurğuladığı kimi, bu, tarixi hadisədir: "Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan Bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır".

Dövlətimizin başçısı Laçında üçrəngli bayrağımızı ucaldarkən erməni vandalizminin təzahürlərinin hər bir kənddə, hər bir şəhərdə olduğunu, bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilərin qanunsuz məskunlaşma apardıqlarını diqqətə çatdırdı. Ermənistandan və daha çox xaricdən - Suriya və Livandan erməniəsilli insanları gətirib burada qanunsuz yerləşdirdiklərini qeyd etdi, nəzərə çatdırdı ki, bu, hərbi cinayətdir, bütün beynəlxalq konvensiyalarda hərbi cinayət kimi təsbit edilir və bu cinayət dünya ictimaiyyətinin gözü qarşısında baş vermişdir: "Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrləri buna, sadəcə olaraq, göz yumurdular. Halbuki dəfələrlə bu mənzərəni görürdülər, dəfələrlə. Bax, bu yolla Ermənistandan Qarabağa, Qarabağdan Ermənistana gedərək görürdülər ki, burada qanunsuz məskunlaşma aparılır. Görürdülər ki, Azərbaycan toponimləri sıradan çıxarılır. Görürdülər ki, bizim tarixi, qədim Azərbaycan torpağı olan Laçın erməniləşdirilir, burada qanunsuz məskunlaşma aparılır. Ancaq buna göz yumurdular, sanki bununla razılaşırdılar. Biz Azərbaycan xalqı isə bununla heç vaxt razılaşa bilməzdik. Mən hər dəfə deyirdim ki, heç vaxt imkan verə bilmərik bizim torpağımızda ikinci erməni dövləti yaradılsın".

Azərbaycanın işğal olunmuş ərazilərini müharibə deyil, sülh yolu ilə geri qaytarmaq istəyi də həmin təşkilatlara bəlli idi. Dövlətimizin başçısının bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi olmaya da bilərdi. Ancaq Ermənistan xarici havadarlarına güvənərək işğalçılıq siyasətindən əl çəkmədi. Beləliklə, Azərbaycanın sülh təşəbbüsləri dalana dirəndi. Müharibə Ermənistanın təxribatları nəticəsində baş verdi. Və Ermənistan da, ona himayədarlıq edən ölkələr və beynəlxalq təşkilatlar da Azərbaycanın gücünü gördülər.

Bu gün Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi bütün dünyada tanınır. Dövlətimiz öz siyasətinə sadiqdir, sülh yolu ilə əzmlə irəliləyir.

İşğaldan azad edilmiş ərazilərimizdə "Böyük qayıdış" proqramı çərçivəsində misilsiz işlər görülür. Yeni yaşayış məskənləri qurulur. Keçmiş məcburi köçkünlər öz yurdlarına qayıdırlar. Laçınlılar da ata-baba yurdlarına dönürlər. Onları doğma torpaqlarında müqəddəs bayrağımız qarşılayır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Bir Zəfər - dörd şəhər, əbədi qürur

### Xankəndi, Ağdərə, Xocavənd və Xocalı şəhər günlərini qeyd edir

**2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda uğurla həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində Ermənistan silahlı qüvvələrinin tör-töküntüləri və uzun illərdən bəri bölgədə yerləşmiş erməni separatçıları məhv edildi, qondarma rejim ləğv olundu. Düşmən üzərində qazanılan qələbə nəticəsində Azərbaycan uzun illərdən sonra beynəlxalq səviyyədə tanınmış əraziləri üzərində suverenliyini tam şəkildə bərpa etdi. Uzun illərdən bəri terrorçuların məkanına çevrilmiş Xankəndi şəhəri, Ağdərə, Xocavənd və Xocalı rayonları erməni qəsbkarlarından azad olundu. Bu uğurlu əməliyyat dövlətçilik tariximizin ən şərəfli səhifələrindən biri kimi əbədi olaraq yaddaşlara yazıldı.**

Prezident İlham Əliyevin 18 sentyabr 2024-cü ildə imzaladığı sərəncama əsasən, hər il sentyabrın 20-də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhər günləri təntənəli şəkildə qeyd edilir. İkinci Qarabağ müharibəsində Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfərdən sonra ata-baba yurduna qayıtmış insanlar bu günü böyük sevinc içində keçirirlər.

İnsanlara böyük qürur bəxş edən bu günün təntənəli şəkildə keçirilməsi, dövlətçilik ənənələrinin möhkəmlənməsinin, milli birliyin daha da güclənməsinin və işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin geniş miqyas almasının göstəricisidir. Xankəndi, Xocalı, Xocavənd və Ağdərə gününün təsis olunması igid oğullarımızın canı və qanı bahasına mümkün olmuşdur.

20 Sentyabr Azərbaycanın dövlətçilik tarixində şərəfli bir səhifə oldu. Bu gün həm hərbi qələbənin, həm də bərpa, inkişaf və milli birliyin simvoluna çevrildi. Ağır və gərgin döyüşlərdən sonra düşmən üzərində qazanılan Zəfər və görülən quruculuq işləri aydın şəkildə göstərdi ki, Azərbaycan dövləti qətiyyətli iradəsi, iqtisadi potensialı və milli həmrəyliyi ilə yanaşı, həm də parlaq gələcəyini formalaşdırmaqdadır.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev 2023-cü il oktyabrın 15-də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərində təntənəli surətdə Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı. Uzun illərdən sonra bu şəhərlərdə Azərbaycanın üçrəngli bayrağı əzəmətlə dalğalanmağa başladı.

Azərbaycan Prezidenti İlham Əliyev həmin gün Xankəndi şəhərində bayrağımızı ucaldarkən bildirdi: "Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. "Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi. Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əmin idik və inanırdıq ki, bu gün gələcək. İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma birnömrəli vəzifə qoymuşdum ki, Azərbaycan bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır".

Erməni işğalından azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də regionda peşəkar kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini ortaya çıxardı. Bu məqsədlə Prezident İlham Əliyevin 2023-cü il 28 noyabr tarixli sərəncamı ilə Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs yaradıldı.

2023-cü il dekabrın 5-də qəbul edilmiş qanuna əsasən, Ağdam, Kəlbəcər və Tərtər rayonlarının inzibati ərazi bölgüsündə qismən dəyişikliklər edilərək mərkəzi Ağdərə şəhəri olmaqla Ağdərə rayonu yaradıldı.

İşğaldan azad olunmuş Qarabağın şəhərlərində müasir infrastrukturun qurulması, yolların, məktəblərin, səhiyyə müəssisələrinin və idman obyektlərinin istifadəyə verilməsi, bölgənin sürətli inkişafına təkan verir. Xankəndidə Konqres Mərkəzinin, yeni hotellərin, Zəfər parkının və digər mühüm obyektlərin işə düşməsi Azərbaycanın güclü iradəsinin və sistemli inkişaf strategiyasının aydın göstəricisidir.

Xankəndi, Xocalı, Xocavənd və Ağdərə təkcə coğrafi məkan deyil, həm də Azərbaycan xalqının tarixində mühüm mədəniyyət ocaqlarıdır. Xocalı soyqırımında şəhid olanların xatirəsinin əbədiləşdirilməsi məqsədilə memorial kompleksin tikilməsi həm tarixi ədalətin bərpasını göstərir, həm də gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasına xidmət edir.









Qarabağın işğaldan azad olunması, bu ərazilərdə bərpa və quruculuq işlərinin aparılması yalnız Azərbaycanın milli maraqlarına deyil, həm də regional sabitlik və təhlükəsizliyə əlverişli zəmin yaradır. 2025-ci ildə Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşünün keçirilməsi Qarabağın beynəlxalq əhəmiyyətini daha da artırır. Bu, həm də Azərbaycanın regionda lider dövlət kimi mövqeyini möhkəmləndirdiyini göstərir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Qarabağa səfərləri, müxtəlif sosial layihələrin açılışında iştirakı həm dövlətin diqqətini, həm də xalqın mənəvi birliyini ifadə edir. Xocalı, Xocavənd və Ağdərədə həyata keçirilən müvafiq tədbirlər bölgənin tarixboyu Azərbaycan mədəniyyətinin ayrılmaz hissəsi olduğunu bir daha dünyaya göstərir.

Ötən il olduğu kimi, bu il də Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhər günləri Qarabağda təntənəli şəkildə keçirilir. 30 ilə yaxın davam edən erməni işğalından sonra doğma ocaqlarına qayıtmış keçmiş məcburi köçkünlərin üzü gülür.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

## Tarixə yazılan antiterror tədbirləri

### Bu əməliyyatla Qarabağda separatizmə son qoyuldu

**Bəzən tarix bir xalqın taleyində illərlə gözlənilən böyük bir hadisənin həllini cəmi bir günə sığdırır. O an gələndə meydanda təkcə silahların səsi deyil, dövlət iradəsinin gücü, siyasi uzaqgörənliyin nəticəsi və ordunun peşəkarlığı danışır. 2023-cü ilin 19-20 sentyabrında Qarabağda keçirilən antiterror tədbirləri məhz belə tarixi məqam oldu. Bu əməliyyat Azərbaycanın ərazisində suverenliyini tam təmin etməsi ilə nəticələnən mühüm hadisə kimi dövlətçilik salnaməsinə əbədi yazıldı.**

Bu tarixi hadisəyə aparan yol heç də asan və qısa olmadı. 2023-cü il sentyabrın 18-də Xocavənd rayonunda ermənilərin yol üzərində yerləşdirdiyi minaların partlaması nəticəsində altı Azərbaycan vətəndaşı həyatını itirdi. Onlardan ikisi Avtomobil Nəqliyyatı Agentliyinin, dördü isə Daxili İşlər Nazirliyinin əməkdaşı idi. Sentyabrın 19-da saat 11:45 radələrində isə Ağdam istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqeləri minaatanlardan və müxtəlif çaplı atıcı silahlardan atəşə tutuldu, iki hərbi qulluqçumuz yaralandı. Bu hadisələr bölgədəki silahlı təxribatların və təhlükənin davam etdiyini bir daha təsdiq etdi.

44 günlük Vətən müharibəsindən sonra yaranmış yeni reallıqlara baxmayaraq, Qarabağda Ermənistan silahlı qüvvələrinin qalıqları və qanunsuz silahlı birləşmələr mövcudluğunu davam etdirirdi. Azərbaycanın Qarabağda yaşayan erməni sakinlərinin cəmiyyətə reinteqrasiyası ilə bağlı təkliflərinin qəbul edilməməsi, bölgədə silahlanmanın və revanşist meyillərin davam etməsi vəziyyəti daha da gərginləşdirirdi. Azərbaycan dövləti ərazisində təhlükəsizliyi, konstitusiya quruluşunu və suverenliyi tam təmin etmək üçün qəti addım atmaq məcburiyyətində qaldı.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin uzaqgörən siyasəti bu mərhələdə özünü daha aydın şəkildə göstərdi. Dövlətimizin başçısının illər ərzində həyata keçirdiyi ordu quruculuğu siyasəti, hərbi potensialın gücləndirilməsi, müasir silah və texnologiyaların tətbiqi, eləcə də Vətən müharibəsində qazanılmış təcrübə Azərbaycanın qarşısında duran vəzifələrin həllində mühüm rol oynadı. Siyasi iradə ilə hərbi hazırlığın vəhdəti əməliyyatın nəticəsini müəyyən edən əsas amillərdən biri oldu. Antiterror tədbirləri sentyabrın 19-da, təxminən saat 13:00-da başladı. Müdafiə Nazirliyinin məlumatına görə, əməliyyat çərçivəsində Ermənistan silahlı qüvvələrinin ön xətt və dərinlikdə yerləşən mövqeləri, uzunmüddətli atəş



nöqtələri, döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksəkdəqiqlikli silahlarla sıradan çıxarıldı. Əməliyyatın əsas xüsusiyyətlərindən biri hərbi hədəflərin dəqiq seçilməsi, mülki əhalinin və infrastrukturun qorunmasına xüsusi diqqət yetirilməsi idi. Prezident İlham Əliyevin tapşırığına əsasən, zərbələrin yalnız hərbi obyektlərə yönəldilməsi, mülki şəxslərin təhlükəsizliyinin təmin olunması tələb edilirdi.

Azərbaycan Ordusunun döyüşçüləri qarşı tərəfin kifayət qədər ciddi hərbi imkanlara malik olduğunu bilirdilər. Əməliyyat ərəfəsində erməni hərbi qüvvələrinin təxminən 300 artilleriya və 50-dən çox minaatan mövqeyi, yer-hava raket sistemləri, radiolokasiya stansiyaları və radioelektron mübarizə vasitələri mövcud idi. Buna baxmayaraq, Azərbaycan Ordusu planlı, çevik və dəqiq hərbi əməliyyat aparmaq qabiliyyətini nümayiş etdirdi. Qoşun növləri arasında qarşılıqlı əlaqələrin düzgün qurulması, raket-artilleriya və hərbi-hava qüvvələrinin imkanlarından səmərəli istifadə, Vətən müharibəsinin təcrübəsinin yeni şəraitə uyğun tətbiqi mühüm nəticələr verdi. Sentyabrın 19-da bölmələrimizin nəzarətinə 60-dan çox döyüş mövqeyi keçdi. Ertəsi gün isə səhər saatlarında döyüşlər davam etsə də, günorta saatlarına qədər Ermənistan silahlı qüvvələrinin 90-dan çox döyüş mövqeyi və bir neçə strateji yüksəklik nəzarətə götürüldü. Papravənd, Qalayçılar, Sırxavənd, Harov, Yemişcan, Qarakənd, Qacar, Qarabulaq, Sıqnax, Əliağalı və Xocalı istiqamətlərində gedən döyüşlər nəticəsində qarşı tərəfin döyüş potensialı sıradan çıxarıldı.

Sentyabrın 20-də günorta saatlarında separatçı rejimin rəhbərliyi Azərbaycanın şərtlərini qəbul etməyə, silahlı birləşmələrin tərk-silahına və silahı yerə qoymağa hazır olduğunu bildirdi. Sonrakı günlərdə Azərbaycan Müdafiə Nazirliyinin açıqladığı siyahılarda böyük həcmdə silah-sursat və hərbi texnikanın müsadirə edildiyi göstərildi. Sentyabrın 28-nə olan məlumata görə, 1151 atıcı silah, 84 qumbaraatan, 16 top və haubitsa, 39 minaatan, 22 tank əleyhinə silah, 132 HHM silahı, 18 zirehli texnika, 120 avtomobil, 984 raket, 6 653 minaatan mərmisi, 652 842 patron və digər sursatlar ələ keçirilmişdi.

Prezident İlham Əliyev qələbədən sonra xalqa müraciətində hadisənin tarixi mahiyyətini lakonik və aydın ifadə etdi: "Bir gün ərzində Azərbaycan bütün vəzifələri yerinə yetirdi və öz suverenliyini bərpa etdi". Bu fikir yalnız bir hərbi əməliyyatın yekununu deyil, Azərbaycan dövlətinin uzunmüddətli mübarizəsinin nəticəsini də ifadə edirdi. Beləliklə, 19-20 sentyabr 2023-cü il hadisələri Azərbaycanın dövlətçilik tarixində yeni mərhələnin başlanğıcı oldu. Suverenliyin tam bərpası xalqın yaddaşında həm qələbə, həm də bu qələbə uğrunda canından keçən şəhidlərin müqəddəs əmanəti kimi yaşayacaq.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

## 20 sentyabr "Əsrin müqaviləsi"nin imzalanmasının 32-ci ildönümü və Azərbaycan neftçilərinin peşə bayramı günüdür



# Əsrlərə hesablanmış saziş

**Sentyabrı mübaliğəsiz olaraq neft ayı adlandırmaq olar. Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsini nəzərdə tutan, daşıdığı mühüm əhəmiyyətə görə daha sonra "Əsrin müqaviləsi" adını alan möhtəşəm saziş məhz sentyabr ayında - 1994-cü il sentyabrın 20-də imzalanıb. 2001-ci il avqustun 16-da isə Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə sentyabrın 20-si Azərbaycanda Neftçilər Günü kimi təsis edilib.**

"Əsrin müqaviləsi"nin 20 illik yubileyi qeyd edilərkən Azərbaycanın təkcə neft-qaz sənayesinin deyil, ümumən tarixinin daha bir önəmli hadisəsi baş verib. Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin təməli qoyulub. Bu, həmin dəhlizdir ki, onun reallaşması ilə Avropanın enerji xəritəsi dəyişib, qədim neft diyarı Azərbaycan dünyada həm də qaz ixrac edən ölkə kimi tanınıb.

Vaxtilə "Əsrin müqaviləsi"ni xülya adlandıranlar vardı. Hamı, elə onların özləri də gördülər ki, bu, təkcə bir əsrin kontraktı deyil, əsrlərə hesablanmış bir müqavilədir. Belə ki, 2017-ci il sentyabrın 14-də AÇG-nin işlənməsinin müddəti 2050-ci ilın əvvəlinə qədər uzadıldı. Prezident İlham Əliyevin iştirakı ilə imzalanan bu saziş isə "Yeni əsrin müqaviləsi" adını aldı.

Bütün bunlar Azərbaycan neftinin təntənəsidir ki, bir-birinə qovuşan bu bayramları xalqımız sözügedən şərəfli peşə sahibləri ilə birlikdə qeyd edir. Bəli, bu salnamə 32 il əvvəl sentyabrın 20-də imzalanan uğurlu müqavilədən başlandı.

AÇG müqavilə sahəsi dənizdə, Bakıdan təxminən 100 kilometr şərqdə yerləşir. Bu meqastruktur Xəzər dənizinin altında 2000-3500 metr dərinlikdə yerləşən Balaxanı VIII və X, həmçinin yuxarı və aşağı Fasilə lay dəstələrini əhatə edir.

Xatırladaq ki, "Əsrin müqaviləsi"nin imzalandığı vaxt torpaqlarının 20 faizi işğal altında olan Azərbaycan dünyada riskli ölkə sayılırdı. Belə bir vəziyyətdə xarici neft şirkətlərini inandırmaq, onları Azərbaycana sərmayə qoymağa cəlb etmək mürəkkəb məsələ idi. Ölkənin xəzinəsinin boş olması isə xarici investisiyanın cəlb edilməsini gündəmə gətirmiş, demək olar ki, zərurətə çevirmişdi.

Məhz belə çətin dövrdə Ulu Öndər Heydər Əliyev növbəti tarixi missiyasını yerinə yetirdi. Ümummilli Liderin uzaqgörənliyi, səyi və mübarizəsi, dünyadakı siyasi nüfuzu sayəsində Azərbaycanın yeni neft strategiyasının təməl daşı olan "Əsrin müqaviləsi" imzalandı. Bu da bir həqiqətdir ki, "Əsrin müqaviləsi" postsovet məkanında xarici neft şirkətləri ilə imzalanan ilk beynəlxalq sazişdir.

AÇG-nin işlənməsi bir neçə mərhələdə həyata keçirilib. Belə ki, "Çıraq" yatağından hasilat İlkin Neft Layihəsi (İNL) çərçivəsində 1997-ci ilin noyabrından başlanıb. Bunun ardınca "Azəri" layihəsinin birinci mərhələsi - "Mərkəzi Azəri" gəlir. Buradan hasilat 2005-ci ilin əvvəlində başlanıb. Sonrakı ikinci faza - "Qərbi Azəri" və "Şərqi Azəri" platformalarını əhatə edib. Onlardan isə hasilat müvafiq olaraq 2005-ci ilin dekabrında və 2006-cı ilin axırlarında alınıb. AÇG-nin işlənməsinin növbəti üçüncü fazası çərçivəsində "Dərinsulu Günəşli" platformasından hasilat 2008-ci ilin aprelində başlanıb. Həmin fazalardan sonra "Qərbi Çıraq" platformasını əhatə edən "Çıraq Neft Layihəsi" reallaşıb. Bu platformadan ilk neft 2014-cü il yanvarın 28-də əldə edilib.

AÇG yataqlarının işlənməsi ilə əlaqədar ən sonuncu layihə "Azəri Mərkəzi Şərqi"dir (ACE). Bu layihə "Yeni əsrin müqaviləsi"nə əsasən işlənir. Layihəyə 2019-cu ildə sanksiya verilib. Bundan sonra tikilən ACE platformasından ("Yeni əsrin müqaviləsi" çərçivəsində) ilk neft 2024-cü il aprelin 16-da əldə olunub.

AÇG üzrə yenilənmiş saziş imzalanarkən Prezident İlham Əliyev demişdir: "Bu gün mən xüsusilə bizim əsas tərəfdaşımızın - BP şirkətinin fəaliyyətini qeyd etmək istəyirəm… BP bizim bütün əsas layihələrimizdə əsas tərəfdaş və investor kimi fəaliyyət göstərir. Həm "Azəri-Çıraq-Günəşli"də, Bakı-Tbilisi-Ceyhan layihəsində, "Şahdəniz" layihəsində, "Cənub qaz dəhlizi" layihəsində. Yəni bu strateji tərəfdaşlıq artıq böyük sınaqlardan çıxıb. Bizim aramızda - SOCAR ilə BP arasında yaranmış çox gözəl işgüzar münasibətlər, qarşılıqlı etimad o cümlədən bugünkü mərasimi mümkün etmişdir. Çünki sirr deyil ki, - mən də bunu qeyd etdim, - "Azəri-Çıraq-Günəşli" yatağının çox böyük potensialı var. Bir daha qeyd etmək istəyirəm, bugünkü hesablamalara görə, 1 milyard ton neft ehtiyatı var. Bu gün imzalanan saziş 1994-cü ildə imzalanan sazişdən daha da böyükmiqyaslıdır".



Bu gün AÇG-dən hasilat fasiləsiz və təhlükəsiz halda davam edir. İndi buradan gündə təxminən 323 min barel neft alınır. Əlbəttə, hasilatın pik vaxtında çıxarılan neft həcmləri bundan xeyli çox olmuşdu. Hazırda AÇG nefti dünya bazarlarına əsasən Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) kəməri ilə ixrac edilir.

Neft həcmlərinin Azərbaycana gətirdiyi faydalar da misilsizdir. Bu barədə çox deyilib, çox yazılıb. Dövlətimizin başçısı dönə-dönə vurğulayıb ki, ölkəmizin əsas gəlir mənbəyi "Azəri-Çıraq-Günəşli" yataqlarıdır və bunu hamı bilməlidir. Bu gün Azərbaycan o ölkələrdəndir ki, öz hesabına yaşayır, kifayət qədər valyuta ehtiyatları var, iqtisadiyyatı dinamik şəkildə inkişaf edir, iqtisadi şaxələndirmə, neft-qaz amilindən asılılığının azaldılması istiqamətində önəmli addımlar atır.

32 il əvvəl kontrakt imzalanarkən Ulu Öndər Heydər Əliyevin dediyi sözlər yada düşür: "Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdiririk ki, müstəqil Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Azərbaycanda demokratik prinsiplərin bərqərar olması və inkişaf etməsi üçün geniş meydan açılmışdır. Azərbaycan Respublikası bazar iqtisadiyyatı yolu ilə getmək əzmindədir. Bu müqavilənin imzalanması bazar iqtisadiyyatının Azərbaycanda həyata keçirilməsi üçün ilk böyük addımdır. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər sahələrdə çalışan şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq, müstəqil Azərbaycan Respublikasının iqtisadiyyatında və ictimai-siyasi həyatında hökm sürən sabitliyi dünyaya bir daha nümayiş etdiririk".

İndi bu sazişin təcrübəsindən özümüz də bəhrələnirik, qonşularımız və dostlarımız da. "Əsrin müqaviləsi" elə möhkəm özülə, elə davamlı platformaya çevrilib ki, onun üzərindən yeni möhtəşəm layihələrə yol açılıb. Üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan, Ümummilli Lider Heydər Əliyevin adını şərəflə daşıyan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri çəkilib, Azərbaycanı qaz ixracatçısı kimi tanıdan Bakı-Tbilisi-Ərzurum kəməri inşa edilib. Ölkəmizi pan-Avropa qaz təchizatçısına çevirən 3500 kilometrlik "Cənub qaz dəhlizi" yaradılıb.

Nailiyyətlərimiz daha da artır. Ən başlıcası isə mənfur düşməni zəbt etdiyi doğma torpaqlarımızdan qovmuş, erməni faşizmi üzərində tam qələbə çalmışıq. İndi Qarabağı və Şərqi Zəngəzuru cənnətə çeviririk. Prezidentimiz bu zəfərlər üçün neft layihələrindən iqtisadi güc aldığımızı dəfələrlə vurğulayıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Prezidentin hər səfəri iqtisadi inkişafa yeni təkan verir

**Əsrlər boyu öz sözünü deyən Şamaxı rayonu bu gün də zəngin torpağı, çalışqan insanları və iqtisadi potensialı ilə seçilir. Bölgə Azərbaycanın qədim və zəngin tarixə malik ərazilərindən biri olmaqla yanaşı, ölkənin iqtisadi və sosial həyatında özünəməxsus mövqeyə malikdir. Əlverişli coğrafi mövqeyi, münbit torpaqları və təbii ehtiyatları rayonun iqtisadi inkişafına imkan yaradır.**

Rayonun iqtisadi həyatında kənd təsərrüfatı aparıcı istiqamətlərdən biridir. Geniş əkin sahələri, bağları və üzüm plantasiyaları illərdir yerli təsərrüfatın əsasını təşkil edir. Xüsusilə üzümçülük rayonun adı ilə assosiasiya olunan sahələrdəndir. Vaxtilə formalaşmış üzümçülük ənənəsi bu gün yeni yanaşmalar və müasir təsərrüfat üsulları ilə yaşadılır. Eləcə də taxılçılıq, heyvandarlıq, meyvəçilik və bağçılıq da kənd təsərrüfatının ümumi mənzərəsində geniş yer tutur. Bu sahələr rayonun kəndlərində həyatın, məşğulluğun və yerli iqtisadi fəallığın davamlılığını təmin edən əsas istiqamətlərdir.

Qeyd edək ki, Şamaxı Prezident İlham Əliyevin xüsusi diqqət göstərdiyi rayonlardan biridir. Dövlət başçısının Şamaxıya mütəmadi səfərləri, burada həyata keçirilən layihələrin açılışında iştirakı və rayonun inkişaf perspektivləri ilə bağlı verdiyi mesajlar həmin diqqətin ardıcıl və məqsədyönlü xarakter daşıdığını göstərir. Bölgəyə hər səfər rayonun qarşısında duran əsas inkişaf istiqamətlərinin nəzərdən keçirilməsi, yeni layihələrin təqdimatı və mövcud potensialın daha geniş şəkildə reallaşdırılması baxımından əhəmiyyət daşıyır.

Üzümçülüyün yenidən dirçəldilməsi ilə yanaşı, Şamaxının aqrar potensialının digər istiqamətlər üzrə də hərəkətə gətirilməsi diqqət mərkəzindədir. 2018-ci ildə isə Meysəri kəndində "Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksinin açılışında İlham Əliyev Şamaxının ənənəvi üzümçülük diyarı olduğunu və rayonun üzümçülük mərkəzi kimi inkişaf etdirilməsi fikrini xüsusi vurğulayıb. Burada üzümçülüyün yalnız tarixi ənənə kimi qorunması deyil, onun müasir istehsal, emal, məşğulluq və ixrac imkanları ilə əlaqələndirilməsi nəzərdə tutulur.

Bu istiqamətdə həyata keçirilən işlərin ardıcıllığı 2026-cı il martın 23-də Prezident İlham Əliyevin Şamaxıya növbəti səfəri zamanı da özünü göstərdi. İlham Əliyev səfər çərçivəsində "Şirvan Aqro" heyvandarlıq kompleksinin açılışında iştirak edib. Təxminən 100 hektar ərazini əhatə edən kompleksdə 9 min baş heyvanın saxlanılması üçün imkan yaradılıb və layihənin əsas məqsədlərindən biri süd və ət istehsalının artırılması ilə yanaşı, Şamaxı və ətraf rayonlarda məşğulluğa töhfə verməkdir. Dövlət başçısı bu müəssisənin Şamaxının və bütövlükdə ölkənin kənd təsərrüfatının inkişafı baxımından əhəmiyyətini xüsusi qeyd edib.

Şamaxının inkişafı müxtəlif istiqamətləri əhatə edir. Kənd təsərrüfatı ilə yanaşı, turizmin inkişafına və yeni iqtisadi imkanların yaradılmasına da diqqət yetirilir. Rayonun zəngin tarixi-mədəni irsinin qorunması və tanıdılması isə bu işlərin mühüm hissəsidir. Bu baxımdan son illər həyata keçirilən layihələr Şamaxının həm müasir turizm məkanı kimi mövqeyinin möhkəmləndirilməsinə, həm də zəngin tarixi-mədəni irsinin qorunmasına xidmət edir. Bu istiqamətdə görülən işlərin növbəti nümunəsi iki gün öncə - sentyabrın 17-də Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Şamaxıya səfəri zamanı bir daha özünü göstərib. Səfər çərçivəsində onlar bir sıra layihələrlə tanış olub, yeni turizm obyektlərinin açılışında iştirak edib, eyni zamanda tarixi-mədəni irsin qorunması istiqamətində görülən işlərlə tanış olublar.

Elə buradaca qeyd edək ki, Şamaxının təbiəti və zəngin tarixi turizmə qapı açır. Qədim abidələr, dağ mənzərələri, üzüm bağları və kənd həyatı burada turizmin müxtəlif istiqamətlərinin inkişafı üçün imkan yaradır. Bu baxımdan turizm yalnız istirahət sektoru deyil, həm də kənd təsərrüfatını, ictimai iaşəni, nəqliyyatı, xidmət sahələrini və yerli sahibkarlığı hərəkətə gətirən iqtisadi qüvvədir. Səfər çərçivəsində "Meysari Grand Hotel & SPA" kompleksinin açılışında iştirak edilməsi, "Pirqulu Park" hotelinin təqdimatı, "Nəsimi Bağları" kompleksi ilə tanışlıq və Pir Ömər Sultan ziyarətgahında aparılan konservasiya işlərinə baxış Şamaxının inkişafının müxtəlif istiqamətlərinin diqqətdə saxlanıldığını göstərir. Xüsusilə "Meysari Grand Hotel & SPA" kompleksində 320 yeni iş yerinin yaradılması rayonun turizm potensialı ilə yanaşı, yerli məşğulluq və iqtisadi fəallıq baxımından da yeni imkanlar formalaşdırdığını göstərir.

Prezidentin Şamaxıya son səfəri onu deməyə əsas verir ki, rayonun zəngin tarixi-mədəni irsinin tanıdılması, turizm imkanlarının genişləndirilməsi və mövcud potensialının daha çox artırılması istiqamətində qarşıdakı dövrdə də mühüm addımlar atılacaq. Şamaxının tarixi keçmişi, zəngin mədəni irsi və əlverişli coğrafi mövqeyi onu ölkənin turizm xəritəsində xüsusi mövqeyə çıxaran əsas amillərdəndir. Burada tarixi abidələrin qorunması və bərpası ilə yanaşı, müasir turizm infrastrukturunun yaradılması da rayonun cəlbediciliyini artırır. Bu proses Şamaxının yalnız yerli turistlər üçün deyil, Azərbaycanın tarixi və mədəni irsi ilə maraqlanan xarici ziyarətçilər üçün də daha tanınan və cəlbedici məkana çevrilməsinə imkan yaradır.

Şamaxının böyük iqtisadi imkanları var. Bu imkanlardan səmərəli istifadə etmək üçün müxtəlif sahələrin inkişafını paralel şəkildə davam etdirmək vacibdir. Kənd təsərrüfatının, turizmin və sahibkarlığın inkişafı yeni istehsal və xidmət sahələrinin yaranmasına şərait yaradar. Bu isə rayonda həm iqtisadi fəallığı, həm də məşğulluq imkanlarını artıra bilər.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Sahibkarlığa yeni dəstək mexanizmləri müzakirə olunub

**Masallı Rayon İcra Hakimiyyəti və İqtisadiyyat Nazirliyinin Lənkəran-Astara regional bölməsinin birgə təşkilatçılığı ilə "Sahibkarlığa yeni dəstək alətləri və mövcud mexanizmlərin genişləndirilməsi" mövzusunda tədbir keçirilib.**



Tədbiri Masallı Rayon İcra Hakimiyyəti başçının müavini, Sosial-iqtisadi və memarlıq-tikinti məsələləri şöbəsinin müdiri Adəm Məhərrəmov açaraq bildirib ki, Prezident İlham Əliyev tərəfindən 25 may 2026-cı il tarixdə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi və bundan irəli gələn bəzi məsələlərin tənzimlənməsi haqqında sərəncam imzalanmışdır. Sərəncamın icrası ilə əlaqədar Masallı rayonunda kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair İş Planı hazırlanaraq təsdiq edilib. Rayon üzrə investisya qoyuluşu 500 min manatdan çox 18 və 500 min manatdan az 28 olmaqla, ümumilikdə 46 sahibkarlıq subyekti dövlət proqramının icrasına qoşulub. Sahibkarlığın inkişafının dəstəklənməsi, ixrac imkanlarının genişləndirilməsi, maliyyə resurslarına çıxışın asanlaşdırılması və investisiya layihələrinin təşviqi məqsədilə yeni dəstək mexanizmləri müəyyən edilib.

Masallı Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Seymur Nuriyev Masallı rayonunda kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrində tətbiq ediləcək yeni subsidiya və dövlət dəstəyi mexanizmləri barədə məlumat verərək bildirib ki, yeni qərarlara əsasən, müasir suvarma sistemlərindən istifadə edən fermerlər üçün bir sıra əkin subsidiyalarının məbləği artırılır. Əlavə olaraq qeyd olunub ki, yeni subsidiya və dövlət dəstəyi mexanizmlərinin tətbiqi Masallı rayonunda kənd təsərrüfatı istehsalının genişləndirilməsi, müasir texnologiyaların tətbiqi, emal sahələrinin inkişafı və sahibkarlıq fəaliyyətinin stimullaşdırılması baxımından mühüm imkanlar yaradır.

İqtisadiyyat Nazirliyinin Lənkəran-Astara regional bölməsinin rəisi Elvin Nəhmətov "Sahibkarlığa yeni dəstək alətləri və mövcud mexanizmlərin genişləndirilməsi" mövzusunda təqdimatı tədbir iştirakçılarının nəzərinə çatdırıb. Təqdimatda ixrac fəaliyyətinə dəstək olaraq Azərbaycan mənşəli qeyri-neft-qaz məhsullarının xarici bazarlara ixracı zamanı yaranan daşıma xərclərinin 70 faizədək hissəsinin dövlət tərəfindən qarşılanması nəzərdə tutulur.

Yeri gəlmişkən, Naxçıvan Muxtar Respublikasında istehsal olunan məhsulların ölkənin digər ərazilərinə daşınması üzrə xərclərin 70 faizi dəstək məbləği kimi sahibkara geri ödəniləcək. Mikro, kiçik və orta sahibkarlıq subyekti olan ixracatçıların gömrük rəsmiləşdirilməsi xərclərinin bir hissəsi kompensasiya ediləcək.

Güzəştli maliyyələşmə məqsədilə sahibkarlar üçün 5 faizlə güzəştli kreditlər, eləcə də 9 faizədək faiz dərəcəsi ilə avadanlıq kreditləri təqdim edilir. Kreditlər üzrə hesablanmış illik faizin 50 faizinin dövlət tərəfindən subsidiyalaşdırılması nəzərdə tutulur. Girov imkanları kifayət etməyən sahibkarlar üçün kreditin əsas borcuna dövlət zəmanəti verilməsi də mümkündür.

Elektrik şəbəkəsinə qoşulma: Sənaye və kənd təsərrüfatı daxil olmaqla 23 fəaliyyət sahəsində çalışan sahibkarların elektrik şəbəkəsinə qoşulma haqqının 50 faizinin dövlət büdcəsindən subsidiya kimi ödənilməsi nəzərdə tutulur. Mexanizmin 2027-2030-cu illərdə tətbiqi planlaşdırılır.

Strateji investisiya layihələri: Ölkənin uzunmüddətli inkişaf prioritetlərinə uyğun, yüksək investisiya tutumuna və sosial-iqtisadi nəticələrə malik layihələrin "sürətli keçid" mexanizmi əsasında seçilməsi nəzərdə tutulur.

Mexanizm aidiyyəti dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsinə və layihələrin icra müddətinin qısaldılmasına xidmət edəcək. Yeni dəstək alətləri sahibkarların maliyyə imkanlarının artırılmasına, ixracın stimullaşdırılmasına, investisiya fəaliyyətinin genişləndirilməsinə və regionlarda sahibkarlığın inkişafına yönəlib.

Tədbir sahibkar və fermerlərin sualları, eləcə də diskussiya ilə yekunlaşıb.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*



# Türk dünyasının strateji gücü və milli dövlətçiliyin yeni mərhələsi

**Dünya siyasətinin bugünkü mənzərəsi dövlətlərin gücü və dayanıqlığı haqqında təsəvvürləri əhəmiyyətli dərəcədə dəyişdirir. Beynəlxalq münasibətlər sistemində baş verən proseslər göstərir ki, dövlətçiliyin davamlılığı yalnız hərbi potensialla, iqtisadi imkanlarla və siyasi institutların fəaliyyəti ilə ölçülə bilməz. Dövlətin möhkəmliyi siyasi iradənin ardıcıllığı, cəmiyyətin daxili bütövlüyü, milli özünüdərk, informasiya məkanının dayanıqlığı və strateji məqsədlərin düzgün müəyyənləşdirilməsi ilə də sıx bağlıdır. Bu reallıq təhlükəsizlik anlayışının məzmununu genişləndirərək onu dövlət həyatının müxtəlif istiqamətlərini birləşdirən strateji məsələ səviyyəsinə yüksəldir.**

Son illərin beynəlxalq təcrübəsi bu yanaşmanı daha da aktuallaşdırıb. Geosiyasi rəqabət, regional münaqişələr, enerji və nəqliyyat marşrutları ətrafında formalaşan maraqlar, informasiya məkanında təsir imkanlarının genişlənməsi, iqtisadi asılılıqlar və transmilli təhlükələr dövlətlərin qarşısında daha mürəkkəb və çoxşaxəli vəzifələr yaradır. Belə bir şəraitdə təhlükəsizliyi yalnız mövcud risklərə cavab vermək kimi qiymətləndirmək kifayət etmir. Dövlətin iqtisadi gücü, siyasi sabitliyi, ictimai həmrəyliyi, milli dəyərlərə bağlılığı və strateji müstəqilliyi vahid dövlətçilik sistemi daxilində nəzərdən keçirilməlidir.

Bu reallıq türk dünyası üçün xüsusi əhəmiyyət daşıyır. Tarix, dil, mədəniyyət və mənəvi yaxınlıq türk dövlətləri arasında münasibətlər üçün dərin ictimai zəmin yaradır. Bu yaxınlıq artıq yalnız mədəni və humanitar əlaqələr çərçivəsində qalmır. Türk Dövlətləri Təşkilatının inkişafı, dövlətlər arasında siyasi dialoqun genişlənməsi, enerji və nəqliyyat layihələrinin artması, qarşılıqlı investisiyaların dərinləşməsi və humanitar münasibətlərin intensivləşməsi türk dünyasının beynəlxalq münasibətlər sistemində daha fəal mövqeyə doğru irəlilədiyini göstərir.

Cənab Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatının təhlükəsizlik məsələləri üzrə yüksəkvəzifəli nümayəndələri ilə Bakıda keçirilən görüşündə səsləndirdiyi fikirlər də bu baxımdan xüsusi maraq doğurur. Çıxışda təhlükəsizlik məsələsinin daha geniş siyasi çərçivədə təqdim olunması diqqəti cəlb edir. Burada təhlükəsizlik çağırışları ilə yanaşı, türk dünyasının tarixi və mənəvi birliyi, iqtisadi potensialı, enerji ehtiyatları, coğrafi mövqeyi, gənc əhalisi və gələcək inkişaf imkanları arasında qarşılıqlı əlaqə ön plana çıxır.

Çıxışın əsas siyasi məğzini də məhz bu bütöv yanaşmada axtarmaq lazımdır. Türk dünyasının gələcəyi yalnız mövcud problemlərin həlli ilə müəyyənləşmir. Əsas məsələ mövcud potensialın siyasi iradə və strateji əməkdaşlıq vasitəsilə real gücə çevrilməsidir. Bu isə təhlükəsizlikdən iqtisadi gücə, iqtisadi imkanlardan enerji və nəqliyyat əməkdaşlığına, oradan milli dövlətçiliyin və ictimai dayanıqlığın möhkəmlənməsinə uzanan vahid strateji xətt yaradır.

## Təhlükəsizlik və iqtisadi güc bir-birini tamamlayan amillərdir

Dövlətin təhlükəsizlik imkanları ilə onun iqtisadi potensialı arasında birbaşa bağlılıq mövcuddur. Güclü iqtisadiyyat dövlətə strateji qərarlarını daha müstəqil həyata keçirmək, uzunmüddətli layihələrə sərmayə qoymaq, sosial və müdafiə siyasətinin dayanıqlığını qorumaq və beynəlxalq münasibətlərdə milli maraqlarını daha geniş imkanlarla ifadə etmək şəraiti yaradır. Bu səbəbdən iqtisadi güc sadəcə inkişaf göstəricisi deyil, milli dövlətçiliyin strateji dayaqlarından biridir.

Ümummilli Lider Heydər Əliyevin dövlətçilik fəlsəfəsində iqtisadi gücə verilən əhəmiyyət də məhz bu düşüncəni əks etdirir. Onun "İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" fikri iqtisadi qüdrətlə dövlətin ümumi gücü arasındakı əlaqəni son dərəcə yığcam ifadə edir. Bu yanaşmada iqtisadi inkişaf rifah məsələsindən daha geniş məna daşıyır. Söhbət dövlətin siyasi müstəqilliyini, strateji qərarvermə imkanlarını və milli maraqlarını qoruma qabiliyyətini gücləndirən maddi bazadan gedir.

Heydər Əliyevin siyasi irsinə nəzər saldıqda bu düşüncənin konkret dövlət siyasətində öz ifadəsini tapdığını görmək mümkündür. Azərbaycanın enerji potensialının milli maraqlara uyğun dəyərləndirilməsi, xarici investisiyaların cəlb edilməsi və ölkənin dünya iqtisadi sisteminə inteqrasiyası sonrakı inkişaf üçün mühüm baza yaratdı. Enerji strategiyası Azərbaycanın iqtisadi imkanlarını genişləndirməklə yanaşı, onun regional və beynəlxalq mövqeyinə də təsir göstərdi. Bu təcrübə iqtisadi resursların düzgün idarə edilməsinin dövlətin siyasi çəkisinə necə çevrilə bildiyini göstərən mühüm nümunədir.

Türk dünyasının bugünkü potensialına bu prizmadan yanaşdıqda daha böyük imkanlar görünür. Türk dövlətlərinin malik olduğu enerji ehtiyatları, insan kapitalı, istehsal imkanları, coğrafi üstünlüklər və nəqliyyat infrastrukturu ayrı-ayrı milli resurslar kimi deyil, bir-birini tamamlayan regional imkanlar kimi qiymətləndirilə bilər. Burada əsas məsələ resursların mövcudluğu ilə kifayətlənməyərək onların qarşılıqlı əməkdaşlıq sisteminə daxil edilməsidir.

Türk dünyasının coğrafiyası bu baxımdan mühüm üstünlük yaradır. Xəzər hövzəsi Mərkəzi Asiya ilə Azərbaycan arasında təbii bağlantı məkanı olmaqla yanaşı, daha geniş anlamda Şərqlə Qərb arasında enerji, ticarət və nəqliyyat əlaqələrinin inkişafı üçün mühüm imkanlar açır. Nəqliyyat dəhlizləri, limanlar, dəmir yolları, enerji xətləri və logistika infrastrukturu bir-birindən ayrı layihələr kimi deyil, vahid regional bağlantı sisteminin elementləri kimi inkişaf etdikdə onların iqtisadi və strateji əhəmiyyəti daha da artır.

Nəqliyyat dəhlizlərinin əhəmiyyəti yalnız yük daşımalarının sürətlənməsi ilə məhdudlaşmır. Onlar dövlətlərin bazarlara çıxış imkanlarını genişləndirir, investisiya cəlbediciliyini artırır və müxtəlif ölkələrin iqtisadiyyatlarını bir-birinə daha sıx bağlayır. Eyni məntiq enerji sahəsinə də aiddir. Enerjinin istehsalı, emalı, nəqli və bazarlara çatdırılması üzrə əməkdaşlıq dövlətlər arasında uzunmüddətli iqtisadi maraqlar yaradır və bu maraqlar siyasi münasibətlərin davamlılığı üçün də əlavə zəmin formalaşdırır.

Azərbaycanın bu prosesdə mövqeyi xüsusi əhəmiyyət daşıyır. Azərbaycanın Xəzər hövzəsində yerləşməsi, enerji layihələrində fəal iştirakı və Avropa ilə Mərkəzi Asiya arasında bağlantı imkanları ölkəmizə türk dünyasının iqtisadi əməkdaşlığında mühüm rol verir. Azərbaycanın həyata keçirdiyi enerji və nəqliyyat layihələri ölkənin regional əhəmiyyətini artırmaqla yanaşı, türk dövlətləri arasında iqtisadi əlaqələrin dərinləşməsi üçün də münbit imkan yaradır.

İnvestisiya əməkdaşlığı isə bu iqtisadi əlaqələrin daha uzunmüddətli xarakter almasına şərait yaradır. Qarşılıqlı investisiyaların, birgə fondların və ortaq layihələrin genişlənməsi kapitalın region daxilində daha səmərəli istiqamətləndirilməsinə, yeni istehsal və logistika imkanlarının yaranmasına kömək edir. Belə mexanizmlər siyasi münasibətlərin konkret iqtisadi məzmun qazanmasına və dövlətlər arasında qarşılıqlı etimadın möhkəmlənməsinə də xidmət edir.

Beləliklə, iqtisadi inteqrasiyanın əsas nəticəsini yalnız ticarət dövriyyəsinin artımında axtarmaq düzgün olmaz. Daha mühüm məsələ dövlətlərin bir-birinin imkanlarını tamamlayan iqtisadi sistem formalaşdırmasıdır. Enerji, nəqliyyat, investisiya, istehsal və texnologiya sahələrində əlaqələr dərinləşdikcə türk dövlətlərinin ümumi iqtisadi çəkisi də artır. Bu baxımdan iqtisadi güc təhlükəsizlik siyasətinin kənarında dayanan ayrıca sahə deyil, onun əsas dayaqlarından biridir.

## Coğrafiyanın strateji üstünlüyə çevrilməsi

Türk dövlətlərinin yerləşdiyi coğrafiya onlara mühüm strateji imkanlar verir. Bu coğrafiya Avrasiyanın müxtəlif istiqamətlərini birləşdirən geniş məkan olmaqla enerji, ticarət, nəqliyyat və kommunikasiya baxımından xüsusi əhəmiyyət daşıyır. Lakin coğrafi mövqenin özü hələ strateji üstünlüyün tam ifadəsi deyil. Əsas məsələ bu üstünlüyün müasir infrastruktur, iqtisadi əməkdaşlıq və siyasi koordinasiya vasitəsilə real imkanlara çevrilməsidir.

Bu baxımdan yol, liman, dəmir yolu, enerji xətti və rəqəmsal kommunikasiya layihələrinin bir-biri ilə əlaqələndirilməsi mühüm əhəmiyyət daşıyır. Ayrı-ayrı milli infrastrukturlar vahid regional sistemə daxil olduqda türk dünyasının iqtisadi potensialı daha geniş miqyasda üzə çıxır. Azərbaycan təcrübəsi bu baxımdan xüsusi maraq doğurur. Ölkəmizin regional enerji və nəqliyyat layihələrində iştirakı coğrafi mövqenin konkret iqtisadi və siyasi üstünlüyə çevrilməsinin nümunəsidir.

Bu proses Azərbaycanın iqtisadi diplomatiyasının da əhəmiyyətini artırır. Dövlətlərin iqtisadi maraqları bir-birinə daha sıx bağlandıqca siyasi dialoq üçün əlavə zəmin yaranır. Qarşılıqlı investisiyalar, enerji layihələri, nəqliyyat əlaqələri və ticarət münasibətləri dövlətlər arasında uzunmüddətli maraqlar sistemi formalaşdırır. Bu isə türk dünyasının strateji birliyinin yalnız siyasi bəyanatlar deyil, konkret iqtisadi münasibətlər üzərində də qurulmasına imkan verir.

## Milli dövlətçilik və ortaq mənəvi təməl

Türk dünyasının gücünü yalnız iqtisadi göstəricilərlə qiymətləndirmək mümkün deyil. İqtisadi və siyasi imkanların uzunmüddətli nəticəyə çevrilməsi üçün onları daşıyan cəmiyyətin milli özünüdərki, dövlətçilik düşüncəsi və ictimai həmrəyliyi mühüm əhəmiyyət daşıyır.

Tarixi təcrübə göstərir ki, dövlətin maddi resursları ilə ictimai dayaqları arasında möhkəm əlaqə mövcuddur. Milli-mənəvi dəyərlər bu baxımdan yalnız mədəni irsin qorunması məsələsi deyil. Onlar cəmiyyətin öz tarixinə, dövlətinə və milli kimliyinə münasibətini formalaşdıran mühüm amillərdir. Türk dövlətləri arasında ortaq tarixi yaddaş, dil, mədəniyyət və mənəvi dəyərlərin mövcudluğu da dövlətlərarası münasibətlər üçün xüsusi ictimai baza yaradır.

Cənab Prezident İlham Əliyevin çıxışında milli şüur, mənəvi dəyərlər və gənc nəslin dövlətçilik ruhunda yetişdirilməsi məsələlərinə diqqət yetirilməsi bu baxımdan mühüm məna daşıyır. Dövlətçiliyin gələcəyi yalnız bu günün siyasi qərarları ilə müəyyənləşmir. Gələcək nəsillərin öz tarixini, milli kimliyini və dövlətçilik ənənələrini necə dərk etməsi də uzunmüddətli strateji məsələdir.

Bu səbəbdən türk dövlətlərinin gəncləri arasında əlaqələrin genişləndirilməsi xüsusi əhəmiyyət daşıyır. Təhsil proqramları, elmi və mədəni layihələr, forumlar, konfranslar və gənclər platformaları ortaq düşüncə məkanının inkişafına xidmət edə bilər. Gənclər arasında formalaşan əlaqələr gələcəkdə dövlətlərarası münasibətlərin ictimai əsaslarını daha da möhkəmləndirə bilər.

## İnformasiya məkanı və müasir dövlətçilik

Müasir təhlükəsizliyin digər mühüm istiqaməti informasiya məkanıdır. İnformasiya texnologiyalarının inkişafı dövlətlər arasında əlaqələri sürətləndirməklə yanaşı, ictimai rəyə təsir imkanlarını da genişləndirib. Bu səbəbdən informasiya təhlükəsizliyi artıq dövlət siyasətinin mühüm istiqamətlərindən biri kimi qəbul olunur.

Cəmiyyətin informasiya savadlılığı, milli informasiya resurslarının inkişafı, tarixi həqiqətlərin düzgün təqdim edilməsi və gənclərin informasiya mühitində sağlam düşüncə formalaşdırması bu sahədə xüsusi əhəmiyyət daşıyır. Türk dünyası üçün bu istiqamətdə əməkdaşlıq imkanları genişdir. Media qurumları, elm və təhsil strukturları, tədqiqat mərkəzləri və gənclər təşkilatları arasında əlaqələrin artırılması ortaq informasiya məkanının formalaşmasına töhfə verə bilər.

İnformasiya sahəsində əməkdaşlığın başqa bir mühüm tərəfi türk dövlətlərinin öz mövqelərini beynəlxalq ictimaiyyətə daha dolğun şəkildə çatdırması ilə bağlıdır. Tarix, mədəniyyət, milli kimlik və dövlətçilik haqqında məlumatların müxtəlif informasiya platformalarında düzgün təqdim edilməsi ölkələrin beynəlxalq imicinə və qarşılıqlı ictimai anlaşmaya təsir göstərir. Bu baxımdan informasiya əməkdaşlığı təhlükəsizlik və diplomatiyanın tamamlayıcı istiqaməti kimi çıxış edir.

## Təhlükəsizlik əməkdaşlığının institusional gələcəyi

TDT-nin təhlükəsizlik sahəsində əməkdaşlığının inkişafı da yeni mərhələnin mühüm tələblərindən biridir. Müasir təhlükələrin bir hissəsi dövlət sərhədləri ilə məhdudlaşmır. Terrorçuluq, transmilli cinayətkarlıq, kibertəhdidlər, qanunsuz maliyyə şəbəkələri və digər risklər dövlətlər arasında operativ məlumat mübadiləsini və koordinasiyanı zəruri edir.

Bu baxımdan təhlükəsizlik şuraları və aidiyyəti qurumlar arasında əlaqələrin sistemli şəkildə inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır. Risklərin əvvəlcədən müəyyənləşdirilməsi, zəif nöqtələrin təhlili, məlumat mübadiləsinin sürətləndirilməsi və qabaqlayıcı mexanizmlərin yaradılması daha səmərəli təhlükəsizlik siyasətinin əsasını təşkil edir.

Cənab Prezidentin çıxışında bu sahədə koordinasiyanın və qarşılıqlı məlumat mübadiləsinin əhəmiyyətinə diqqət yetirilməsi də həmin strateji yanaşmanı əks etdirir. Təhlükəsizlik sahəsində əməkdaşlığın institutlaşması siyasi iradənin davamlı mexanizmlərlə möhkəmləndirilməsi deməkdir. Dövlətlərarası münasibətlərin uzunmüddətli xarakter alması üçün siyasi qərarlarla yanaşı, onları həyata keçirən davamlı institutların formalaşması da vacibdir.

## Türk dünyasının qarşısında dayanan strateji perspektiv

TDT qarşısında duran əsas məsələlərdən biri mövcud potensialın daha sistemli siyasi və iqtisadi gücə çevrilməsidir. Enerji ehtiyatları, nəqliyyat imkanları, əlverişli coğrafi mövqe, insan kapitalı, investisiya potensialı və ortaq mədəni dəyərlər bir-birini tamamlayan mühüm resurslardır. Bu resursların vahid strateji düşüncə daxilində əlaqələndirilməsi türk dünyasının beynəlxalq münasibətlər sistemindəki çəkisini daha da artıra bilər.

Türk dünyasının qarşısında duran əsas imkan məhz bu potensialların bir sistem daxilində birləşdirilməsidir. Ortaq tarix mənəvi zəmin yaradır, iqtisadi əməkdaşlıq bu yaxınlığa maddi məzmun verir, təhlükəsizlik sahəsində koordinasiya qarşılıqlı etimadı möhkəmləndirir, siyasi iradə isə bütün bu istiqamətləri strateji məqsədə çevirir. Azərbaycanın bu prosesdəki mövqeyi həm tarixi, həm siyasi, həm də geostrateji baxımdan xüsusi əhəmiyyət daşıyır. Ölkəmizin türk dünyası ilə münasibətlərə verdiyi önəm, enerji və nəqliyyat layihələrindəki rolu, qarşılıqlı investisiya əlaqələrinin inkişafına verdiyi töhfələr və təhlükəsizlik sahəsində əməkdaşlığa yanaşması Azərbaycanın bu ümumi prosesdəki fəal mövqeyini müəyyənləşdirir.

Heydər Əliyevin dövlətçilik irsindən gələn mühüm dərslərdən biri dövlətin müxtəlif imkanlarının vahid milli məqsəd ətrafında səfərbər edilməsinin əhəmiyyətidir. İqtisadi qüdrət, siyasi sabitlik, milli həmrəylik və dövlətçilik şüuru bu mənada bir-birindən ayrı istiqamətlər deyil, dövlətin ümumi gücünü formalaşdıran qarşılıqlı bağlılıqdır. Bu yanaşma türk dünyasının bugünkü reallıqları üçün də əhəmiyyətli düşüncə bazası yaradır.

Bu gün türk dünyası üçün yeni mərhələ məhz kompleks yanaşma tələb edir. Tarixi və mənəvi yaxınlığın real siyasi və iqtisadi imkanlarla tamamlanması, təhlükəsizlik əməkdaşlığının institusional mexanizmlərlə möhkəmləndirilməsi, enerji və nəqliyyat imkanlarının qarşılıqlı şəkildə inkişaf etdirilməsi, gənclər arasında əlaqələrin genişləndirilməsi və informasiya məkanında əməkdaşlığın dərinləşdirilməsi vahid strateji xəttin müxtəlif istiqamətləridir.

Cənab Prezident İlham Əliyevin çıxışının əsas siyasi məğzi də burada ifadə olunur. Türk dünyasının potensialı artıq yalnız tarixi və mədəni yaxınlıq müstəvisində qiymətləndirilən məsələ deyil. Bu potensial təhlükəsizlik, iqtisadiyyat, enerji, nəqliyyat, informasiya, gənclər və dövlətçilik kimi istiqamətlərin bir-biri ilə əlaqələndirilməsi əsasında daha geniş strateji məna qazanır.

Türk dünyasının qarşısında böyük siyasi və tarixi imkan dayanır. Bu imkanın real gücə çevrilməsi mövcud resursların necə əlaqələndirilməsindən və dövlətlər arasında strateji koordinasiyanın hansı səviyyədə qurulmasından asılıdır. Dövlətlərin iqtisadi imkanları bir-birini tamamladıqda, təhlükəsizlik sahəsində etibarlı əməkdaşlıq mexanizmləri formalaşdıqda, ortaq mənəvi dəyərlər yeni nəsillərə ötürüldükdə və siyasi iradə uzunmüddətli institutlarla dəstəkləndikdə TDT-nin beynəlxalq sistemdəki rolu üçün daha möhkəm zəmin yaranır.

Bakıda səslənən fikirlərin əsas əhəmiyyəti də burada üzə çıxır. Bunları yalnız konkret təhlükəsizlik gündəliyinin müzakirəsi kimi deyil, türk dünyasının gələcək inkişaf istiqamətlərinə dair daha geniş siyasi düşüncənin ifadəsi kimi qiymətləndirmək mümkündür. Məsələnin mahiyyəti ortaq tarixi yaddaşı müasir dövlətçilik imkanları ilə birləşdirmək, iqtisadi və geosiyasi potensialı strateji gücə çevirmək və türk dünyasının gələcəyini qarşılıqlı etimad, milli dövlətçilik və uzunmüddətli əməkdaşlıq üzərində qurmaqdır.

*Sadiq QURBANOV,*
*Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri*

# Türk dünyasının aparıcı gücü

## Azərbaycan TDT-nin qlobal mövqeyinin güclənməsində və nüfuzlu təşkilata çevrilməsində müstəsna rol oynayır

**Ortaq tarix, dil, mədəniyyət və mənəvi bağları paylaşan türk dövlətləri arasındakı münasibətlər, sadəcə, humanitar çərçivə ilə məhdudlaşmır. Birgə əməkdaşlıq təhlükəsizlik, enerji, nəqliyyat, investisiya, siyasi koordinasiya, gənclər siyasəti və başqa önəmli sahələri də əhatə edir. Günümüzün sürətlə dəyişən reallıqlarında Türk Dövlətləri Təşkilatının (TDT) gücünü və imkanlarını artırmaq zərurəti hər zamankından daha qabarıq şəkildə üzə çıxır.**

Azərbaycan bu təşkilatın formalaşmasında, tərəqqisində və aparıcı beynəlxalq mərkəzə çevrilməsində müstəsna rol oynayır. Ölkəmizin TDT üzvləri üçün fəal, etibarlı və əlaqələndirici platforma təmin etməsi türk dünyasının birliyini, həmrəyliyini gücləndirir. Bu baxımdan bir neçə gün ərzində Bakının mühüm sahələri əhatə edən mötəbər tədbirlərə evsahibliyi etməsi heç də təsadüfi deyil. Sentyabrın 15-də TDT-yə üzv dövlətlərin dini liderlərinin, bu ayın 18-də isə Təhlükəsizlik Şuralarının katiblərinin 5-ci iclasının məhz Azərbaycanda təşkil edilməsi ölkəmizin təşkilat çərçivəsindəki münasibətlərinin yüksək səviyyəsini, sistemli və çoxşaxəli xarakterini nümayış etdirir. Bu dinamika Azərbaycanın türk dünyasında dialoq, təhlükəsizlik və strateji əməkdaşlıq üçün birləşdirici mövqeyinin nə qədər möhkəm olduğunu göstərir.

Bu strateji xəttin əyani təzahürü Prezident İlham Əliyevin Bakıda TDT-yə üzv ölkələrin təhlükəsizlik üzrə rəhbər şəxslərini qəbul etməsidir. Dövlətimizin başçısı ardıcıl görüşlərin əhəmiyyətinə diqqət çəkərək təşkilatın artan nüfuzunu xüsusi vurğulayıb: "Cəmi bir neçə gün əvvəl ölkələrimizi təmsil edən dini liderləri qəbul etmişdim. Bu gün isə təşkilatın təhlükəsizlik şuralarının katibləri şuranın 5-ci iclasını keçirmək üçün Bakıda toplaşıblar. Bütün bunlar təşkilatımız çərçivəsində fəal qarşılıqlı əlaqənin göstəricisidir. Həmçinin onu göstərir ki, Türk Dövlətləri Təşkilatı çox böyük beynəlxalq nüfuza malik olan bir təşkilatdır". Prezident İlham Əliyev bildirib ki, TDT-nin gündəliyi geniş miqyas alaraq qlobal məsələləri əhatə edir: "Müxtəlif formatlarda müzakirə olunan məsələlər beynəlxalq gündəliyi, beynəlxalq təhlükəsizliyi, multikulturalizm, ticarət, nəqliyyat, ümumilikdə humanitar əməkdaşlıqla bağlı məsələləri əhatə edir".

Bakı yalnız tədbirlərin keçirildiyi məkan deyil, həm də TDT daxilində ortaq maraqların uyğunlaşdığı və regional təhlükəsizlik arxitekturasının formalaşdığı mühüm platformaya çevrilir. Hazırda qarşıda duran əsas hədəflərdən biri təşkilatın beynəlxalq arenadakı çəkisinin və nüfuzunun daha da artırılmasıdır. Dövlətimizin başçısı üzv dövlətlərin bu məsələdə vahid mövqeyə malik olduğunu bildirib: "Biz hamımız bunda maraqlıyıq. Təşkilata üzv ölkələrin rəhbərlərinin ümumi mövqeyi məhz ondan ibarətdir ki, beynəlxalq arenada TDT-nin rolunu və yerini gücləndirək. Bunun üçün bütün imkanlar var. Ölkələrimizin potensialı kifayət qədər böyükdür və güclənməkdə davam edir".

Azərbaycanın türk dünyası ilə inteqrasiyası tarixi köklərə və milli maraqlara söykənən konseptual xarici siyasət kursuna əsaslanır. Rəsmi Bakı Türk Dövlətləri Təşkilatının güclənməsini regional sabitliyin, təhlükəsizliyin və inkişafın əsas zəmanətlərindən biri kimi görür. Dövlətimizin başçısı bu strateji xətti vurğulayaraq bildirib ki, ölkəmizin ikitərəfli gündəliyi ilk növbədə türk dünyası ölkələrinə yönəlib: "Bu, açıq çıxışlarımda dəfələrlə ifadə etdiyim kimi, bizim əsas xarici siyasət prioritetimizdir. O cümlədən demişəm ki, türk dünyası bizim ailəmizdir və bizim başqa ailəmiz yoxdur". Bu bariz yanaşma Azərbaycanın qardaş ölkələrlə münasibətləri ən yüksək səviyyədə, müttəfiqlik müstəvisində inkişaf etdirmək əzmindən xəbər verir. Bakının bu tərəfdaşlıq siyasəti türk dünyasının vahid iqtisadi, hərbi və mənəvi güc mərkəzinə çevrilməsini hədəfləyir. Nəticədə Azərbaycanın atdığı ardıcıl və məqsədyönlü addımlar təşkilat daxilində sarsılmaz həmrəyliyin formalaşmasına xidmət edir.

Müasir geosiyasi şərait göstərir ki, təhlükəsizlik anlayışı yalnız hərbi-siyasi müstəvi ilə məhdudlaşa bilməz. Enerji resurslarının təhlükəsizliyi və nəqliyyat dəhlizlərinin dayanıqlılığı da regional təhlükəsizliyin ayrılmaz hissəsidir. Azərbaycanın coğrafi mövqeyi, Avropa ilə Asiyanın qovşağında yerləşməsi və inkişaf etmiş infrastrukturu ölkəmizi TDT daxilində strateji bağlantı mərkəzinə çevirir. Mərkəzi Asiyanı Xəzər dənizi üzərindən Cənubi Qafqaz və Türkiyə ilə, oradan isə Avropa bazarları ilə birləşdirən "Şərq-Qərb" nəqliyyat dəhlizi və Orta dəhliz çərçivəsində Azərbaycan əvəzolunmaz mərkəzdir. Eyni zamanda Zəngəzur dəhlizi (TRIPP) Orta dəhliz və "Şimal-Cənub" marşrutları çərçivəsində regionun iqtisadi və logistik imkanlarını genişləndirən yeni marşrutdur. Dövlətimizin başçısı müasir dövrdə bu amillərin həlledici xarakter daşıdığını bildirib: "Bu gün enerji təhlükəsizliyi və nəqliyyat bağlantıları olmadan, ümumiyyətlə, təhlükəsizlikdən danışmaq mümkün deyil".

Təhlükəsizlik arxitekturasının digər mühüm tərkib hissəsi milli-mənəvi dəyərlərin qorunması, ideoloji təhlükəsizliyin təmin olunması və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsidir. İnformasiya və kommunikasiya texnologiyalarının sürətlə inkişaf etdiyi dövrdə sabitliyi pozmaq istəyən qüvvələrin əsas hədəfi gənclər olur. Bu baxımdan gənc nəslin milli soy-kökə və mənəvi ənənələrə bağlı yetişməsi böyük əhəmiyyət daşıyır. TDT çərçivəsində gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi, birgə layihələrin icrası türk dünyasının gələcək nəsilləri arasında həmrəylik körpüsünü gücləndirir. Azərbaycan Prezidentinin çıxışında vurğuladığı kimi, gənc nəslin vətənpərvərlik, milli prinsiplərə və mənəvi dəyərlərimizə sadiqlik ruhunda tərbiyə olunması çox vacibdir: "Əlbəttə, bu, TDT-nin fəal çalışmalı olduğu geniş sahədir, o cümlədən gənclər siyasəti ilə bağlı tədbirlər çərçivəsində".

Ümumilikdə, Azərbaycanın türk dünyasının tərəqqisi yönündə addımları siyasi koordinasiya, hərbi və ideoloji təhlükəsizlik, enerji və nəqliyyat şəbəkələri, birgə investisiyalar və mənəvi-mədəni inteqrasiya kimi bir-birini tamamlayan sütunlar üzərində yüksəlir. Bakıda ardıcıl olaraq keçirilən yüksəksəviyyəli TDT tədbirləri Azərbaycanın təşkilat daxilindəki lokomotiv rolunun əyani sübutudur. Prezident İlham Əliyevin vurğuladığı kimi, qarşıda duran əsas məqsəd bu böyük potensialı vahid gücə çevirməkdir. Beləliklə, Azərbaycan özünün qətiyyətli xarici siyasəti, zəngin resursları və strateji təşəbbüsləri ilə Türk Dövlətləri Təşkilatının qlobal miqyasda söz sahibinə çevrilməsi yolunda tarixi missiyasını şərəflə yerinə yetirməkdədir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Aqrar siyasət komitəsinin iclası keçirilib

**Sentyabrın 18-də Milli Məclisin Aqrar siyasət komitəsinin 2026-cı ilin payız sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan komitə sədri Tahir Rzayev yeni sessiyada komitənin fəaliyyətinə uğurlar arzulayıb, gündəliyə 6 məsələnin daxil edildiyini bildirib.**



Gündəliyin birinci məsələsi olan 2026-cı ilin yaz və növbədənkənar sessiyaları ərzində Milli Məclisin Aqrar siyasət komitəsində görülən işlər barədə hesabatı təqdim edən komitə sədri vurğulayıb ki, ötən dövr ölkənin həyatı əlamətdar hadisələrlə zəngin olub. Dövlət rəhbərinin müdrik siyasəti sayəsində Azərbaycanın iqtisadiyyatı inkişaf edib, Azərbaycanın beynəlxalq aləmdə nüfuzu artıb, vətəndaşlarımızın rifah halının yaxşılaşmasına xidmət edən dövlət proqramları qəbul edilib. Qeyd olunub ki, dövlətimizin başçısının qarşıya qoyduğu vəzifələrin icrasında parlament də yaxından iştirak edir.

Məlumat verilib ki, ötən sessiyada komitənin 11 iclası keçirilib, 15 məsələyə baxılıb. Həmçinin hesabat dövrü ərzində komitədə ictimai dinləmələr, müzakirələr, görüşlər və digər tədbirlər keçirilib. Qeyd olunub ki, sözügedən dövr ərzində komitənin ünvanına 45 məktub, təklif, ərizə daxil olub, müraciətlərdəki məsələlərin həlli ilə bağlı aidiyyəti təşkilatlara məktublar göndərilib, ərizələrin əksəriyyəti müsbət cavablandırılıb.

Aqrar siyasət komitəsinin 2026-cı ilin payız sessiyası üçün iş planının layihəsi ilə bağlı bildirilib ki, planda qanunvericilik təşəbbüsü qaydasında təqdim olunan qanun layihələrinin müzakirəsi, komitənin profilinə uyğun mövzularda dinləmələrin keçirilməsi və digər məsələlər əks olunub.

Sonra Mülki Məcəllədə, Gömrük Məcəlləsində, "Xidməti və mülki silah haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "Ovçuluq haqqında", "İxrac nəzarəti haqqında" və "Telekommunikasiya haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı komitə sədri bildirib ki, layihə "Lisenziyalar və icazələr haqqında" qanuna uyğunlaşdırma xarakteri daşıyır və adıçəkilən qanunlarda "xüsusi" sözünün müvafiq yerlərdən çıxarılması təklif olunub.

Bildirilib ki, gündəliyin digər məsələsi olan Mülki Məcəllədə və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) əsas məqsədi ölkə ərazisində dövlət ehtiyacları üçün torpaq sahələrinin alınması prosedurlarının tənzimlənməsi sahəsində mövcud olan qanunvericilik bazasının təkmilləşdirilməsidir.

Gündəlikdəki digər 2 məsələ - "Məhsul şəhadətnaməsi haqqında" qanun layihəsi (birinci oxunuş), Mülki Məcəllədə və "İcra haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova məlumat verib.

Nazir müavini deyib ki, Milli Məclisin müzakirəsinə təqdim olunan qanun layihələri kənd təsərrüfatı məhsullarının istehsalının artırılması və istehsalçıların maliyyə vəsaitlərinə əlçatanlığının təmin edilməsi məqsədilə hazırlanıb. O, layihələrin gətirdiyi əsas yenilikləri və üstünlükləri deputatların diqqətinə çatdırıb.

"Məhsul şəhadətnaməsi haqqında" yeni qanun layihəsi (birinci oxunuş) aqrar sahədə yeni maliyyələşmə mexanizmi kimi məhsul şəhadətnaməsinin buraxılışı, dövlət qeydiyyatı və dövriyyəsi qaydalarını, məhsul şəhadətnamələrindən istifadənin hüquqi və iqtisadi əsaslarını müəyyən edir.

Nazir müavininin sözlərinə görə, kənd təsərrüfatında ilk dəfə tətbiq olunan bu qiymətli kağız - məhsul şəhadətnaməsi fermerlərə istehsaldan əvvəl maliyyə vəsaiti əldə etmək, təchizatçılara və maliyyə institutlarına isə etibarlı, sürətli və az xərcli təminat mexanizmi təqdim edir. Məhsul şəhadətnaməsinin iki növü nəzərdə tutulur: maliyyə məhsul şəhadətnaməsi və əmtəə məhsul şəhadətnaməsi. Bunlardan biri dövrün sonunda məhsulun təqdim edilməsini, digəri isə borcun pul şəklində qaytarılmasını nəzərdə tutur.

Mülki Məcəllədə və "İcra haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də "Məhsul şəhadətnaməsi haqqında" yeni qanun layihəsinə əsasən hazırlanıb. Belə ki, aqrar sektorda yeni maliyyə aləti kimi qanunvericiliyə daxil edilən məhsul şəhadətnaməsinin qiymətli kağız olaraq Mülki Məcəllədə normativ əsası formalaşdırılır.

"İcra haqqında" qanunda da məhsul şəhadətnaməsi üzrə öhdəliyin çevik və operativ icraya yönəldilməsi mexanizmləri təsbit olunur.

Nazir müavini məhsul şəhadətnaməsinin tətbiqinin müsbət cəhətləri, onunla bağlı tələblər, dövriyyəsi qaydaları və digər aspektləri barədə məlumat verib, həmçinin deputatların dəyişikliklərlə bağlı qaldırdığı məsələlərə aydınlıq gətirib, suallarını cavablandırıb.

Müzakirələr zamanı komitə sədrinin müavini Razi Nurullayev, üzvləri Eldar İbrahimov, Azər Badamov, Cavanşir Paşazadə, Vüqar İskəndərov, Novruzəli Aslanov, Malik Həsənov çıxış edərək məsələlərlə bağlı fikirlərini söyləyiblər, qeyd və təkliflərini səsləndiriblər.

İclasda komitənin ötən sessiyada görülmüş işləri barədə hesabatı məqbul hesab edilib, qarşıdakı sessiya üçün iş planının layihəsi təsdiqlənib, qanun layihələri isə Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

*"Azərbaycan"*

# Şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 36 mənzil verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 20 Sentyabr - Dövlət Suverenliyi Günü ərəfəsində şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 36 mənzil verilib.**





AZƏRTAC xəbər verir ki, Mənzil İnşaatı Dövlət Agentliyinin Hövsan Yaşayış Kompleksində yerləşən mənzillərin sənədlərinin təqdim edilməsi tədbiri 4 saylı DOST Mərkəzində keçirilib.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin dövlət tərəfindən genişmiqyaslı sosial dəstək tədbirləri ilə əhatə olunduqlarını vurğulayıb. Qeyd edilib ki, bu tədbirlərin mühüm bir istiqaməti onların mənzillə təmin edilməsidir.

Yeni mənzillərlə təmin olunan şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslər onlara göstərilən yüksək diqqət və qayğıya, həmçinin bu gün yeni mənzillərlə təmin edildiklərinə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

# Xankəndidə TDT ölkələrinin insan resursları üzrə səlahiyyətli qurum rəhbərlərinin V Görüşü olub

**Xankəndi şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin insan resurslarının inkişafı üzrə səlahiyyətli qurum rəhbərlərinin "İnsan resursları rəqəmsallaşma və süni intellekt dövründə: inkişaf, perspektivlər və çağırışlar" mövzusunda V Görüşü keçirilib.**



AZƏRTAC xəbər verir ki, görüşün keçirilməsində əsas məqsəd rəqəmsal transformasiya və süni intellektin insan resurslarının inkişafına təsiri, insan resurslarının idarə edilməsində yeni yanaşmalar, müasir çağırışlara uyğun kadr potensialının formalaşdırılması, eləcə də TDT-yə üzv dövlətlər arasında bu istiqamətdə təcrübə mübadiləsinin genişləndirilməsi məsələlərinin müzakirəsi olub.

Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə çıxışında bugünkü müzakirələrin müasir çağırışlara cavab verən innovativ və ədalətli idarəçilik naminə yeni imkanlar açacağına, TDT-yə üzv ölkələr arasında uzunmüddətli tərəfdaşlığın institusional əsaslarını daha da möhkəmləndirəcəyinə inamını ifadə edib.

Sonra TDT Katibliyi, baş katibin müavini Nuru Quliyev və Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov çıxış ediblər. Çıxışlarda dövlət qulluqçularının rəqəmsal bacarıqlarının gücləndirilməsi və Türk Dövlətləri Təşkilatı çərçivəsində bu sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb.

DİM-in İdarə Heyətinin sədri M.Abbaszadə çıxışında rəqəmsallaşma və süni intellekt dövründə dövlət qulluğunda insan resurslarının idarə edilməsinin əsas istiqamətlərinə toxunub. O, süni intellektin məlumatların emalı, analitika və kadr proseslərinin səmərəliliyinin artırılması baxımından geniş imkanlar yaratdığını qeyd etməklə yanaşı, yekun qərarların qəbulunda insan məsuliyyətinin və nəzarətinin qorunmasının vacibliyini vurğulayıb.

M.Abbaszadə Azərbaycanda dövlət qulluğuna qəbul və kadr idarəçiliyi proseslərinin rəqəmsallaşdırılması, Dövlət Qulluqçularının Vahid Reyestrinin və vahid rəqəmsal kadr ekosisteminin fəaliyyət göstərməsi barədə məlumat verib. O, növbəti strateji istiqamət kimi dövlət qulluğunda kompetensiyaəsaslı modelə tam keçidin əhəmiyyətini qeyd edib. Çıxışda türk dövlətləri arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün kadr proseslərində şəffaflıq və təhlükəsizlik standartlarının müəyyənləşdirilməsi, "insan nəzarəti" prinsipinin tətbiqi, ortaq kompetensiya modelinin formalaşdırılması, dövlət qulluqçularının yeni nəsil bacarıqlar üzrə birgə hazırlanması və təcrübə mübadiləsindən birgə normativ təşəbbüslərə keçid olmaqla, beş prioritet istiqamət irəli sürülüb. Bu çərçivədə "Dövlət qulluğuna məsuliyyətli rəqəmsal seçim və idarəetmə üzrə Qarabağ Çərçivə Sənədi"nin ("Qarabağ Prinsipləri") hazırlanması təklif olunub.

Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Şimali Kipr Türk Respublikası və Türkmənistanın aidiyyəti dövlət qurumları və Dövlət Qulluğu üzrə akademiyaların nümayəndələri çıxışlarında irəli sürülən təklifləri müsbət qarşılayaraq, rəqəmsallaşma və süni intellektdən dövlət qulluğunda məsuliyyətli və insanmərkəzli istifadənin vacibliyini vurğulayıblar. Onlar kadr proseslərində şəffaflığın və meritokratiya prinsiplərinin gücləndirilməsi, insan nəzarətinin qorunması, ortaq kompetensiya yanaşmalarının inkişaf etdirilməsi və dövlət qulluqçularının yeni nəsil bacarıqlar üzrə hazırlanması istiqamətində əməkdaşlığın genişləndirilməsini dəstəklədiklərini bildiriblər. Nümayəndələr, həmçinin təcrübə mübadiləsinin konkret birgə təşəbbüslərlə tamamlanmasının və dövlət qulluğunda məsuliyyətli rəqəmsal seçim və idarəetmə üzrə ortaq çərçivənin formalaşdırılmasının Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında praktik əməkdaşlığın inkişafına töhfə verəcəyini qeyd ediblər.

Türkiyə Prezident Administrasiyasının Kadrlar və qaydalar üzrə baş direktoru Bilal Şəntürk çıxışında türk dünyasında insan resurslarının inkişafı sahəsində əməkdaşlığın daha sistemli və nəticəyönümlü şəkildə genişləndirilməsinin vacibliyini vurğulayıb. O, Türkiyənin dövlət idarəçiliyi, insan resurslarının inkişafı, rəqəmsal öyrənmə və süni intellekt üzrə qazandığı təcrübəni qardaş ölkələrlə bölüşməyə hazır olduğunu, eyni zamanda digər üzv dövlətlərin uğurlu təcrübələrindən faydalanmağın əhəmiyyətini qeyd edib. B.Şəntürk ölkələrin ehtiyaclarına uyğun birgə təlim proqramlarının, təcrübə mübadiləsi və əməkdaşlıq mexanizmlərinin, işgüzar səfər və mübadilə proqramlarının həyata keçirilməsi, habelə rəqəmsal təlim imkanlarının qarşılıqlı istifadəyə açılmasını dəstəkləyib. O bildirib ki, Türkiyənin qarşıdakı dövrdə TDT-yə sədrliyi çərçivəsində insan resursları sahəsində əməkdaşlığın daha sistemli, görünən və dayanıqlı xarakter almasına xüsusi diqqət yetiriləcək.

Çıxışlarda həmçinin dövlət qulluqçularının peşəkar inkişafı, rəqəmsal bacarıqlarının artırılması, etik prinsiplərin qorunması və texnoloji dəyişikliklərə institusional hazırlıq məsələləri diqqət mərkəzində olub.

Tədbir ikitərəfli görüşlərlə davam etdirilib.

Qeyd edək ki, Türk Dövlətləri Təşkilatına sədrliyi hazırda Azərbaycan Respublikası həyata keçirir.

# Azərbaycan hərbçiləri Koreyada beynəlxalq döyüş təlimi müsabiqəsində iştirak ediblər

**Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu Koreya Respublikasının Gangvon əyalətinin İnje şəhərində təşkil olunan "4-cü Koreya Beynəlxalq Döyüş Təlimi Müsabiqəsi"ndə iştirak edib.**




Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, 11 ölkədən hərbi qulluqçuların iştirak etdiyi beynəlxalq müsabiqədə şəhər və dağ döyüşü, kəşfiyyat, pusqu, əks-pusqu və meşə əməliyyatları, müdafiə tapşırıqları, patrul fəaliyyəti, eləcə də yaralıların təxliyəsi üzrə tapşırıqlar yerinə yetirilib.

Tədbirin keçirilməsində əsas məqsəd iştirakçı ölkələrin orduları arasında döyüş hazırlığı sahəsində təcrübə mübadiləsinin aparılması və peşəkar əlaqələrin inkişaf etdirilməsidir. Hərbi qulluqçularımızın beynəlxalq müsabiqələrdə iştirakı şəxsi heyətin yüksək döyüş hazırlığının, peşəkarlığının və müxtəlif döyüş şəraitlərində fəaliyyət imkanlarının nümayiş etdirilməsi, həmçinin bilik və bacarıqların paylaşılması baxımından əhəmiyyətlidir.

# Azərbaycan və TDT məkanının strateji çəkisi: enerji və nəqliyyat bağlantılarının rolu

**Prezident İlham Əliyevin Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində enerji və nəqliyyat bağlantılarının əhəmiyyətinə dair mövqeyi daha geniş geoiqtisadi proseslər fonunda nəzərdən keçirilməlidir. Azərbaycanın coğrafi mövqeyi bu baxımdan xüsusi əhəmiyyət daşıyır: ölkə Mərkəzi Asiya ilə Cənubi Qafqazı, Türkiyə və Avropa bazarlarını birləşdirən əsas qovşaqlardan birində yerləşir. Prezident İlham Əliyev də Azərbaycanın coğrafiyasının yalnız infrastrukturla tamamlandıqda real strateji üstünlüyə çevrildiyini vurğulayıb və ölkənin "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərində beynəlxalq nəqliyyat qovşağı kimi rolunu qeyd edib.**




**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Türk Dünyası Araşdırmaları Mərkəzinin (TDAM) rəhbəri İlyas HÜSEYNOV** AZƏRTAC-a açıqlamasında bildirib ki, bu baxımdan Orta dəhliz Azərbaycanın və bütövlükdə TDT məkanının strateji əhəmiyyətini artıran əsas amillərdən biridir.

"Trans-Xəzər marşrutu Çin və Mərkəzi Asiyanı Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropa bazarları ilə əlaqələndirir. Dünya Bankının qiymətləndirməsinə görə, zəruri investisiyalar və səmərəlilik tədbirləri həyata keçirildiyi halda, Orta dəhliz üzrə yükdaşımaların həcmi 2030-cu ilə qədər üç dəfə arta, daşınma müddəti isə yarıya qədər azala bilər. Dünya Bankı bununla yanaşı, dəhlizin yalnız Çin-Avropa tranzit xətti deyil, marşrut üzərində yerləşən ölkələr üçün regional ticarət və iqtisadi inkişaf platforması olduğunu xüsusi vurğulayır.

Azərbaycanın rolu burada, sadəcə, tranzit ərazisi olmaqdan daha genişdir. Ələt limanı, dəmir yolları, Bakı-Tbilisi-Qars xətti, avtomobil yolları, logistika mərkəzləri və gömrük infrastrukturu vahid bağlantı sisteminin elementləridir. Bu infrastrukturun inkişafı tranzit gəlirlərindən əlavə logistika, anbarlaşdırma, istehsal, sığorta, maliyyə və digər xidmət sahələrində əlavə iqtisadi dəyərin yaranmasına imkan verir. Beləliklə, Azərbaycan tədricən "tranzit ölkə" anlayışından regional logistika və ticarət qovşağı anlayışına doğru irəliləyir",- deyə o qeyd edib.

Onun sözlərinə görə, bu proses TDT üçün də xüsusi əhəmiyyət daşıyır: "Təşkilata üzv və müşahidəçi dövlətlərin mühüm hissəsi Orta dəhlizin müxtəlif seqmentlərində yerləşir. Buna görə nəqliyyat infrastrukturunun uyğunlaşdırılması, gömrük prosedurlarının sadələşdirilməsi, rəqəmsal sənədləşmə və sərhədlərarası məlumat mübadiləsi təkcə ayrı-ayrı ölkələrin nəqliyyat imkanlarını deyil, bütövlükdə TDT məkanının iqtisadi əlaqəliliyini gücləndirir.

Enerji bağlantıları isə bu prosesə ikinci strateji ölçü əlavə edir. Azərbaycan artıq neft və təbii qazın beynəlxalq bazarlara nəqlində mühüm infrastruktura malik ölkədir. Prezident İlham Əliyev 2026-cı ildə Azərbaycanın 16 ölkəyə boru kəmərləri vasitəsilə təbii qaz nəql etdiyini və ölkənin enerji infrastrukturu ilə yanaşı beynəlxalq əhəmiyyətli nəqliyyat infrastrukturuna da böyük sərmayələr yatırdığını bildirib.

Lakin gələcək əməkdaşlığın əhəmiyyəti yalnız ənənəvi enerji resursları ilə məhdudlaşmır. Azərbaycan, Qazaxıstan, Özbəkistan və digər TDT ölkələrinin bərpaolunan enerji potensialının qarşılıqlı bağlantılar vasitəsilə xarici bazarlara çıxarılması perspektivi regionun enerji xəritəsini dəyişə bilər. Bu halda Azərbaycan yalnız enerji ixrac edən ölkə deyil, Mərkəzi Asiyanın enerji resurslarını Avropa istiqamətinə bağlayan enerji və infrastruktur platformalarından biri kimi çıxış edə bilər".

O vurğulayıb ki, burada nəqliyyat və enerjinin paralel inkişafı xüsusilə əhəmiyyətlidir.

"Əgər Orta dəhliz fiziki malların Şərqdən Qərbə hərəkətini təmin edirsə, enerji interkonnektorları regionun elektrik və "yaşıl enerji" sistemlərini bir-birinə bağlaya bilər. Buna rəqəmsal bağlantılar da əlavə olunduqda daha geniş model formalaşır. Nəqliyyat, enerji və rəqəmsal infrastruktur istiqamətlərinin eyni coğrafiyada inkişafı TDT məkanının iqtisadi əlaqəliliyini əhəmiyyətli dərəcədə artıra bilər.

Bu prosesin digər mühüm nəticəsi təchizat zəncirlərinin şaxələndirilməsidir. Qlobal ticarətdə marşrutların diversifikasiyası getdikcə daha böyük əhəmiyyət qazanır.

Azərbaycanın bu sistemdə mövqeyi isə xüsusi xarakter daşıyır. Mərkəzi Asiya-Xəzər-Azərbaycan-Türkiyə-Avropa xəttinin mərkəzi halqalarından biri kimi Azərbaycan həm fiziki tranzitin, həm enerji axınlarının, həm də gələcək rəqəmsal və iqtisadi bağlantıların kəsişmə nöqtəsinə çevrilir. Buna görə enerji və nəqliyyat layihələrinin genişləndirilməsi ölkənin yalnız tranzit gəlirlərini artırmaq məsələsi deyil; Azərbaycanın regional iqtisadi inteqrasiyada rolunu, TDT məkanının əlaqəliliyini və onun qlobal təchizat zəncirlərində iştirak imkanlarını genişləndirən uzunmüddətli geoiqtisadi prosesdir",- deyə o diqqətə çatdırıb.

# Azərbaycan QHT-ləri diplomatik korpusun azad edilmiş ərazilərə səfəri ilə bağlı Ermənistanda başlanmış kampaniyanı pisləyib



**Azərbaycan QHT-ləri ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun nümayəndələrinin işğaldan azad edilmiş ərazilərə səfəri ilə əlaqədar Ermənistanda başlanmış kampaniya əleyhinə bəyanat yayıb.**

AZƏRTAC bəyanatı təqdim edir:

"Biz - Azərbaycanın vətəndaş cəmiyyəti təmsilçiləri Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun işğaldan azad edilmiş Qarabağa və Şərqi Zəngəzura sonuncu səfərinə Ermənistanın müxtəlif dairələrinin verdiyi reaksiyanı qəti şəkildə pisləyirik!

Bu reaksiya mahiyyət etibarilə ölkəmizin suverenliyinə və ərazi bütövlüyünə qəsd, Azərbaycanın daxili işlərinə müdaxilə və açıq-aşkar irridentizm cəhdidir. Ermənistanda bir mərkəzdən idarə edilən bu davranışlar Azərbaycan-Ermənistan sülh gündəliyinə ciddi zərbə vurmaqla, iki ölkə arasında davam edən normallaşma prosesini axsatmağa hesablanmış açıq təxribatdır. Erməni xalqının sülhə hazır olmadığı aşkara çıxdı. "Real Ermənistan" hekayəti iflasa uğrayır.

Azərbaycan xalqının tarixinin, mədəniyyətinin, o cümlədən Qafqaz Albaniyasının zəngin irsinin danılması siyasətinə son qoyulmalıdır. Ermənistanın Baş naziri Gəncəsər məbədinin erməni mənşəyini "sübut etmək" üçün Matenadaran institutunun rəyinə istinad edir. Qəribədir, Matenadaran institutuna başqa bir ölkənin suveren ərazisindəki abidənin mənşəyini təyin etmək hüququnu kim verib? Bu suala cavab verin, cənablar! Yalançı tarixdən, milli müstəsnalıq mərəzindən, düşmənçilikdən yorulmadınızmı? 2023-cü ilin sentyabrında özünü buraxdığını elan etmiş keçmiş qondarma rejimin tör-töküntüləri niyə yenidən peyda olaraq müxtəlif diplomatik nümayəndəliklərə və beynəlxalq təşkilatlara sərsəm məktublar ünvanlamağa başlayıb?

Azərbaycan xalqına qarşı etnik nifrəti dövlət siyasəti halına gətirmiş, Qarabağ və Şərqi Zəngəzuru 30 il işğal altında saxlamış, Xocalı soyqırımını törətmiş, tarixi-mədəni irsimizi dağıtmış Ermənistanın ölkəmizin daxili işlərinə qarışmaq cəhdləri qəbuledilməzdir!

Biz Ermənistan ərazisində Azərbaycan xalqının talan edilmiş, saxtalaşdırılmış mədəni və dini irsini də unutmamışıq. Sərdar sarayının, qəbiristanlıqlarımızın yerlə yeksan edilməsini, Dədə Ələsgərin məzarının dağıdılmasını, Göy məscidin təhrif edilməsini unutmamışıq!

Ermənistan hökuməti əgər doğrudan da Azərbaycanla sülh gündəliyinə sadiqdirsə, bu isteriyaya, düşmənçiliyə son qoymalı, hələ də fəaliyyətinə şərait yaratdığı, Azərbaycana qarşı irridentist ideyaları təbliğ edən şəxsləri və təşkilatları məsuliyyətə cəlb etməlidir.

Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələri olaraq qəti əminik ki, Azərbaycan dövləti Ermənistan və onun havadarları tərəfindən ölkəmizi hədəf alan bu cür əməllərin qarşısı qətiyyətlə alınacaq!

**İmzalar:**

1. Ramil İskəndərli - Azərbaycan Milli QHT Forumunun İdarə Heyəti
2. Hacı Abdulla - "Zəngəzur" Cəmiyyətləri İctimai Birliyi
3. Xətai Ələsgərov - "Dədə Ələsgər Ocağı" İctimai Birliyi
4. Oğuz Məmmədov - "Zəngi - Tarixi İrsin Öyrənilməsi" İctimai Birliyi
5. Fuad Məmmədov - "Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyası
6. Zaur Məmmədov - "Bakı Politoloqlar Klubu" İctimai Birliyi
7. Dilqəm Əhməd - "Çapar" Milli İrsin Tədqiqi Mərkəzi İctimai Birliyi
8. Tural Gəncəliyev - "Qarabağa Dönüş" İctimai Birliyi
9. Tənzilə Rüstəmxanlı - Azəri-Türk Qadınlar Birliyi
10. Əliməmməd Nuriyev - Konstitusiya Araşdırmalar Fondu
11. Könül Behbudova - "Qarabağ İtkin Ailələri" İctimai Birliyi
12. Şəbnəm Səfərova - "Qarabağın Tərəqqisi Naminə" İctimai Birliyi
13. Umud Mirzəyev - Beynəlxalq Avrasiya Mətbuat Fondu
14. Səltənət Qocamanlı - "İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyi
15. Novella Cəfərova - "D.Əliyeva adına Azərbaycan Qadınlarının Hüquqlarının Müdafiə Cəmiyyəti" İctimai Birliyi
16. Səadət Bənənyarlı - "Beynəlxalq İnsan Hüquqları Cəmiyyəti Azərbaycan Milli Bölməsi" İctimai Birliyi
17. Aqil Camal - "Ortaq Dəyərlər" İctimai Birliyi
18. Hafiz Səfixanov - "Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyi
19. Rey Qasımov - "Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası" İctimai Birliyi
20. Əmir Əliyev - "İnsan Hüquqlarının Təşviqi Mərkəzi" İctimai Birliyi
21. Müşviq Ələsgərli - "Mediada İnnovativ Təşəbbüslərə Dəstək" İctimai Birliyi
22. Xatirə Vəliyeva - "Xankəndi" Məcburi Köçkünlərə Dəstək İctimai Birliyi
23. Sevinc Əlizadə - "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi
24. Zaur İbrahimli - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyi
25. Şəlalə Həsənova - İctimaiyyətlə Əlaqələrin İnkişafına Kömək İctimai Birliyi
26. Ayaz Mirzəyev - "Azərbaycan Jurnalistlər Şəbəkəsi" İctimai Birliyi
27. Şəhla Nağıyeva - "Sönməz Məşəl" Mədəni Əlaqələr İctimai Birliyi
28. Cəsarət Hüseynzadə - "İnformasiya və Sosial Təşəbbüslərə Dəstək" İctimai Birliyi
29. Vüsalə Hüseynli - "İslahatçı qadınlar və innovasiyalar" İctimai Birliyi
30. Əhməd Abbasbəyli - "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı Mərkəzi" İctimai Birliyi
31. Fuad Abbasov - "Misra" İnformasiya Mübadiləsi və Təşəbbüsləri İctimai Birliyi
32. Fuad Hüseynzadə - "Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi" İctimai Birliyi
33. Anar Xəlilov - "Sağlam İnkişaf və Maarifləndirmə" İctimai Birliyi
34. Xalid Kazımov - "Regional İnsan Hüquqları və Media Mərkəzi" İctimai Birliyi
35. Elşad Məmmədli - "Vətəndaş Maarifləndirilməsi" İctimai Birliyi
36. Kəmalə Ağazadə - "Azərbaycan Uşaqları" İctimai Birliyi
37. Əfsələddin Ağalarov - "Gəncliyin Sosial-İqtisadi İnkişafına Yardım" İctimai Birliyi
38. Yadigar Məmmədli - "Azərbaycan Demokratik Jurnalistlər Liqası" İctimai Birliyi
39. Fariz Xəlilli - "Miras" Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi
40. Mübariz Əsgərov - "Obyektiv" Milli Dəyərlərin Təbliğinə Dəstək İctimai Birliyi
41. Tünzalə Abdullalimova - "Vətən Naminə" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi
42. Ceyran Həsənova - "Şəhid Analarına Dəstək" İctimai Birliyi
43. Vüqar Qədirov - "Qayıdış və Dirçəliş Naminə Gənclər Təşkilatı" İctimai Birliyi
44. İradə Rzazadə - "Vətəndaşların Sosial Rifahı Naminə" İctimai Birliyi
45. Kəramət İsmayılov - "İqtisadi və Sosial İnkişaf Mərkəzi" İctimai Birliyi
46. Fikrət Yusifov - "Ekonomiks" Beynəlxalq İqtisadi Araşdırmalar İctimai Birliyi
47. İlqar Hüseynli - "Sosial-strateji tədqiqatlar və analitik araşdırmalar" İctimai Birliyi
48. Varis Yolçiyev - Azərbaycan Ədəbiyyat Fondu
49. Səməd Vəkilov - "Müvəkkil Hüquq Mərkəzi" İctimai Birliyi
50. Sədaqət Eyvazov - Tərəfsiz Jurnalistlər İctimai Birliyi
51. Fəridə Mirişova - "İz" Mədəniyyətin İnkişafına Dəstək İctimai Birliyi
52. Lalə Sərdarlı - "Tətbiqi Sənət Nümunələrinin Qorunmasına və Təbliğinə Yardım" İctimai Birliyi".

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan" şirkəti və onun törəmə şirkətləri

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Neftçilər Günü münasibətilə Azərbaycan neftçilərini təbrik edir və işlərində uğurlar arzulayır!

# Alban-Udi xristian dini icması diplomatik korpusun azad olunmuş ərazilərə səfərinə Ermənistanın revanşist münasibətini qınayıb

**Azərbaycan Alban-Udi xristian dini icması Ermənistanın diplomatik korpusun azad olunmuş ərazilərə səfərinə revanşist münasibətini qınayıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Alban-Udi xristian dini icmasının sədri Robert Mobili bununla bağlı bəyanat yayıb. Bəyanatda deyilir:

"Bir olan Yaradanımızın adı ilə.

Biz - Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Alban-Udi xristian dini icmasının üzvləri Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin Qarabağ və Şərqi Zəngəzura, xüsusilə Alban tarixi-mədəni irsinə məxsus Gəncəsər və Xudavəng məbədlərinə səfərinə Ermənistan cəmiyyətində və siyasi dairələrində revanşist əhval-ruhiyyəli münasibət göstərilməsini qətiyyətlə qınayırıq.

Hesab edirik ki, Ermənistan tərəfinin, o cümlədən hələ də müharibə təbliğatından əl çəkməyən erməni lobbi dairələrinin, həmçinin sülh gündəliyinə sadiq olduğunu iddia edən Ermənistanın Baş naziri Nikol Paşinyanın və yüksəkvəzifəli digər rəsmi şəxslərin Gəncəsər və Xudavəng kimi tarixi Azərbaycan abidələrini erməni irsi kimi təqdim etmələri tarixi həqiqətləri inkar etmək və saxtalaşdırmaqla yanaşı, regionda formalaşmaqda olan kövrək sülh prosesinə də təhlükə yaradır. Diplomatik korpusun nümayəndələrinin səfərinə qarşı Ermənistanda aparılan məqsədyönlü kampaniya bu ölkədəki siyasi və dini dairələrin sülh istəyində səmimi olmadığını, hələ də Azərbaycanın legitim hüquqlarına dözümsüz yanaşdığını göstərir.

Bəyan edirik ki, Qafqaz Albaniyası Azərbaycan dövlətçiliyinin ayrılmaz hissəsidir və Ermənistanın Qafqaz Albaniyasının tarixi, mədəni irsini danmaq siyasəti qəbuledilməzdir. Ermənistanın belə təxribatçı fəaliyyəti saxta milli müstəsnalığın, yalançı tarixin təzahürü və rasizm elementidir. Qafqaz Albaniyasına, xüsusilə onun dini-mədəni irsinə belə dözülməz, düşmən münasibət Ermənistanın həqiqətdən qorxduğunu bariz şəkildə göstərir.



Alban Kilsəsi Qafqazın ilk apostol kilsəsi kimi uzun tarixi yol keçmiş, təkcə Azərbaycanın deyil, bütün Qafqazın dini-mədəni həyatında silinməz izlər qoymuşdur. Böyük bir mədəniyyət yaratmış, öz əlifbası olmuş bir irsə qarşı bütün hücumlar iflasa uğrayacaq. Əlahəzrət faktları danmaq olmaz. Tarixdən məlumdur ki, 313-cü ildə Alban çarı Urnayr xristianlığı dövlət dini kimi qəbul etmişdir. Azərbaycan memarlığının möhtəşəm nümunələrindən biri olan Xudavəng monastırının tarixi VI-VII əsrlərə gedib çıxır. Tarixi necə dəyişmək, necə saxtalaşdırmaq olar? Danılmaz həqiqətdir ki, Gəncəsər məbədi Alban knyazı Həsən Cəlal Dövlənin göstərişi ilə 1216-1238-ci illərdə inşa edilmiş və 1240-cı ildə Alban patriarxı Nersesin xeyir-duasını almışdır. Gəncəsər məbədinin əhəmiyyəti və bizim üçün xüsusi dəyəri ondan ibarətdir ki, o, Alban katolikosluğunun iqamətgahı olmuşdur. Həsən Cəlalın sülaləsindən olan knyazlar və ruhanilər, o cümlədən Həsən Cəlal Allahverdi bəy monastırın ərazisində dəfn edilmişdir.

Təəssüf ki, müxtəlif təzyiq və təsirlərdən sonra Çar sinodunun qərarı 1836-cı ildə Alban Apostol Kilsəsinin fəaliyyətinə son qoyulmuş, onun maddi və mənəvi irsinin bir qisminə Erməni-Qriqoryan kilsəsi sahib çıxmağa çalışmışdır. Nəticədə Azərbaycanda, xüsusilə Qarabağda tarixi Alban məbədləri qriqorianlaşdırılmış, tarixi abidələrimizlə yanaşı, arxiv materialları və sənədlər ya məhv edilmiş ya da saxtalaşdırılmışdır. Azərbaycan dövlətçiliyinin ayrılmaz hissəsi olan Qafqaz Albaniyasının tarixi-mədəni irsinin min cür saxta oyunlarla erməniləşdirilməsi və mənimsənilməsi cəhdləri son yüz ildə Ermənistanın dövlət siyasətinə çevrilmişdir. Bunun nəticəsidir ki, indiki Ermənistan ərazisində və Azərbaycanın vaxtilə işğal altında olmuş torpaqlarında bir dənə də olsun Alban məbədinin tarixi siması olduğu kimi saxlanılmamışdır.

Qafqaz Albaniyasının tarixi-mədəni irsini mənimsəyərək özünə saxta tarix yaratmaq həm keçmişə, həm də gələcəyə qarşı çıxmaq, mehriban qonşuluq və dinc birgə yaşayışın əsaslarını baltalamaqdır. Eyni siyasətin bu gün də davam etməsi və Ermənistan rəhbərliyi tərəfindən dəstəklənməsi qəbuledilməzdir. Tarix olduğu kimi öyrənilməli, yazılmalı və təqdim edilməlidir. Biz, bu torpağın ilk xristianları, öz tarixi və dini-mədəni irsimizin ermənilər tərəfindən mənimsənilməsi cəhdlərini qətiyyətlə rədd edirik.

Tarixi reallıq sübut edir ki, Qafqaz Albaniyasının tarixi-siyasi və mədəni-dini irsi bu gün ayrı-ayrı etnosların, dinlərin və etiqadların əsrlərlə tolerantlıq şəraitində yaşadığı Azərbaycan dövlətinə və Azərbaycan xalqına məxsusdur. Bu gün öz dilini, dinini, adət-ənənələrini yaşadan xristian icma olaraq biz dədə-babalarımızdan qalan müqəddəs mirasa bundan sonra da sahib çıxacaq və erməni saxtakarlığına qarşı mübarizəmizi davam etdirəcəyik.

Bu gün biz udilər Qəbələ və Oğuzdakı kilsələrdə ibadət etdiyimiz kimi, işğaldan azad edilmiş ərazilərdəki qədim Alban məbədlərində, o cümlədən "Gəncəsər", "Ağoğlan", "Xudavəng", "Amaras" və digər müqəddəs məkanlarda da sərbəst dini ayin və mərasimlər keçiririk.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Alban Apostol Kilsəsinin üzləşdiyi ədalətsizliyin aradan qaldırılması, tarixinin obyektiv şəkildə öyrənilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün əlverişli fürsət yaranmışdır. Azərbaycan hökuməti mənsubiyyətindən asılı olmayaraq ölkədə bütün tarixi-dini abidələrin bərpası və təmiri sahəsində böyük işlər həyata keçirir, bu irsə xüsusi həssaslıqla yanaşır. O cümlədən Alban irsinə aid möhtəşəm abidələr, Şəki rayonunun Kiş kəndində yerləşən və Qafqazda "kilsələrin anası" hesab olunan apostol Yelisey məbədi, udilərin kompakt halda yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsindəki "Çotari" və "Məryəm ana" kilsələri və s. bərpa edilərək dövlət qorumasına alınmışdır. Alban abidələrinin bərpası tarixi ədalətsizliyin aradan qaldırılması, ölkəmizdəki tolerantlıq mühitinin qorunub saxlanılması baxımından təkcə Azərbaycan deyil, həm də bütün xristian dünyası üçün mühüm əhəmiyyət kəsb edir. Bütün bunlara görə biz bir daha Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin təşəkkürümüzü bildiririk.

Bir daha bəyan edirik ki, torpaqlarımız işğaldan azad edilməsi ilə tarixi ədalət bərpa edilmiş, ölkəmizin ərazi bütövlüyü və suverenliyi təmin olunmuş və regionda yeni reallıqlar yaranmışdır. Nəhayət, erməni tərəfi bu gerçəkliyi qəbul etməli, regionumuzun və xalqlarımızın əmin-amanlığı üçün son dərəcə zəruri olan sülh prosesinə mane olan hər cür addımlardan, revanşist təbliğatdan və tarixi həqiqətləri təhrif etməkdən birdəfəlik əl çəkməlidir. Biz dəfələrlə Qarabağa gedib dini ayinləri icra etmişik, orada uyuyan əcdadlarımızın ruhunu yad etmişik, yaxın vaxtlarda yenidən səfər etməyi planlaşdırırıq.

Uca Yaradan yardımçımız olsun!"

# Bilal ŞƏNTÜRK: "Əsas hədəfimiz insan resursları sahəsində əməkdaşlığımızı nəticəyönümlü sistemə çevirməkdir"

**"Əsas hədəfimiz insan resursları sahəsində əməkdaşlığımızı tamamilə nəticəyönümlü, ölçülə bilən və dayanıqlı sistemə çevirməkdir".**

AZƏRTAC xəbər verir ki, bunu **Türkiyə Respublikası Prezident Administrasiyasının Kadrlar və Qaydalar üzrə baş direktoru Bilal ŞƏNTÜRK** Xankəndi şəhərində keçirilən Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin insan resurslarının inkişafı üzrə səlahiyyətli qurum rəhbərlərinin V Görüşündə deyib.

Bilal Şəntürkün sözlərinə görə, indiyədək keçirilən toplantılar ölkələrin dövlət qulluğu sistemlərini və tətbiq etdiyi yanaşmaları daha yaxından tanımağa imkan verib.

Türkiyə rəsmisi bildirib ki, üzv ölkələrin təcrübələrinin qarşılıqlı şəkildə paylaşılaraq ümumi faydaya çevrilməsi əsas məqsədlərdən biridir. İnkişaf istiqamətlərinin və strateji prioritetlərin eyni vaxtda müəyyənləşdirilməsi əməkdaşlığın əsasını təşkil edir.



O, texnoloji inkişaf fonunda süni intellekt, kibertəhlükəsizlik və texnoloji savadlılıq kimi bacarıqlara ehtiyacın artdığını, yaradıcı düşüncə, çeviklik, liderlik, əməkdaşlıq və daim öyrənmə kimi bacarıqların da əhəmiyyətini qoruduğunu diqqətə çatdırıb.

Bilal Şəntürk qarşıdakı dövrdə birgə təlim proqramlarının təşkili, rəqəmsal öyrənmə platformalarından qarşılıqlı istifadə, liderlik, istedadların idarə olunması, dövlət qulluqçularının davamlı inkişafı, rəqəmsal insan resurslarının idarə edilməsi və gələcəyin bacarıqlarının inkişafı istiqamətlərində əməkdaşlığın genişləndirilməsinin mümkün olduğunu deyib. Həmçinin dövlət qurumları və mütəxəssislər arasında işgüzar səfərlərin və mübadilə proqramlarının təşkilinin əhəmiyyətini vurğulayıb.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 8 iyul (Çərşənbə axşamı günü) tarixli 219-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası



# AZƏRBAYCAN

Səşənbə, 9 şəvvalül-mükərrəm sənə 1337.
8 təmmuz 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 35 rublə,
2 aylığı 60 rublə, 3 aylığı 90 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 40 rublə,
2 aylığı 70 rublə, 3 aylığı 100 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 5 rublə,
axırıncı səhifədə sətri 4 rublə,
itən şeylər və yer axtaranlar üçün 3 rublə.

### KİNOTEATR "RENESSANS"

*Torqovı küçə, nömrə 11*

İyul ayının 8-də məşhur "Orleanskaya deva" şəklini ("Janna d'Ark" əsəri) vücuda gətirən məşhur "Transatlantik" adlı Amerika trestinin 6 seriyada 18 dövr və 38 hissə, misli görünməmiş Amerika ictimai və cinayət dramalı şəkillərinin birinci seriyası 8 hissədə göstəriləcəkdir.

**"Qaranlıq dünya", yaxud Amerikada ehtikarlıq (spekulyatsiya) ilə mübarizə**

*1-ci seriya 8 hissələrdən ibarətdir*

Bu şəkil "Prometey film" səhmdaran şirkətinin əzalarından olub, bütün caha nın narazılığını qazanmış "hal-hazırda olan ehtikarlıq" və "On beşlər klubu" ilə ədalətli mübarizəni təsvir edir. Bu şəkil amerikalılar tərəfindən vücuda gətiril mişdir. Ona görə bir çox mütəəssir halları havi olmaqla [təsirli halları ehtiva etməklə] bərabər, öz böyüklüyü və növbənöv ol masıyla təəccüblüdür: şaxtalar, körpülər partlaması, dəmiryol qatarlarının toqqu şub qəzaya uğraması, aeroplanların uçub tələf olması, Hindustan fəqirlərinin möcüzələri, vəhşi heyvanlar əlində həlak olmaq, bütün məhəllələrin böyük yanğını, elektrik qüvvəsi ilə ölüm cəzası, elektrik hava qatarının məhvi, NyuYorkda yeraltında mütəəssir dəhşətlər, paroxodların qərqi, gizli tiryəkxanalarda dəhşətli cinayətlər, minlərcə fəhlələrin çıxışı, mütəşəkkil ehtikarçılar tərəfindən fəhlə hə rəkatının yatırılması və qeyriləri.

Bu şəkil bəşəriyyət düşmənləri olan hal-hazırdakı ehtikarçıların [möhtəkirlərin] çatmış olduqları bəşəriyyət həyatındakı uçurumu və dinamiti təsvir edir. Can lı mal ticarəti, süni aclıq törətmək, xalqı aldatmaq, dərmanları və birinci zəruri şeyləri saxtalaşdırmaq, pulların qiymətlərinin aşağı düşməsi baziçəsi [oyunu], bəşəriyyətin nail olduğu mədəniyyəti xarab etmək, həyata lazım olan şeylərin qiymətini artırmaq, fəhlə hərəkatı köməyi ilə fəhlə zəhməti qiymətinin süni surətdə aşağı salınması, saxtakarlıq, yalan şəhadət, aldatmaq, gizli və aşkar qarət və ehtikarçıların qarşısına çıxanların amansız qətli. Həmin bu yollar vasitəsilədir ki, bir dəstə ehtikarçılar milyonlarca doğruçu zəhmətkeşlərin hesabına olaraq ciblərini doldurub, qızıl içində yaşayırlar. Ancaq ciddiyyət və mədəniyyət məmləkəti olan Amerika Lorniqan qardaşları və Robert Kordinq kimi xalq qəhrəmanlarını vücuda gətirib, irəli keçməyi bacarmışdır. Hansılar ki, ehtikarlıqla mübarizədə zərbə zərbə dalınca, Amerikanı dünya şərindən azad edənə qədər Amerika ehtikarçılarının "On beşlər klubu" olan on beş başlı divinin başını kəsmişlər.

"Prometey film" səhmdaran şirkəti tərəfindən ələ gətirilmiş olan bu şəkil xeyli mənfəətkaranə və fövqəladə tərbiyəbəxş olduğuna görə, camaatın hər bir sinifinə görməyə imkan verməkdən ötrü göstərilmək üçün ancaq "Renessans" teatrosuna verilmişdir.

Hər bir seriya tamam olmuş şəkildir. Ona görə "Qaranlıq dünya" şəkli 6 müstəqil seriyaya bölünmüşdür.

*5412*

### İTTİFAQƏN [TƏSADÜFƏN]

Birjevoy fayton atları ilə satılır. Naberejnı küçə nömrə 3, Bakı doku qarşısında dvornikdən [dalandardan] xəbər almalı.

*5411*

### QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Məşixət İdarəsindən**

Səneyi-hazirə [bu il] 25 mayısda Nuxu uyezdinin [qəzasının] 3-cü [sahə] Orta Zəyzid prixod mollası Mustafa əfəndi Məhəmməd əfəndi oğlunun əxziəsgər [hər bi çağırış] məsələsində millət və dövlətə qarşı böyük xəyanətlərə irtikabı [bulaşması] dərəceyi-həqiqətə qərin bir surətdə təbəyyün etdiyindən [həqiqət dərəcə sinə yaxın bir surətdə meydana çıxdığından], mollayi-mumaileyhin [adı çəkilən mollanın] xidmətdən əzli [qovulması] və işi təhqiq edilib qəbahəti sabit olduğu [sübut edildiyi] təqdirdə qanunən cəzalanması İdareyi-Məşixət [Şeyxülislamlıq İdarəsi] tərəfindən qərara alınmış və icrayi-müqərrərat [qərarın icrası] üçün məqamiai dinə [aidiyyətli quruma] yazılıb təvəssüt edilmişdir [vəsatət qaldırılmışdır].

*Məşixət sədri:*
*[Axund Ağa] Ağaəlizadə*

### AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

**7 təmmuz iclası**

İclas açılır saat birə 20 dəqiqə işləmiş.
Sədr - Həsən bəy Ağayev
Katib - Mehdi bəy Hacınski

**Məsaili-yömiyyə [Gündəlikdəki məsələlər]**

1) Hökumət indində [nəzdində] Xüsusi Təftişat və Təhqiqat Komisyonu təşkili haqqında qanun layihəsi; məruzəçi Şəfi bəy Rüstəmbəyzadə.

2) Poylu istasyonunda gömrük idarəsi təsisi haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.

3) Gömrük idarələrində anbar vergisi miqdarının artırılması haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.

4) Bakı gömrükxana ştatının təzyidi [artırılması] haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.

5) Gürcüstan Cümhuriyyətindəki Azərbaycan siyasi nümayəndəliyi cənbində [nəzdində] Maliyyə Nəzarəti acentəliyinin təşkili haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.

6) Ermənistan sərhədində Uzuntala gömrük idarəsi qarşısında gömrükxana təsisi haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.

7) Xəzinə nəfinə [xeyrinə] buğ [buxar] qazanlarından alınan verginin artırılması haqqında qanun layihəsi; məruzəçi [Əbdüləli bəy] Əmircanov.

8) Məclisi-Müəssisan seçkiləri haqqında qanun layihəsi; "Üçüncü qiraət"; məruzəçi [Məhəmməd Əmin] Rəsulzadə.

9) Daxil olmuş kağızlar, o cümlədən:

1 - Ticarət və nafiə [sənaye] şəhadət-namələrindən şəhərlər nəfinə [xeyrinə] alınan vergi miqdarının 50 faizədək tərfisi [qaldırılması] haqqında qanun layihəsi.

2 - Bakı karxana sənətkar yerlərində və fəhlələrin miyanında [arasında] hesabsız içki və spirt işlənilməsinin önünü almaq haqqında qanun layihəsi.

3 - Təhkim vergisi miqdarlarının artırılması haqqında qanun layihəsi.

4 - Ümumi tamaşaxana əyləncə yerlərindən alınan müvəqqəti verginin (naloq) Hökumət Xəzinəsi məbaliğ müstəh fəzəsinə [resurslarına] idxalı haqqında qanun layihəsi.

Birinci layihə Maliyyə-Büdcə, son üçüncülər Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] komissiyasına göndərilir. Növbədə Poylu mövqifində [stansiyasında] gömrük idarəsi təsisi haqqındakı layiheyi-qanuniyyədir.

Bir qədər müzakirədən sonra layiheyi-qanuniyyə 1-ci və 2-ci qiraətdə qəbul olunaraq, 3-cü qiraəti qanuna görə gələcək iclasa qalır.

Bədəhu [sonra] gömrük idarələrində anbar vergisi miqdarının artırılması haqqındakı layiheyi-qanuniyyəyə keçilir və əksəriyyətiara [səs çoxluğu] ilə qəbul olunur.

Üçüncü növbədə Bakı Gömrükxanası ştatının təzyidi haqqında qanun layihəsinə baxılır (məruzəçi Əmircanov). Layihə bilamüzakirə [müzakirə edilmədən] qəbul olunur (birinci, ikinci qiraət) və üçüncü qiraəti qanuna görə gələcək iclasa buraxılır.

Növbədə Gürcüstan Cümhuriyyətində Azərbaycan siyasi nümayəndəliyi cənbində Maliyyə Nəzarəti agentəliyi təşkili haqqındakı qanun layihəsidir. Layihə ümumiyyətlə oxunaraq, bir qədər müzakirədən sonra qəbul olunur. Bədəhu maddə-maddə qiraətə (ikinci qiraət) keçilərək yenə qəbul və üçüncü qiraəti qanuna görə gələn iclasa tərk edilir.

Bundan sonra Ermənistan sərhədində Uzuntala gömrük idarəsi qarşısında gömrükxana təsisi haqqındakı qanun layihəsinə keçilərək, birinci və ikinci qiraətdə qəbul olunur və üçüncü qiraət gələcək iclasa buraxılaraq 5 dəqiqə tənəffüs elan edilir.

Tənəffüsdən sonra Rəisi-vükəlanın [Baş nazirin] təklifi üzərinə Qarabağ məsələsi haqqında hökumət tərəfindən göndərilmiş olan Parlaman heyəti tərəfindən bəyanat verilir. (Təfsilatı sonra)

### TELEQRAF XƏBƏRLƏRİ

Paris - Müttəfiqlərin hərbi heyəti əmrnaməsinə görə, nemeslər Libavanı təxliyə etmişlərdir. İyun ayının 27-də latış [Baş] naziri Ulmanis oraya gəlib yenə iş başına keçmişdir.

Bobrinets - Denikin əsarətindən qaçıb gələn bir Qırmızı qoşun nəferinin rəvayətinə görə, Denikin ilə [Nikifor] Qri qoryev arasında sıxı bir rabitə vardır.

Nauen - Berlində tətil hərəkatı getdikcə artır. Çaharşənbə [çərşənbə] günü omnibus əmələləri tətil etmişlərdir. Berlinin şərqi cəhətində tətilçilər sərnişin aparan bir neçə şoferləri döyüb əzmişlərdir.

- Tətil edən dəmiryol əmələlərinə filizçi və başqa əmələlər də qoşulmuşlardır. Bu hərəkat siyasi bir şeydir. Bunların məqsədi odur ki, şimdiki hökuməti yıxıb yerinə bolşevik hökuməti təşkil edilsin. Berlində vaqe olan dəmiryol tətili Berlin elektrik zavoduna kömür yetirməyə mane olur. Kömür mövcudu ancaq 3-4 günə yetər.

**İzmirin Yunanıstana ilhaqına [birləşdirilməsinə] protesto**

"Tayms" qəzetəsində İzmirdən İngilis Ticarət Palatasına göndərilmiş olan bir protest teleqrafı çap edilmişdir. Protestoda denilir ki, bu şəhərin yunanlılar tərəfindən istila edilməsi vilayətin məna feyini xələldar edir. Zira, istər türk və istər xristian əhalisi bu yerin üzərinə ingilis, Amerika və Fransa kontrolluğu qoyulmasına razıdır.

*(Bolşevik məlumatı)*

Varşava - 28 iyunda Lehistan [Polşa] qoşunları Saşova-Bardeyovka xəttinə yetişdilər. Lehistan qoşunları irəli yürüşdə davam edirlər.

Şimal cəbhəsində - Pinsk səmtində mövqeyinin pisliyinə görə bizim hissələrimiz Alekseyevskdən başqa bir yerə çəkilmişlərdir.

Arxangelsk cəbhəsi - Top atışması davam edir. Kəşfiyyatçılarımızın kəşfiyyatından anlaşılmışdır ki, təcilən Zenç üzə rində körpü inşa edilir.

Qərb cəbhəsində - Petrozavod[sk] dairəsində bizim qitəatımız [hərbi hissələrimiz] tərəfindən bir çox kəndlər işğal edilmişdir. Fin boğazında bizim təyyarəçilərimiz Kopor boğazı üzərində düşmənlərin gəmilərini pulemyot atəşinə tutmuşdur. Kopor xəlicinin [körfəzinin] cənubi tərəfində müharibə ilə postu işğal eylədik.

Çarev cəbhəsində - Yamburq şosesi boyunda və Baltik dəmiryolu boyunda qızğın müharibələr davam edir.

Molodyojnı dairəsində müharibə davam edir.

Novqorod səmtində - Neman nəhri boyunda düşmənlərin hücumu dəf edilmişdir.

- Starokonstantinovski dairədə bizim qitəat müharibə ilə Kersipol mövqifini [stansiyasını] işğal etmişlərdir. 5 top, 20 tüfəng qənimət və 200 nəfər əsir alınmışdır.

Cənub cəbhəsində - Poltava dairəsində düşmənlər külli qüvvə ilə bizim qoşunları sıxışdırıb, lakin sonradan biz külli qüvvə ilə onları dəf eyləmişik. Sonra onları təqib edən qoşunlarımız Poltavanın 50 verstliyində vaqe İskrovkanı işğal etmişlərdir.

Xarkov səmtində - Boqoduxovun şərq tərəfindən düşmənlərin həmləsi dəf edilmişdir.

Belqorod səmtində - Belqorodun 50 verstliyində Teterevino dairəsində düşmənlərin həmləsi dəf edilmişdir.

Valvisk cəbhəsində - Tərəfimizdən düşmənlərin həmləsi dəf edilmişdir.

Voronej dairəsində qızğın müharibədən sonra biz Ostroqojsku tərk eylədik.

- Sterlitamak və Krasnı Ufa dairəsində bizim hissələrin hücumu müvəffəqiyyətlə davam edir. Ufa dəmiryolu boyunda biz bir çox kəndləri işğal eyləmişik.

### QƏZETƏLƏRDƏN

**General Korinin bəyanatı**

Məlum olduğu üzrə, "Sakartvelo" qəzetəsində general Biçin bir nitqi dərc edilmişdi. Belə ki, Aleksandropolda general Biç bir nitq irad edərkən [söyləyərkən] demiş ki, guya Müttəfiqlər Azərbaycan və Gürcüstan cümhuriyyətlərini təsdiq etməyəcəkdirlər. Gürcüstan Xariciyyə naziri ingilis heyətinin naçalnikinə iyulun 2-də bir nota ilə müraciət edərək, ingilis generalı Koridən xahiş eyləmişdir ki, general Biçin o məlumatının həqiqətə müvafiq olub-olmadığını ona bildirsin. Buna cavab olaraq general Kori Xariciyyə nazirinə zeyldəki [aşağıdakı] məlumatı vermişdir:

*"Alicənab, Aleksandropolda general Biçə isnad verilən nitqin surətini mənə göndərmənizə qarşı artıq mütəşəkkirəm. Məndə olan məlumata görə, Azərbaycan, Gürcüstan və Ermənistanın gələcək sərhədi və yaxud təsdiqi barəsində Sülh Konfransında hələlik heç bir müzakirat olmamışdır. Bundan əlavə, bu nitqin məzununa bələd olaraq mən zənn edirəm ki, tamamilə uydurma sözlərdir. Bu sözlər Azərbaycan və Gürcüstanın bədxahlarının sözləridir. Mən zatialilərinizdən rica edirəm ki, bu yalan xəbəri dərc edən qəzetə müdiriyyətindən xəbər alasınız ki, general Biçə isnad verilən bu uydurma xəbəri hanki mənbədən almışdır."*

**İnquşlara ultimatum**

Dabravol ordusundan verilən rəsmi xəbərlərdə çoxdan bəridir ki, kabardinlərin və çeçen dəstələrinin "nagüvara [xoşagəlməz] hərəkətləri" haqqında məlumat verilir. Ancaq inquş dəstələri haqqında indiyə qədər bir xəbər verilməmişdir. Məlum olduğu üzrə, general De nikinin Şimali Qafqaziya millətlərinə verdiyi notasında bolşeviklərlə mübarizə etməkdən ötrü Dabravol ordusuna kömək olaraq müəyyən miqdarda alaylar təşkil edilməsi tələb olunurdu. Osetin və çeçen millətləri ictimasında [yığıncağında] Dabravol ordusu nümayəndələri məzkur [deyilən] millət vəkillərini töhmət edib demişlər ki, siz dağıstanlılar qəbul etdiyiniz ultimatum şəraitini çox həvəssiz və fəna bir surətdə ifa edirsiniz. General Erdelinin müavini çeçen ictimasında demişdir ki, siz hər bir süvarini verdikdə alış-veriş edirsiniz. Çeçenlərdən iki faiz əsgərliyə alındığı halda, rus əhalisi isə tamamilə əsgərliyə alınmışlar.

Bütün dağıstanlılar bir qədər əsgəri dəstələr vermişlərdir. Ancaq bir tək inquş xalqı indiyə qədər Dabravol ordusuna bir əsgər də verməmişdir. Bu münasibətlə Dabravol ordusu komandanlığı inquş xalqına yeni və axırıncı bir ultimatum vermişdir. Ultimatumda deyilir ki, Oruc bayramının 4-cü gününə qədər inquşlar müsəlləh [silahlı] surətdə dörd alay süvari verməlidirlər. Ultimatumun vaxtı iyulun 3-də qurtarır. Bu tələbata əməl edilmədiyi təqdirdə, İnquşistanın ümdə kəndləri cəza dəstələri tərəfindən işğal edilib icbari bir surətdə əsgər cəm ediləcəkdir.

İnquşistana külli miqdarda Dabravol qüvvəsi gətirilmişdir. Bunların ümdə qüvvələri 10 min nəfərlik kazak dəstəsindən ibarətdir. Həmin dəstə böyük topxanaya malikdir. Əhval böylədir ki, inquş camaatı bu tələbatı qəbul etməyə məcbur olacaqdır.

**Bolşevik hökumətində**

6 ay bolşevik hökumətində yaşayan sosial-revolyusioner nəql edir ki, bolşevik Rusiyada hal-hazırda fəhlə demokratiya hökuməti yoxdur. Rusiyada şuralar deyil, kommunist firqələrinin diktaturası, yaxud əlahiddə dəstə və adamlar hökuməti davam edir.

- Batuma gəlmiş olan İtaliya paroxodu "Frans Ferdinand" ilə İtaliya mühəndisləri simsiz teleqraf makinaları və xidmətçiləri gətirmişlərdir. Simsiz teleqraf istasyonu Tiflisdə olacaqdır.

**Valyuta məzənnəsi**

Bu axır günlərdə əcnəbi valyutası, Kerenski və Nikolayevski pulların qiyməti aşağı düşmüşdür. İngiltərə lirəsi 400 manatdan ucuzdur. Frank 15 manatdır. Nikolay 100 manatlıqları 480 manat, Ke renski 1000 manatlıq 2000 manata, xırda pullar 8 faizlə, bunları da hər yerdə götürmürlər. Kerenski pulların aşağı düşməsinə səbəb bu axır vaxt Novorossiyskdən çox adamların gəlməsidir.

Betman-Holveqin məktubu

Sabiq Almaniya kansleri fon Betman-Holveq 26 mayda Almaniya Hökumətinə bir məktub göndərmişdir. Fəqət, hökumət tərəfindən bisərəncam [nəticəsiz] buraxılmışdır. Binaənileyh [ona görə], Bet manHolveq həman məktubun surətini Sülh Konfransı sədri Klemansoya göndərmişdir. Betman-Holveq Klemansodan təvəqqe edir ki, məktubunu Müttəfiq və Mötəlif dövlətlərə təslim eyləsin. Məktub böylə başlanır:

*"Sülh müahidənaməsinin [sazişinin] 227-ci maddəsinə görə, əlahəzrət VilhelmiSani [II Vilhelm] Müttəfiq və Mötəlif dövlətlər tərəfindən hərb qanununu xələldar etməsi ilə təqsirləndirilir və istəyirlər ki, Niderlanda Hökumətindən əlahəzrət imperatoru alıb da, Müttəfiqlər tribunalında mühakimə etsinlər. Mən bu məktubla Müttəfiq və Mötəlif dövlətlərdən rica edirəm ki, əlahəzrət imperatorun əvəzinə məni mühakiməyə cəlb edəsiniz. Mən özümü Müttəfiqlər binagüzarlığına [sərəncamına] təqdim edirəm. Almaniyanın sabiq kansleri sifəti ilə mənim fəaliyyətim dövründə olan siyasi hərəkata yalnız mən məsulam. Zira Almaniya qanunları ilə məsuliyyət mənim öhdəmdədir. Mən zənn edirəm ki, yalnız mən [məsulam] və məndən başqa kimsə bu işlərə məsul deyildir. Ona görə də, ümid edirəm ki, siz mənim bu təvəqqemə əncam verərsiniz."*

### BİR ƏLDƏ İKİ QARPIZ TUTANLAR!

Dabravollar Dərbəndə çatan kimi, "Vahid Rusiya" qəzetəsinin baş mühərriri Podşibyakin və Mərkəzi Ev Komitəsinin müdiri Leontyeviç kamali-şövq və həvəslə Bakıdan oraya təşrif apardılar. Bunların əzm və qəsdinə dair tərəfdar qəzetə ləri yazmışdılar ki, bu cənabların məqsədi Azərbaycan ilə Dabravollar arasında dostanə bir rəftarın sazişinə çalışmaqdır.

Dərbəndə çatar-çatmaz Podşibyakindən "Vahid Rusiya" qəzetəsinə bir teleqram çəkildi ki, dabravolların Azərbayca na böyük məhəbbət və ehtiramları vardır. Onların Azərbaycan ilə heç bir ədavətləri yoxdur.

Aradan bir neçə vaxt keçdi. Leontyeviç şəhərimizə qayıdıb Rus Cəmiyyətində bir daklad oxudu. Bunun rəvayətinə görə bunları, yəni Podşibyakini, Leontyeviçi və sair yoldaşlarını Dərbəndə bəzi mühüm məlumat üçün Dabravol generalı Erdeli dəvət etmişdir.

Burada generalı görə bilməyib, onun nümayəndəsi ilə mülaqat [söhbət] etmişlər.

Bu mülaqatdan anlaşılmışdır ki, dabravolların Azərbaycan əleyhinə heç bir təcavüzatı olmayacaqdır. Çünki azərbaycanlılar Gürcüstan və Ermənistandan qovulmuş ruslarla xeyli müşfiqanə və meh mannəvazanə rəftar edirlər. Binaənileyh [ona görə], təcavüzə heç bir bəhanə yoxdur, ta ki buna səbəb azərbaycanlılar özləri olmayalar.

Leontyeviçin rəvayətinə görə, dabravolların əhali ilə rəftarı xoşdur. Dini və ictimai işlərinə qarışmayırlar. Dabravol ların idarəsindən dağıstanlılar xeyli məmnundurlar.

Leontyeviçin Bakıda təcili işləri olduğu üçün Dərbənddən qayıtmışdır. Sair yoldaşları general ilə mülaqat etmək üçün Yekaterinodara qədər getmişlərdir.

İştə, Leontyeviçin dakladının müxtəsər məzmunu! Politikaçıların dünyada ən böyük rəhbəri aldanğıc olduğu kimi, vahid rusiyaçıların da ilk qədəmi iğfal fəqərəsindən [aldatmaq hadisəsindən] başlanmışdır.

Bakıdan Dərbəndə rəvan olduqları halda qəzetələrdə elan etdilər ki, dabravolların Azərbaycana məhəbbətini cəlb etmək üçün gedirlər. Halbuki, Leontyeviçin öz sözlərindən aşkar olur ki, bunları general Erdeli bəzi mühüm fəqərələrin həlli üçün dəvət etmişdir.

Əcəba, bu hanki mühüm fəqərələrdir ki, onların həlli üçün ancaq leontyeviçlərin dəvəti caiz görülür?

Bundan məlum olur ki, Azərbaycan naz və neməti ilə yaşayan leontyeviçlər, dabravolların rəsmi nümayəndələri olmasalar da, ən sədaqətkar və mötəməd [etimadlı] "dakladçı" və acentələridir ki, daxili işlərimizin səhih məlumatını dabravollar həman ağalardan kəsb edirlər. Böylələrinə siyasiyyun lisanında casuslar denilməzmi? Həm də, öylə mahir casuslar ki, günün günorta çağı aşkar bir surətdə sərhədi keçib tərəfimüqabilə müfid [faydalı, lazımlı] və mətlub [tələb olunan, istənilən] məlumatı yetirdikdən sonra Bakıya qayıdarkən biçarə azərbaycanlıları da əfsanəvar [əfsanəyə bənzəyən] dakladları ilə iğfal edirlər [aldadırlar]!

İğfalçılar bizə deyirlər ki, dabravolların Azərbaycan ilə heç bir xüsuməti [düşmənçiliyi] yoxdur. Hərgah, bu fəqərə doğrudursa, bəs nə üçün Azərbaycan nümayəndəsi Haqverdiyevə təklif olunmuşdur ki, Teymurxanşuradan çıxıb getsin? Dabravolların bizim barəmizdə bəslədikləri "məhəbbətlərinin" birinci əlaməti nümayəndəmizin Teymurxanşuradan qo vulması ilə başlanır. İkinci əlaməti də sərhədimizdə atılan xəndəklərdən ibarətdir. İndi Leontyeviçin gözü aydın olsun. Dabravolların bizə qarşı bəslədikləri "məhəbbətləri" düzdoğru çıxdı. Bundan sonra bir müsəlman tapılmayacaqdır ki, leontyeviçlərin Müshəfə müqabil dakladlarına inanmasın.

Bizə deyirlər ki, dabravollarla Dağıstan əhlinin əlaqə və rəftarları pək gözəldir. Hərgah, bu doğrudursa, bəs nə üçün mütəfərriq [müxtəlif, ayrı-ayrı] dağlı nümayəndələri Tiflis məscidində dabravolların yapdıqları təəddi [qanunsuzluq] və zülümlərindən böyük şikayətlər etmişlər? Bunların ahu-fəğanları hətta gürcüləri də ağlatmışdır.

Daha gözəl olardı, hərgah casusluğa qurşanmış ağalar sərhəddən qayıdarkən heç bir daklad yazmayıb, xamuş [səssiz] və sükut ilə keçinsəydilər. Çünki böylə əfsanələrə aldanan axmaq indiki zəmanədə tapılmaz.

Leontyeviçin sair yoldaşları dabravolların mərkəzi iqamətgahı olan Yekaterinodara qədər getmişlər. Aşkardır ki, dabravolların ərkani-hərbi [qərargahı] ilə bu ağaların xüsusi bir rabitələri vardır. Yoxsa, bir bu qədər sədaqətə ehtiyac görülməzdi. Bunlar Kadet partiyasına mənsub həman ağalardır ki, bu gün rus istibdadını Denikin kimi qəddar generalların əlləri ilə diriltmək istəyirlər. Sairləri casusluğu gizlin bir surətdə yapdıqları halda, bunlar apaşkarcasına yapırlar.

Bütün bəşəriyyətlə bərabər, Azərbaycanda yaşayan hamının tam hürriyyətdən istifadəsini arzu etməklə belə, hürriyyəti hüququmuza qarşı bir alət qərar verənlər müqabilinə ciddi tədbirlər görülməsini də gözləyiriz.

*F. A.*

### ERMƏNİ CÜMHURİYYƏTİNDƏ MÜSƏLMANLARIN YAŞAYIŞI

"...Azərbaycandakı ermənilər də kaş ki, Ermənistandakı müsəlmanlar kimi yaşasaydılar..."

*Erməni Rəisi-vükəlası: Xatisov*

**- 2 -**

Müsəlmanların qalanları üçün erməni cümhuriyyəti daxilində yaşamaq hər gün, hər dəqiqə bir cəhənnəm əzabı keçirməkdir. Hələ erməni cümhuriyyətinə paytaxt edilmiş İrəvanda qalan müsəlmanlar belə olmazın fəlakət keçirməkdədir, ermənilər tərəfindən təcavüzlər görməkdədirlər.

İndi bağlardan meyvə dərib şəhərə satmağa gətirmək vaxtıdır. İrəvanda bir çox bağlar var ki, indi müsəlmanlar qorxularından öz bağlarına gedəmmədiklərinə görə, ermənilər ya sahiblənib, ya ortaq olub mənfəətbərdar olmaqdadırlar. Bağları öz əllərində qalmış müsəlmanlar isə bir çox fəlakətlər içində ancaq bağlarına gedib-gələ bilirlər. Fəqət bu kimi bağ sahibi müsəlmanlar bağlarından meyvələrini gətirib bazarda satdıqdan sonra, cibləri pullu bağlarına dönmək istədikləri halda, dərhal ermənilər tərəfindən soyulub qarət edilir, ağlar gözlə əliboş əhləyalının tərəfinə yola salınır.

* * *

İrəvanda köhnə paltar satan Məşhədi Ələkbərin oğlu iki inək, iki camış aparıb Dəlmədəki öz bağlarında otladarkən ermənilər tərəfindən öldürülmüş, malları aparılmış, zavallının nəşini isə polisə 500 manata öz atasına satmışdır.

* * *

İrəvanda başmaqçı Hacı Cabbarın qardaşı Cəfəri, arvadını, iki oğlunu, bir gəlinini ermənilər öz bağlarında hərəsini bir ağaca bağlamışlar, sonra fəqir Cəfərin cibindən mövcud nağdı olan 40 manatını və yalnız var-yoxları olan bir baş inəklərini götürüb getmişlərdir. Sonra bağ qonşuları müsəlmanlar gəlib bunları ağaclardan açmışlardır.

Dəfələrlə bu kimi təcavüzlərə düçar olan müsəlmanlar qorxularından erməni hökumətinə şikayət edib hallarını bildirəmməyirlər. Çünki şikayət etdikləri halda, birinci dəfə polisə tərəfindən döyü lürlər. İkinci isə, əvvəlki təcavüzçü ermənilər tərəfindən təkrar şiddətli təcavüzlərə düçar olurlar.

* * *

İrəvanda hazırda 1500-ə qədər yetim çocuqlar və sahibsiz müsəlman arvadları var. Bunlar olduqca pəjmürdə halda və çılpaq deniləcək dərəcədə yırtıq paltarlar içində, solğun simalı, titrər hallı, fəci bir səfillər sürüsü halındadırlar.

Bunlar bu halətləri ilə gündə parası ilə adambaşına bir girvənkə çörəyi almaq üçün "ekonomiya" çörəkxanasının qabağında, bəlkə gecənin yarısından günortaya qədər növbəyə dururlar. Mümkün olarsa, yəni erməni mühacirlərindən artıq qalarsa, həman bir girvənkə çörəyi almağa intizar çəkirlər.

Bunların halını seyr edərkən bu əsnada bir də 2-3 yerdən şarıltı səsləri eşidilir. Baxıb görürsən ki, yuxarıda hallarını təsvir etdiyimiz müsəlmanların natəvan [zəif] canlarına dəyən erməni qorodovoylarının mürüvvətsiz mataralarının səsidir. Müsəlmanların bu zavallılarından da İrəvanda bulvar ağacları altında gündə 5-6-sı pərişan hal ilə acından ölməkdədirlər.

### MÜASİRLƏŞMƏK

Müasirləşmək sözü ərəb sözüdür. Həməsr olmaq, həmzəmanə olmaq, həmnövlər ilə bərabər yaşamaq deməkdir.

İştə biz, sair həmnövümüz ilə bərabər yaşamayırmıyız? Əlbəttə ki, bərabər yaşayırız. Biz həmzəmanə və həmqərnlərimiz ilə həyati-təbiiyyədə həmhüququz, onlardan heç bir şeydə fərqimiz yoxdur.

Biz də, eynən onlar örtən libasdan örtür, onlar dadan çörəkdən dadır, onlar içən sudan içir, onlar alan badi-həvadan alır, müxtəsərən bütün onlar kimi imrari-həyat edir [ömür sürür], yaşayırız. Fəqət bir fərq vardır ki, yaşayış təbii hallardan başqa mənəvi hallar ilə daha mükəmməl, daha müşəşə [parıltılı, dəbdəbəli], daha mücəlla [parlaq, gözəl] olur. İnsanlar sövqi-təbii vasitəsilə bir-birinə mərbut [bağlı] olduqları kimi, mənəvi hallarla da daha sıxı bir-birinə mərbutiyyət [bağlılıq] və münasibət peyda edir, daha gözəl bir surətdə imrari-həyat edir, yaşarlar. Və bunun üçün, bu mənəvi halları sazlamaq, yoluna qoymaq üçün də, əlbəttə mədəniyyətə ehtiyac vardır ki, iştə, bizdə olmayan cəhəti də hələ bundan ibarətdir. Sair qövm [xalq] və millətlər bu cəhəti bir çox zamanlardan bəri düşündüklərindəndir ki, bu yolda əldən gələcək qədər çalışmış, səy etmiş, bizdən irəli düşmüşlərdir. Bu gün biz bu yolda onlara tabe olmaq məcburiyyətində qalmışıq. Biz bu gün onlar örtən libasdan örtərsək də, ancaq onların emalat və sənaətxanalarında emal olunmuş parçaları örtür, labis oluruz [geyinirik]. Demək hal-hazır biz – başqa, həməqran [yaşıd] və həmzəmanələrimiz də bir başqa adam olmuşlardır.

Bunu bilməlidir ki, hər qövm, hər millət asari-mədəniyyəsinin [mədəni əsərlərinin] dərəcəsinə görə təmini-mövcudiyyət edə [varlığını təminat altına ala] bilər. Asari-mədəniyyədən məhrum bir millət sair mədəni millətlərin təhti-əsarətinə [əsarəti altına] girərək, həyati-milliyyələrinə əlvida etmək məcburiyyətində qalarlar. Bu, bir həqiqətdir. Bu həqiqəti ta rixlərdən əlavə, zamanımız bizə daha gözəl bir surətdə andırdı. Bu gün aləm-şümul [bütün dünyanı əhatə edən] hərbin böyük tarixi, məktəbi-həyatın ən böyük professorlar tərəfindən oxunan mühazirələrini mütaliə edib dinləyənlər əlbəttə bilirlər ki, hali-hərbdə bulunan hökumətlərin helə bizim kimi mədəniyyəti-Şərqiyyədən [Şərq mədəniyyətindən] belə xəbərdar olmayan millətlər deyil, Avropa mədəniyyəti-möhtəşəməsi ilə mütəməddin [mədəniləşmiş] qövmlər və millətlər üzərində qalib və məğlub olmaları onların gecəli-gündüzlü mədəniyyət yolunda çalışıb, ancaq kəndilərinə güvənərək qeyrilərinə üstünlük göstərmək istəmələrindən nəşət edən [irəli gələn] bir keyfiyyətdir.

Yoxsa, qılınc ilə, ox ilə, cəhalət ilə, quru bir təəssüb ilə deyildir. Fəqət mədəniyyətin lüzumu düşünüldüyü təqdirdə o yol ilə getmək barəsində yazılmalıdır ki, biz türk və islam firqələri o yol ilə getmək istədiyimiz zaman aramızda bir çox maneələr çıxır.

Halbuki, bu gün Avropa mədəniyyətini qəbula heç də islamiyyət mane deyildir. Ancaq, kəndimizdə mövcud olan bir para gözəl adat [adətlər] və əxlaqı məhv etməyərəkdən Şərq mədəniyyətinə Qərb mədəniyyətindən məxruc [ixrac edilmiş] yeni bir mədəniyyət təşkil etməliyiz ki, buna da heç vaxt şəriətimiz mane deyildir.

Bu mülahizələrə məbni [əsasən], heyəti-ictimaiyyəmizin [cəmiyyətimizin] yarısını təşkil edən və vücudumuzun nisfindən [yarısından] ibarət qadınlarımızı həyati-mədəniyyədən məhrum qılıb, elm və fənsiz buraxmaq və çalışmalarına müsaidət [icazə] verməmək həman yersiz ənənatımızdan [ənənələrimizdən] birisini, daha yersiz bir surətdə şəriət naminə hifz etməkdən ibarətdir ki, müasirləşmək məsələsinin böyük manelərindən birisi də bu olmalıdır.

Bağban əhəmiyyətli ağaclar əkər-biçərsə, gözəl meyvələr dərə biləcəyi kimi, vücudu əlzəm [lazımlı, vacib] analar yetişdirməliyiz ki, lazımlı, qeyrətli, həmiyyətli balalar gətirə biləlim.

*Seyidzadə Bədrəddin*

### ÜŞR MƏSƏLƏSİ

"Azərbaycan" qəzetəsində oxuduğumuza görə, üşr yığmaq hökumət tərəfindən ləğv olunur. Hökumət əhalini nə zərdə tutub, yer bitirənin onda birini almayır ki, əhaliyə zülüm olmasın. Hökumət istəyir ki, camaatı özündən narazı buraxmasın.

Ancaq üşr yığmaq camaatın halına bir təfavüt eyləyir, üşr alındı-alınmadı əhali üçün ələssəviyyədir [eynidir]. Əcəba neyçün?

Çünki üşrü hökumət almasa da, üşr alınır, üşrü yığırlar. Kim yığır və kim alır sualının cavabında deyə biləriz ki, əfəndi, molla, prixod mollası, qəssal [mürdəşir, ölüyuyan], rəmmal [falçı], seyid... Əl hasil uzunsaqqal, uzunpapaq, qırxıxbaş, elmsiz və avam kəndli nə bilir bunlar müftəxordur. Biçarə camaat öylə zənn edir ki, əgər bunlara üşrü və zəkəvatı [zəkatları, dini vergiləri] verməzsələr, dinindən dönərlər. Fəqirə qalsa, yenə bir xoş bəxtlikdir ki, üşrdə fəqirin payı yoxdur; mollalar fəqirin babasını yandırarlar.

Biz kəndliyik, kənd həyatını çox gözəl düşünürük. Bizim kənd camaatının yeri nə yetirsə, ondan birini mütləqa molla alacaqdır. Bununla bərabər, eşitdiyimizə görə, prixod mollalarına hökumət donluq da kəsibdir. Prixod mollaları donluqsuz və üşrsüz çox gözəl idarə edə bilirlər, dolanırlar. Gəlir yerləri çoxdur. Nikah, talaq, fitrə, qurban dərisi, əvvəli-cüz, isqat, təqsim və qeyriləri. Öylə molla var ki, bu sənə 15 və 20 min manat təqsimdən həqqül-qələm [qələm haqqı, yazı pulu] alıbdır. Bunların müqabilində üşrü və donluğu onlara vermək millətə böyük bir xəyanətdən başqa bir şey deyildir deməyə var qüvvəmlə cəsarət edirəm. Bəndə; mollanın ziddi, ya düşməni deyiləm. Mən özüm də mollayam, həm də prixod mollası. Doğrudur, molla arxadaşlarım məndən inciyəsidirlər, varsın, incisinlər. Mən haqqı söylərəm.

Cəsarətlə hökumətimə ərz edirəm ki, mənə verəsi donluq da xəzinədə qalsın, istəməyirəm. Ancaq üşrü ki, bizim ixtiyarımızda qoyubdur, hər ayda xəzinəyə 400 manat verim və üşrü də yığım.

Sözümdə dəlilim var. Bu sənəlik varidatım ancaq bir üşrdən olasıdır – 200 pud çəltik, 50 pud buğda. Bu məbləğ indiki satışla eyləyir 25 min manat. Bunun müqabilində ayda 400 manat xəzinəyə verməyimin haqqı varmı, ya yox? Verərsəm 25 mindən 4800 manat itirmiş olaram.

Bir sənəlik gəlirimin yekunu eylər təxminən cəmi-cümlətanı 50 min manat – üşrün üstünə qeyri gəliri də əlavə edəndə. Onun üçün deyirəm ayda 400 manat hökumətə verim, nəinki bunun müqabilində bir də hökumətdən alım. Bu hesab kəndlər içində orta hesabdır və mənim kəndim əkərat [əkin sahələri] cəhətdən kəndlərin lap az əkərat olan yeridir.

Bununla hökumətin nəzəri-diqqətini cəlb edirəm ki, əlbəttə, üşrü yığsın, qurban dərisini və fitrəni yığsın. Prixod mollalarına da kafi maaş təyin edib öylə ədalətsiz çapqınçılıqdan onları mən eyləsin [uzaqlaşdırsın]. Yoxsa üşr yığılımında prixod mollasından başqa hər kənddə bir 10-15 dənə də müftəxor molla prixod mollasına calanıb, üşrdən də artıq camaatdan alırlar. Qoy camaatın üşrünü, millətin zəkəvat və xümsünü millətin əsgəri, millətin qəhrəmanları yesin.

Bundan sonra millət də, Parlaman da, hökumət də özü bilsin. Mən hökumətə əl aparmıram. Eyni həqiqəti söyləyirəm. Mən də bir azəri oğlu olduğuma görə, özümə bir milli vəzifə bilirəm ki, millətin xeyrini deyim. Həmi kəndçiyəm, həmi molla. Mollaların da, kəndçinin də ruhunu bilirəm. Əgər üşr yığılmayb belə mollaların ixtiyarında qalarsa, bir qədər vaxt dan sonra millətin yarısı molla olar. Hətta üşr məsələsi ləğv olunduqdan sonra müəllimlərimizdən də mollalığa hazırlaşan çoxdur. Çünki əldə olan müəllimlərin çoxu Əfəndizadə, Qazızadə, Mollazadə, nə bilim hücrə bucağından gələnlərdir. Bunu heç kim inkar edəmməz. Açıqcasına türkcə deyəlim ki, molladan dönmədirlər. Bir qədər kursa davam eyləyib, ibtidai müəllim olublar. Yoxsa, darülmü-əllimin [müəllimlər seminariyası] yox, qeyrisi yox. İndi bunlar hər iki tərəfdə olan gəliri fikir mizanına vurub, mollalıq tərəfdə olan mənfəəti görürlər. Təbiidir ki, o mənfəət də, müəllim deyil, nə olursa olsun, özünə çəkəsidr. Bunun müqabilində gərək hökumət də prixod molla larını və üşrü kəndi başına buraxmayıb, onları nəzərə alsın, ruhani işlərini nizam və intizam dairəsində aparsın. Müəllimi müəllim yerində, mollanı molla yerində saxlasın. Mollalıq heç bir vaxtda müəllimliyə qələbə çalmasın. Mollanın gözü müəllimdə olsun, nəinki müəllim olan bir adam mollalığa hazırlansın.

Mən cəsarətlə deyə bilərəm ki, bu müəllimə müəllimlik adı daşımaq yaraşmayır. Müəllim olsa, bu fikri xəyalına da gətirəmməz. Bu halda, millət də, hökumət də, kəndçi də, hətta bəzi fikri açıq mollalarımız da düşünər ki, millətin istiqlalı və istiqbalı [gələcəyi], tərəqqi və təalisi [ucalması] müəllimdən asılıdır.

*Molla H. Əfəndizadə*

**İdarədən:** Bu məqalənin bəzi nöqtələrinə şərik olmamaqla bərabər, əsasən həqiqət olduğunu etirafla eynən dərc ediriz.

### VƏTƏN

Ey müqəddəs Vətən, Vətən, Kəbəm!
Niyə sən böylə durmusan əbsəm?!
Söylə, ey nazənin sənəm, Vətənim,
Madəri-mehriban, canu-tənim.
Söylə, söylə, amandı, lal olma,
Ayaq altında paymal olma.
Madəri-müşfiqi-əhalisən,
Hali-əsrə nə gunə halisən?!
Vətən övladıdır ciyərparən,
Naxələf olsa, varmı bir çarən?
Bu yerin əhli: oğludur, qızıdır,
İsməti-madərin mühafizidir.
Ey oğul, ey qız övladı vətənin,
Necə insafına rəvadı sənin
Girə düşmən hərəm dəvairinə,
Çata arvad-qızı biri-birinə,
Eyləyə paymal ismətini,
Apara hörmət ilə izzətini?
Gözünə qarşı al bu mənzərəni,
Şimdidən dur gey əyninə kəfəni.
Tez sarıl qalx silaha, ey qardaş,
Batma bunca günaha, ey qardaş!
İgid ol, düşmənin qabağına çıx,
Divi-mənhusu məhv elə, vur, yıx.
Bu həman zülmdür ki, yüz ildir,
Əzmiş idi bizi, vəli bildir
Rədd olub getmiş idi bizlərdən,
Süngüsün çəkmiş idi bizlərdən.
Bu həman əjdahayi-fasiqdir,
Akili-cümleyi-xəlaiqdir.
Tazədən gəldi udmağa vətəni,
Udacaq mülk-malın ilə səni.
Yoxdu namusu heç dəyyusun,
Var bu yerdə vüfuru casusun.
Qoynumuzda, qucağımızda yaşar,
Günbəgün fitneyi-fəsad artar.
Dördgöz ol, aç ikisini qabağa,
Birisini sola, birini sağa.
Yuxlama, qəflət eyləmə, ayıq ol,
Sənə aid vəzifədir bu, oğul!
Düşmənin harda şərrinin əsəri
Baş versə, qoy ol məqamda səri.
Vətənin hafizi, mücahidi sən.
Sələfimin xələfdə vahidi sən.
Babanın ruhunu gəl et şadan,
Budur övlad üçün tamam vicdan.
Dur vətən mülkünün hüdudunda,
Düşmənin qarşına vürudunda.
Rüstəmin oğlu Söhrabın ruhu,
Girəcək cisminə... qopar kuhu.
Eşq oduyla dilin kabab eylə!
Vətənə qarşı bir xitab eylə:
Ey mənim nazənin anam, Vətənim!
Ey həyatım bəqası, canu-tənim.
Sinən içrə yatan babam qəbrin,
Pak saxla anam-atam qəbrin.
Ömrüm olduqca mən mücaviriyəm,
Nə qədər ki, Vətəndəyəm, diriyəm,
Qoymaram düşməni gələ yavuq,
Anamın yavuquna ol fasiq.
Kəsərəm əllərin anam sarıdan,
Biçərəm qıçların babam sarıdan.
Çünki hürr oğlu hürrdür əslim,
Yoxsa lənət oxur mənə nəslim.

*R.Əfəndizadə*

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 8 iyul (Çərşənbə axşamı günü) tarixli 219-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

## MƏTBUAT

Qarabağ məsələsi qayət kəskin bir surət alaraq, bu ya o surətlə həllini bulmaq dərəcəsinə gəlmişdir. Bu məsələni hökumətimiz nə qədər etilafcuyanə [razılaşma yoluyla], sülhpərvəranə bir surətdə həllə çalışdısa da, ermənilərin əsrlərdən bəri qəbul etdikləri "xətti-hərəkət" bizi sülh yoluna çıxarammadı və bu vaxtadək həll edilməmiş qaldı. Şimdi artıq öylə bir nöqtəyə çatmışdır ki, nəhayət yolunu bulmaq ərəfəsindədir.

Məzkur [deyilən] məsələ münasibətilə rusca "Azərbaycan" rəfiqimiz son nömrəsində yazmış olduğu baş məqaləsində hökumətimizin, ümumiyyətlə ermənilər haqqında, xüsusən Qarabağ məsələsində nə qədər sülhcuyana və etilafpərvəranə davrandığını qeyd və ermənilərin, ümumiyyətlə Azərbaycan barəsində nə qədər bədxahlıq [pislik] və ədavət [düşmənçilik] etdikləri [nümayiş etdiklərini] bəyanla, Qarabağ məsələsinə keçərək deyir ki:

*"Böylə mütəşəkkil bir dairədə hal-hazırda Qarabağ məsələsi ətrafında işləyirlər. Bir tərəfdən burada Azərbaycan hökuməti 3 qəzada (Şuşa, Cavanşir, Cəbrayıl) ermənilərlə əlaqə peyda etmişdir. Ermənilər əsudəcə aranzəminə yenərək taxıllarını yığırlar və hökumət məmurları tərəfindən mühafizə edilirlər və ermənilər əleyhinə xırda bir cinayət işləndikdə, şiddətli surətdə təqib edilirlər. Digər tərəfdən, Zəngəzur qəzasında ermənilər dinc müsəlman əhalisi əleyhinə geniş bir dava cəbhəsi açmışlardır.*

*Erməni hökuməti külli miqdarda İrəvan pulu və müntəzəm erməni qoşunu ilə təchiz edilmiş məsuliyyətsiz Zəngəzur Erməni Milli Şurası əli ilə hal-hazırda dinc müsəlman kəndlərini od ilə qılınca tutub, müdhiş təxribat yapır.*

*Bu vaxtadək bizdən asılı olmayan siyasi səbəblər bizə imkan verməyirdi ki, böylə həyasız meydangirliyə [meydan oxumağa, meydan sulamağa] cavab verək. Biz diplomasi müharibədə olduğu kimi, vuruşma meydanında da ancaq müdafiədə bulunurduq.*

*Hal-hazırda ermənilərin Zaqafqaziya müsəlmanları ilə rəftarı böylədir.*

*Biz bəyan edirdik ki, Azərbaycanın mövcudiyyət və siyasi rifah halı ətrafında böyük torlar qurulmuşdur. Bütün canlı qüvvələrin toplanması lazımdır. Keçirməkdə olduğumuz övzayi-siyasiyyənin [siyasi vəziyyətin] ciddiliyini nəzərə alıb bütün qüvvələrimizi səfərbərlik halına gətirərək və bir yerə cəm edərək həyati-siyasiyyəmizin bütün böhranlarını məmləkətdə qanun və qaydanı saxlamaqla rəf edə [aradan qaldıra] bilərik.*

*Azərbaycanın siyasi dairələri, bilafər-qiməslək [tutduğu yoldan asılı olmadan], övzayi-siyasiyyəni nəzərə alaraq hazır olmalıdırlar.*

*Bununla bərabər, biz haqq və ədalətin qələbəsinə inanmaqda davam ediriz. Biz öz millətimizin ruhani və cismani qüvvəsinə inanırız. Və ancaq xalq pişrovlarının [rəhbərlərinin, liderlərinin] ənud və müttəhid [inadlı və birgə] fəaliyyəti düşmənlərimizə isbat edər ki, öz məşru [qanuni] hüququnu çox da ucuz qiymətə gü zəşt etməz və erməni pişrovlarının tutduğu xətti-hərəkət erməni millətini səadətə çıxarmaz."*

Son zaman alınmaqda olan xəbərlər Könüllü ordu qüvvələrinin bolşevik qoşunlarına faiq [üstün] gəldiyini və hücumlarında davam edərək müvəffəqiyyətlə irəliləməkdə olduğunu bildirməkdədir. Vahid Rusiyaçılar sair cəbhələrdə bolşeviklərin qazandıqlarını görmək belə istəməyərək, Şura hökumətini məğlub gö rür, fatihəxanlıq edir [Fatihə oxuyur] və nəhayət irs [miras] məsələsinə keçərək bolşevizmin vəfatından sonra Rusiyanın kimə qalacağı dərdini çəkirlər.

O cümlədən, "Bakinskoye slovo" qəzetəsi irs davasına başlayaraq, bolşevizm xarabasına kimlər malik olacağını sorur [soruşur] və deyir ki:

*"Ona malik olan, hər halda demokratiya [xalq] olmayacaqdır. Moskva üzərinə hücumu zəfər yürüşünə mübəddəl olacaq [çevriləcək] ordu miyanında [arasında] demokratiya yoxdur. Onlar hələ saysız-hesabsız mitinq, syezd və iclaslarda beynəlmiləl imperializm və daxili irtica əley hinə vahid demokratik cəbhə yaratmaq məsələsini müzakirə və mübahisə ilə məşğul ikən, digər birisi gəlib danışmadan işləməyə başladı. Həman qüvvə hökumət başına keçdikdə, demokratiyanın bitərəflik, ya müzahirəti [köməyi] ilə bolşevizmin düçar olduğu həzimət [məğlub olub dağılmaq] və məğlubiyyətin bütün ağırlığını demokratiya çəkəcəkdir."*

Qəzetə iztiraba düşür və artıq inqilabın təmiqi [dərinləşdirilməsi] deyil, barı insanların yaşamaq hüququnu müdafiə fikrinə düşür və böylə olduğu təqdirdə, bütün təqsiri demokratiyanın pişrovları [xalqın öndərləri] öhdəsinə ataraq yazır ki:

*"Əgər Rusiyanın təcdidi [bərpası], gedə biləcəyi və getməli olduğu yol ilə getməzsə, müqəssir o adamlardır ki, bolşe vizmin ilk xüruc [çıxış] və möhkəmləşməsindən bəri bunca səy edib, özü də iki sandaliyə [stul] üstündə əyləşir, bütün demokratiyanı da öyləcə əyləşdirirdilər."*

## BAKI XƏBƏRLƏRİ

**Rəisi-vükəlanın əziməti**

Şurayi-Vükəla [Nazirlər Kabineti] və Dövləti Müdafiə Komitəsinin rəisi Nəsib bəy Yusifbəyli həzrətləri əhalinin halını öyrənməkdən ötrü qəzalara əzimət edir [yola düşür]. Rəisi-Vükəlanın övdətinədək [qayıdanadək] onun vəzifəsini Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri Xudadad bəy Məlikaslanov ifa edəcəkdir.

**Fransız heyəti**

Fransa heyəti-əsgəriyyəsi Şimali Qafqaziyadan qayıdıb "Metropol" otelinə düşmüşdür. Bu günlərdə heyət təcili qatarla Tiflisə yola düşəcəkdir.

**Dövlət Bankı**

İngilislərin getməsi sabiq Rusiya Dövlət Bankının necə olacağı məsələsini ortaya atır. Güman edirlər ki, bu vaxta kimi ingilislərin ixtiyarında olan bank ya italyanların idarəsi altında yenə işləyəcəkdir, yainki bank tamamilə Azərbaycan Dövlət Bankına təhvil veriləcəkdir.

**Qənd**

Batum qəzetələrinin verdiyi xəbərlərə görə, İstanbuldan Novorossiyskə və Batuma çoxlu qənd, xüsusən şəkər (pesok) gəlir. Qəndin bir hissəsi Batum bazarına buraxılmışdır. Qəndin bazarda görülməsi o saat qənd qiymətini 1500 manatdan 750 və 800 manata kimi aşağı salmışdır. Bu xəbər Bakı bazarına da böyük təsir etmişdir. Böylə ki, Batuma qənd və şəkər gəldiyi xəbərini eşidincə, şəkər və qənd qiymətdən düşməyə başlamışdır.

**HacıTərxanın alınması**

İyulun 5-də Petrovskdan Bakıya varid olmuş [gəlmiş] bir komandir Hacı-Tərxanın dabravollar tərəfindən 3 iyulda alınmasını təfsilən xəbər verir. Tsaritsın alınan kimi, Hacı Tərxanda həyəcan başlanmışdı. Zlobinin komandası altında 11-ci Şura qoşunu hissələri qaçmağa başlamışlar. Bolşevik əsgərlərinin çoxu sivil libas geyib camaatın içində gizlənməyə səy edirmişlər. Ordunun bəzi hissələri komissarın təhti-idarəsində [idarəsi altında] ən qiymətli şeyləri alıb avtomobillərlə HacıTərxandan Petrovska yönlənmişdir. Şəhərə dabravollar musiqi və bayraqlarla rəsmi-keçiddə olan kimi girmişlər.

**Tapılmışdır**

İyulun 6-da, axşam saat 9 radələrində Olqinski küçə (Pasaj qabağında) bir pul kisəsi ilə pasport tapılmışdır. Sahibi Staro polis və Kolyubakinski küçələrin küncündə "İngilis barı" nam [adlı] qəhvəxana sahibi Aleksandr Kukuşviliyə müraciət etsin.

**Qubernator idarəsində**

- Bakı İstintaq Məhkəməsinin müddəiyi-ümumisi [prokuroru] Bakı qubernatoruna xəbər verir ki, 377, 354, 338 və 347 qanun maddələrinə görə Balaxanı-Sabunçu polismeysterstvasının 7-ci hissəsinin pristavı Rostovskinin işinə baxılmağa şüru edilmişdir [başlanmışdır].

- Cəfərqulu Məhəmmədəli oğlu icazəsiz silah gəzdirdiyinə görə qubernator tərəfindən 200 manat cərimə edilməklə 2 gün həbsə alınmağı əmr edilmişdir.

- Qubernatorun əmri ilə Salyan həbsxanasında olan Mirabbas Mirəziz oğlu Bakı Mərkəzi həbsxanasına köçürülür.

**Quldur başçısı**

Quba mahalında quldur dəstəsi düzəltməkdə müttəhim edilən Ömər Şıxkərim oğlu Quba həbsxanasına salınmışdır.

**Mülkiyyə Müfəttişliyi**

İrəlicə xəbər vermişdik ki, Daxiliyyə Nəzarəti cənbində [nəzdində] hökumət məmurlarının, habelə hökumət idarələri ilə əlaqədar olan müəssisələrin və şəxslərin əfal [işlərini] və hərəkatını təhqiq və təftiş üçün bir müfəttişlik ehdas [təsis] edilmişdir. Birinci olaraq məzkur [deyilən] müfəttişliyə 1919 sənəsi 18 iyun tarixli və 8471 nömrəli məşruhə [izahatnamə] ilə Gəncə valisinin Rəisi-Vükəlaya [Baş nazirə] təqdim etmiş olduğu, Ərzaq nazirinin Gəncə vilayəti nümayəndəsinin məruzəsi mövcibincə [məruzəsinə əsasən] Ləki və Ucar mövqiflərini [stansiyalarını] təftiş etmək həvalə olunmuş və Müfəttişlik tərəfindən Hüseyn Mirzəcamalov cənabları məzkur mövqifləri təftiş edərək aşağıdakı məlumatı əldə etməklə, Daxiliyyə naziri cənablarına təqdim eyləmişdir:

1) Bakı Ərzaq Nəzarətindən verilmiş 11449 və 12195 nömrəli şəhadətnamələrlə Ağdaş sakini Əsədulla Səfərov Ərzaq Nəzarətinin Gəncə nümayəndəsi adı na 3 vaqon buğda və arpa aparmalı imiş. Məzkur buğda və arpalar Gəncə nümayəndəsi vasitəsilə lazım görülən yerə göndərilməli imiş. Lakin şəhadətnamə sahibi Əsədulla Səfərov şəhadətnamədən "Ərzaq Nəzarəti Gəncə nümayəndəsi vasitəsilə" cümləsini pozmuş, buğda və arpa Əsədulla Səfərov adına vasitəsiz olaraq göndərilmişdir. Bu sənədlərin saxtalığı Müfəttişlik tərəfindən kəşf edilərək, mallar Ləki mövqifində saxlanılıb, Əsədulla Səfərovun Bakıda kontoru bağlanmış, kəndisi də təhtiməsuliyyətə [məsuliyyət altına] alınmışdır. Hazırda fövqəlzikr [yuxarıda adı çəkilən] Səfərov Bakıda deyildir.

2) Ucar mövqifindən Ərzaq Nəzarətinin 10737 və 10730 nömrəli şəhadətnamələri ilə Qurban İbrahimov və Mehdi Əliyev namlar [adlı şəxslər] 7 vaqon arpa və buğda Tovuz və Ağstafaya göndərmişlərdir. Bu iş təftiş edilərək, məzkur şəhadətnamələr haqqında Ərzaq Nəzarətindən məlumat istənilmiş, 29 iyun tarixi ilə 9550/2420 nömrədə alınan rəsmi məlumatda yuxarıdakı nömrələr məzkur şəxslərə verilmədiyi anlaşılmışdır. Bununla, o şəhadətnamələrin saxta olduğu mühəqqəq olaraq [təsdiqlənərək], Qurban İbrahimov və Mehdi Əliyev saxtakarlıqda müttəhim edilərək, işləri müddəiyi-ümumiyə [prokurora] həvalə olunmaqla, özləri də dəstgir olunmuşdur [tutulmuşdur].

3) Yenə Ərzaq Nəzarətinin Səttar Rəsulzadəyə "Gəncə nümayəndəsinin vasitəsilə" 11973 nömrəli şəhadətnamə ilə 4 vaqon buğda və arpa aparmaq icazəsi verilmiş, şəhadətnamədən "Gəncə nümayəndəsinin vasitəsilə" cümləsi pozularaq bilavasitə öz namına göndərilmişdir. Bunun üçün onun da malları tutulmuş, işi Daxiliyyə Nəzarəti vasitəsilə müddəiyi-ümumiyə verilmiş, kəndisi də tə hərri edilməkdədir [axtarılır].

Bu kimi xəyanətlərdə və saxtakarlıqda bəzi dəmiryol qulluqçuları və Ərzaq Nəzarəti məmurları da zümədxəldirlər [işə qarışmışlar]. Onlar da öz vəzifələrindən sui-istifadə edirlər ki, Müfəttişlik bu kimi xainləri kəşf edib təhti-məsuliyyətə alacaqdır.

## SURAXANIDA TEATRO

"Müsavat"ın Suraxanı şöbəsinin sabiq katibi Məşhədi Əli cənabları keçən iyun ayının 5-də Suraxanıda Benkendorf şkolasında [məktəbində] "Müsavat" firqəsinin nəfinə [xeyrinə] Əmirhacıyan həvəskarları tərəfindən [Əbdülhüseyn] Hey bətzadə cənablarının təhti-idarəsində [rəhbərliyi ilə] axşam tamaşası tərtib veriləcəyini "Müsavat" idarəsində mənə, Vəliyulla və Mustafa əfəndilərə söylədi və bizim də bu işdə iştirak etməyimizi tövsiyə etdi. Mən də müdiri-məsulluq vəzifəsini qəbul etdim. Ancaq orucluqdan dolayı naməlum bir vaxta qədər təxir olunmağını məsləhət bildik.

Təxminən bir həftə bundan əqdəm [qabaq] bəndə və Mustafa əfəndi, Məşhədi Əli cənabları ilə görüşüb həvəskarlarla görüşmək, bu barədə danışmaq mümkün olmadığından və camaatın həvəskarlara soyuq baxdıqlarından müəyyən vaxta onlar gəlib vəzifələrini ifa et məyə az ümidim olduğundan və camaat hüzurunda məsul olmamağımı nəzərə alıb öz boynumdan vəzifəmi rədd eylədim. Həmin iyul ayının 3-də "Azərbaycan" qəzetəsində cümə günü iyul ayının 4-də məzkur [deyilən] Əmirhacıyan həvəskarları tərəfindən fövqdə zikr olan [yuxarıda deyilən] oyunlar mövqeyi-tamaşaya qoyulmaq elanını oxudum. İyul ayının 3-də Sabunçuda Məşhədi Əli cə nabları ilə rast gəlib bu barədə sual etdim. Məzkur, həvəskarlar hazırdır, sabah nə növ olsa gələcəyini söylədi.

Cümə günü səhər saat 8-də idarəyə gəlib Məşhədi Əli, Mustafa əfəndi və Vəliyulla əfəndi və bəndə [mən] axşam saat 5[-ə] kimi işləyib teatrın səhnəsini və cəmi lazım olan şeyləri hazır edib, həvəskarları gözlədik. Amma həvəskarlar gəlmədi. Saat 5-də xüsusi çatan xəbərə görə həvəskarların müdiri Əbdül hüseyn Heybətzadə cənabları biletlərin az satılıb az məbləğ olmağını nəzərə alıb, qabaqca pullarını alıb sonra oynayacaqlarını söyləmiş. Böylə olduqda, mən də həman saat bir kağız yazıb pulları qabaqca özüm verməyimi vədə edib tezliklə gəlməklərini təmənna etdim. Hey bətzadə cənablarının yazdığı cavabdan bizə çatan xəbərin doğru olduğundan əlavə, yoldaşlarını bir yerə cəm etmək qeyri-mümkün olduğunu yazıb və teatro baş tutmamağını məlum etdi.

Bir aydan artıq müntəzir olan camaat axşam saat 10-adək gözləyib axırda qayət nifrətlənib dağıldılar. Bu surətlə teatronun baş tutmaması təqsirini camaat hüzurunda boynumdan atıram.

*Bəşir Bünyadzadə*

## AZƏRBAYCANDA

**Gəncədən**

Gəncədə bahalıq artdıqca artmaqda idi. Bununla mübarizə indiyə qədər kimsənin ağlına sanki gəlməyirdi. Əhalinin intixab edib [seçib] başa çıxardığı Bələdiyyə rəyasəti də bu bahalığı da cibinin genişliyindən hiss etməyir kimi idi. Həmd olsun, ən nəhayət Bələdiyyə rəisimiz bazarda bahalıq olduğunu duydu, yeni hümmətli valimiz Bələdiyyə rəisinin canını bahalıqdan qurtarmaqdan ötrü əlzəm [vacib, lazımlı] olan yeyəcək şeylə rinə qəti qiymətlər təyin etdirmişdir.

Vali həzrətləri əlindən gələn qədər çalışırsa da, bazarımızda ət, yağ və penir [pendir] və sairə qəhətliyi başlamışdır. Qiyməti qəti görən və 100-ə 200 qazanmağa alışmış olan alış-verişçilər əllərindəki malları hələlik satmamağa qərar verdilər.

Məzə burasındadır ki, hökumətin fikri bahalıqla mübarizə etmək olduğu halda, həm əhali, həm də alış-verişçilər hö kumətdən narazı kimidirlər. Əhalinin narazı olmasına səbəb, əlbəttə ki, malın bazarda yoxluğudur.

Möhtəkirlərlə mübarizə etmək üçün, şübhə yoxdur ki, əvvəlcə əhalinin köməyini təmin etməlidir. Biz yeni valimizin təşəbbüslərini alqışladığımız kimi, Bələdiyyə rəyasətimizin bacarıqsızlığına da şaşır və gülürüz. Buğda məhsulatına görə ölkəmizin zəngin bir nöqtəsi Gəncə olduğunu, onlar da mənimlə bərabər eti raf etdikləri halda, bu gün Gəncə çörəkçi dükanlarında bişən çörəklər, haşa, çörəyə bənzəməyir. Bunu Allah götürməz. Xalqın etimad etdiyi bir yeri tutub onların qeydinə qalmamaq və onlara çörək yerinə çamır yedirmək cinayət deyil də, nədir?!

Gəncə küçələrinin qaranlıq olduğunu dəfələrcə yazdıqsa da, əhəmiyyət verilmədi. Bəlkə mətbuata gəldi-gedər kimi bir nəzərlə baxırlar. Fəqət əmin olmalıdırlar ki, zərərləri kəndilərinədir. Mənə qalarsa, bahalıqla mübarizə etmək, sabit qiymət qoymaqla bitməz. İndiyə qədər bir neçə dəfə gördülər ki, qiymət təyin edildiyi vaxt, yeyəcək şeyləri bazardan yox oldu. Ya da satılan şeylərin həpsi anbarda çürüyən şeylərdir. Ucuzluqla bərabər, təmizlik də əldə etmək üçün şəhər qəssab və çörəkçi dükkanları açıb, əhaliyə ucuz fiyatla [qiymətlə] mal buraxmalıdır ki, bu rəqabətin təsiri ilə bazara ucuzluq düşüb yaxşı mal çıxsın. Yoxsa, hər şeyə sabit qiymət qoyub çəkilib evdə oturmaq füqəraya zərərdən başqa bir şey verməyəcəkdir.

Aldığımız məlumata görə, vali həzrətləri bu tədbirindən qətiyyən ayrılmayacaqlarını vəd buyurmuşlardır. Ancaq gözəl olardı ki, bizim Bələdiyyənin qulağına da bir şey söyləsinlər. Böylə şey olmaz, a canım, yayın hərarəti artdıqca Bələdiyyənin hərarəti azalır. Bu hərarətsizlik qorxuram ki, Gəncənin xalqını xarab etsin. Madam ki, xalq üçün çalışanlar bunu xalqa vəd etdilər, sonuna qədər davam etməlidirlər:

"Nöqsanını bil, bir işə ya eyləmə iqdam,
Ya başladığın karı pəzirayi-xitam et!"

**Qarabağda**

Qarabağda yaşayanlar və ya ki Qarabağı görənlər bilirlər ki, Zəngəzur ilə Qarabağın arasında olan hündür və böyük dağların üstündən bir təkcə yol vardır ki, Şuşa şəhərinə gəlir. Bu yolun adı yol isə də, lakin özü ancaq bir cığırdan ibarətdir. Bu yol ilə nə araba, nə fayton ilə getmək mümkün deyildir. Ya atlı və ya piyada olaraq bu yol ilə getmək olar.

Zəngəzur kimi böyük bir uyezdin [qəzanın] mədənləri, təbii dövlətləri, xəzinələri, milyonlarca mənfəətləri bu vaxta ki mi istifadə edilməmiş qalır. Zəngəzurlular özləri ac-yalavac qalıb ayaqlarının altında hesabsız, milyonlara dəyər mədənləri tapdaladıqları halda, onlardan nəfbərdar ola bilməyirlər [xeyir götürə bilmirlər].

Neyçün, nə səbəbə?

Ona görə ki, Zəngəzura yol yoxdur. O milyonları oradan çıxartmağa, satıb pul qazanmağa rahrov [münasib yol] yoxdur. Araba, fayton deyil, hətta yüklü at, qatır gəlmək də çətinliklə mümkün olur.

Zəngəzurun dövlətləri, mədənləri, meşələri, xəzinələri və hətta neftləri barəsində gələcəkdə yazacağam. Lakin bu dəfə bir böyük ehsan barəsində yazmaq istəyirəm.

Zəngəzur yollarının zəhmətləri, ağırlığı nə qədər varsa, hamıdan artıq "Mıxtökənlər" deyilən iki dağ yollarının zəhmətli və ağır olmaları məşhurdur – "Bala Mıxtökən" və "Böyük Mıxtökən". Bu yol nə üçün böylə adlanmışdır? Çünki yolu ancaq at ilə keçmək olur və yol o qədər ağırdır ki, at həman yolu başa çıxanadək nalının mıxları tökülür.

Qopulmaz qaya daşlardan ibarət olan bu iki dağ yolları Zəngəzurun ticarəti və bəlkə də ümumi həyatı üçün böyük bir maneə təşkil edir. Bu maneəni rəf etmək [aradan qaldırmaq] Zəngəzurdan böyük bir bəlanı rəf etmək idi. Bu iki bəlanın birisi ilə mübarizə etməyi Zəngəzur uyezdində "Zarıslı" deyilən bir kəndin sərvətdarlarından Mürsəl nam [adlı] bir şəxs öz öhdəsinə çəkibdir. Zarıslı Mürsəl 30 min manat ianə edib, öz zəhməti ilə Böyük Mıxtökən deyilən dağın ətrafından meşəni qırdırıb gözəlcə bir yol açmağa iqdam etmişdir [girişmişdir]. Mür səlin fəhlələri bir ay tamamdır ki, işə şüru edib [başlayıb], bu gün sabah yolu tamam etməkdədirlər.

Mürsəlin bu ehsanı öylə bir xudapə-səndanə [Allahın xoşuna gedəsi] böyük ehsandır ki, onun misli-bərabəri genə də ikinci Bala Mıxtökəni qayırtdırmaq ola bilər.

Zarıslı Mürsəlin 30 min xərc çəkməsi və baxüsus [xüsusən] Zəngəzur kimi gözdən-qulaqdan kənar olan bir yerdə böylə bir ehsan etməsi həqiqətdə də layiqi-etina [diqqətəlayiq] bir əməldir. Mürsəlin bu hərəkəti nə afərinlər eşidib şöhrət qazanmaqdan və nə də bu əməlin dən bir mənfəətişəxsi hüsul etmək [şəxsi mənfəət əldə etmək] fikrindən nəşət etmişdir [irəli gəlmişdir]. Buna görə, bu hərəkəti onun milli qeyrəti və hümməti ol mağı sübut edir. Əsl həqiqi ehsan böylə olar ki, Mürsəl etmişdir. Allah etsin ki, böylə ehsan sahibləri çox olsun ki, Zəngəzur kimi zülmətlə örtülmüş yerlərdə işıq salmağa başlasınlar.

Danışırlar ki, ikinci Mıxtökəni də pristav müavini Teymur Axundov öz xərcinə təmir etmək fikrinə düşübdür. Allah eyləsin, yalansa da, doğru olsun. Allah Mürsəlin də ehsanını qəbul eyləsin.

*Məhəmməd Sadıq [Axundzadə]*

**Çarhan qəryəsindən**

Çarhan kəndi Şamaxı uyezdi Mədrəsə mahalının oturaq və böyük köylərindən birmincisi hesab olunur. İşbu kənd əhalisi fitrətən zəhmətkeş və çalışqan olmaqlarına görə, sair kəndlərə nisbətən burada asari-həyat [həyat, canlılıq əlamətləri] və irəli getmiş nişanələri müşahidə olunmaqdadır.

Şamaxı şəhəri ermənilər tərəfindən yandırlıb məhv edilməzdən müqəddəm [qabaq], bu şəhərin yeganə məhsul mənbəyi Çarhan idi. Hələ xiyar, qovun, üzüm və sair meyvələri şəhərdə başqa bir mövqe tutmuşdu.

Məmafih [bununla belə], keçmiş istibdad dövründə bu kəndə çəndan [o qədər də] əhəmiyyət verilməyirdi. Belə ki, ziraət [əkin] yerləri az olduğundan dəfələrlə sabiq istibdad hökumətinə müraciət edib əkin yeri istəmişlərsə də, rica və ərizələrinə əməl olunmamış, hətta çəltik (xır) yerləri də əllərindən alınıb düyü əkməkdən məhrum edilmişlərdi. Lakin bunlar qəlblərinə fütur [süstlük, usanma] gətirməyərək bağlarında çəltik əvəzinə soğan, noxud, lobya, paxla kimi hübubat [dənli bitkilər] əkərək boş oturmamışlar.

Çarhanlıların intibah əlamətlərindən biri də məktəbə, elmə rağib və həvəsnak olmalarıdır. 1918-mci [il] 18 mart facieyi-əliməsindən [kədərli faciəsindən] müqəddəm müəzzəm [böyük] və dörd tərəfi ay nabənd iki sinifli gözəl bir məktəbə malik idilər. 150-yədək oğlan və qız uşaqları həmin məktəbdə təlim və tərbiyəyə məşğul olurlardı. Həmçinin, yaraşıqlı və pürqiymət [zəngin] bir məscidləri dəxi var idi. Filhəqiqə [həqiqətən], balaca balaların dəstə-dəstə oxumağa şitaban olmalarını [tələsmələrini], cümə günlərində xalqın işdən əl çəkib cameyə rəvan olmaqlarını gördükdə adam bunları təqdir etməyə bilməzdi.

İbtidai məktəbin cənbindəki [yanındakı] sud [məhkəmə], ya ağsaqqalların məşvərət odası daha da calibi-diqqət [diqqətçəkən] idi. Məəttəəssüf [təəssüf ki], biçarələrin rövnəqi çox davam etmədi. 18 mart facieyi-əliməsində Çarhan qəryəsi [kəndi] böyük fəlakət və bədbəxtliyə məruz olaraq, dövlət və sərvətləri talan və qarət olunduğu kimi, heyvanlarının da bir qismi tələf olmuşdur.

Kəndə varid olduğum [çatdığım] zaman buranın həman kənd olub-olmadığında mütərəddid [şübhəli] qaldım. Zira, kənd büsbütün dəyişmiş, başqa bir halətə düşmüş, o gördüyüm uca minarəli məscid yandırılmış, kənardan par-par parlayan, uşaqlarımızın darüttərbiyəsi [tərbiyə evi] olan o gözəl məktəbimiz öylə yaxılmış ki, ancaq uçuq və pozuq sütunları matəm libası geymiş adam kimi gendən qaralır. Demək olar ki, kəndin bütün görünüşlü evləri qismən uçurulub yandırılmışdır. Bolşevik maskasında olan qəd dar ermənilər abad olan yerləri xarabazara döndərməkdə çox məharət göstərmişlər.

Doğrudur, çarhanlıların əvvəlki varları, dövlətləri əllərindən çıxmış, məmafih, səyləri, çalışmaqları yerindədir. İnşallah, cavan Cümhuriyyətimizin sayəsində çalışacaqlar, həm də qeyrətlə iş görəcəklər. Şübhəsiz ki, hökumətimiz də bunların halını nəzərə alıb mayehtacların [ehtiyacları olan şeyləri] tədarük etməkdə müavinətdə bulunacaq, sentyabrdan etibarən məktəb açdırıb bir ildən bəri avara və dərssiz qalan çocuqların oxutduracaqdır.

*Əlif. Əlif.zadə*

### BATUMDAN

**Bizə yazırlar**

- Həziranın [iyunun] 27-ci pəncşənbə [cümə axşamı] günü Batum limanına bir italyan drednotu müvasilət etmişdir [gəlib çatmışdır].

- Təmmuzun [iyulun] 1-də İtaliya əsakirinin [əsgərlərinin] ilk postasına [ilk qrupuna] Batumda intizar edilməkdədir. Şim didən məzkur əsakirə Batumda həyat tədarük edilməkdədir. Təmmuz içində Qafqaziyaya ezam ediləcək italyan qüvayi əsgəriyyəsi [hərbi qüvvəsi] kamilən gələ biləcəkdir. İngilislər də kəza [həmçinin] təmmuz içində Qafqaziyanı kamilən təxliyə edəcəklərdir.

- Bu günlərdə millət və milliyyətimizə mənsub bir çox əşxasın [şəxslərin] kəsrətlə [çoxluqla] Batuma gəlməkdə olduqları məələsəf [təəssüflə] görülməkdə və bunların burada səfahət aləmində qayət müstərihanə [rahat] imrari-həyat etdikləri [ömür sürdükləri] müşahidə olun maqdadır!

Sevgili vətəni-müəzzəz və müqəddəsimiz afaqında [əziz və müqəddəs vətənimizin üfüqlərində] çarizm ruhlu müstəbid və zalım Denikin və bilxassə rus könüllü qaranlıq buludları toplanarkən, bunlar hüquqi-təbiiyyə və insaniyyəmizi, hürriyyət və sərbəstiyi-həyatımızı təhdid edərkən, buna qarşı cavan Hökuməti-Cümhuriyyəmizin elan etdiyi səfərbərlik zamanı övladi-vətənin pək dürlü bəhanələrlə burada qalmaları ciddən pək çirkin və şayani-nifrət [nifrətəlayiq] bir hal kəsb etməkdədir.

Bunlar ümumiyyət etibarilə ticarətə iştiğal etdiklərini [ticarətlə məşğul olduqlarını] və bu məqsədlə buraya gəldiklərini söyləməkdə isələr də, imrar edə gəlməkdə olduqları həyati-səfihanələri kəndilərini tamamən təkzib etməkdə və həqiqətihal bütün çılpaqlıqla təcəlli etməkdədir [meydana çıxmaqdadır].

Binaənileyh [ona görə], böylə mühüm və pək nazik bir zamanda hökumətimizin bu kimi əşxasa [şəxslərə] vətən xaricinə çıxmaq üçün müsaidədə bulunması, bilməm ki, nasıl tələqqi edilməlidir [necə qiymətləndirilməlidir]!

Hər halda cavan Hökuməti-Cümhuriyyəmiz rəsikarında [iş başında] bulunan namdaranın [tanınmış, adlı-sanlı adamların] bunlar haqqında icab edən tədabiri-şədidə və müqtəziyyəni ittixaz edəcəyini [gərəkli şiddətli və lazımlı tədbirləri həyata keçirəcəyini] qəviyyən [möhkəm] ümid ediriz.

*Yahya Hacızadə*

## ERMƏNİSTANDA

**"Aşxatavor" yazır:**

- Ermənistan pulu çap etmək üçün litoqrafiya makinası alıb hazırlamağa hökumət 100 min manat pul təxsis etmişdir [ayırmışdır].

- Həman qəzetənin rəvayətincə, iyulun 7-də Amerika Konqresi cəm olub Ermənistan mandatı Amerika tərəfindən qəbul edilsinmi, yoxmu məsələsini müzakirə edəcəkmiş.

- Genə həman qəzetə yazır:

"Zəngəzur mis mədən sahibləri erməni hökumətinə pudu 120 manatdan 43 min pud mis təklif etmişlərdir."

## İZHARİ-TƏŞƏKKÜR

Bakıda yaşayan əshabi-həmiyyətdən [hümmətlilərdən, yardımsevərlərdən] adını bildirmək istəməyən alicənab bir zat [şəxs] Bakıda mövcud yetimlər yurdunu ziyarətlə, çocuqların ehtiyaclarını nəzəri-diqqətdən keçirmiş və şimdilik bayram mü nasibətilə çocuqların maddi cəhətlərini təmin etməyi lazım bilib, bu həmiyyətli şəxs 25 min manat paradan keçib yetim yurdunda mövcud olan 152 nəfər, istər oğlan, istər qız balalarının həm əlbisələrini və həm ayaqqabılarını dəröhdə eylədi [öhdəsinə götürdü] və bu həmiyyətini də Bakı qəyur [qeyrətli] xanımlarının yardımı ilə vücuda gətirib, ərəfə günü [bayram axşamı] çocuqları təzə əlbisələrlə, təzə ayaqqabılarla sevindirdilər. İştə bu həmiyyətli alicənab əfəndi həzrətlərinə həm yetimlər yurdu və həm xanımlar tərəfindən ərzi-təşəkkürlər et məklə, böylə alicənab şəxslərin əmsalını artıq eyləməsini Xudayi-mütəalidən [uca Allahdan] diləriz.

*Şəfiqə Əfəndizadə*

## İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm!

Rica edirəm, mənim bir qaç kəlmə cavabımı qəzetənizin sütunlarında dərc edəsiniz.

İyul ayının 6-dakı nömrənizdə mənim haqqımda bu məzmunda bir məktub yazılmışdı:

"Neçə gündür ki, Əliheydər Qarayev Tağıyev fabrikasına gəlib, vaxt-bivaxt mitinqlər düzəldib hökumət əleyhinə ağzına gələn nalayiq sözləri söyləyir. Mə sələn, yoldaşlar, hökumət sizə düyü, un verib sizi öz tərəfinə çəkir, aldanmayın. Bizə öylə hökumət lazım deyil. Bizim yoldaşlarımız, hansı ki, Aşqabaddadır, Hacı-Tərxandadır [Həştərxandadır], bu yaxın zamanlarda gəlib çıxar. Biz Şura hökumətindən başqa hökumət tanımayırıq."

Bu məzmunda kağızın da birisi "Azərbaycan" (rusca) və "İstiqlal" qəzetələrində çıxmışdı. Mən vaxtı-vaxtında öz cava bımı həmin məktub sahiblərinə verdim. Mən yenə də təkrar edirəm ki, bu söylənən sözlər həqiqətdən kənar və böyük fitnə və iftiradır. Mən böylə sözləri fabrikada əmələlərə [fəhlələrə] söyləməmişəm və söyləməyə də ehtiyac yoxdur. Çün orada olan mitinqlərin bəratülqövllərini [protokollarını] oxursanızsa, onda görərsiniz ki, həmişə fabrikada həll olan məsələlər, tamamən fabrikada bulunan əmələlərin halına dair məsələlərdir.

Və bir də söylənir ki, guya orada mən vaxtbivaxt mitinqlər yapıram. Bu, iftiradır. Çün mən heç vaxt iş vaxtı fabrikaya getməmişəm. Əgər mitinq olarsa, olar ancaq saat 6-da axşam, ya cümə günü.

Bir də fitnəçilər araya şuluqluq salmaq məqsədilə söyləyirlər ki, guya fabrika əmələləri oradakı "Müsavat" firqə sinin lövhəsini də yerə salıb ayaqlamışlar. Kamali-ciddiyyətlə buna da etiraz edib, fəhlələrin böylə bir alçaq iş yapmadıqlarını izhar edirəm.

Bununla idarəyə məlum edirəm ki, mənim haqqımda yazılan böhtanı bu gün Ədliyyə divanxanasına göndərirəm. Ədalət divanı müfəttinləri [fitnəkarları] özü tənbeh edər.

Parlaman üzvü Əliheydər Qarayev

İdarədən: Qarayev əfəndi haqqında yazılan məktubu uzun müddət idarəmizdə saxlayaraq, ancaq sair qəzetələrdə eyni məzmunda yazıldıqdan sonra dərc etdik. Şimdi Qarayev əfəndinin məktubunu da dərc ediriz. Fəqət bunu da əlavə etməliyiz ki, möhtərəm Parlaman üzvü əfəndi fitnə adlandırdığı fəqərəni [hadisəni] təkzib etməyərək, ancaq vaxt-bivaxt deyil, bir cümə günləri, bir də sair günlər saat 6-dan sonra mitinq qurduğunu bəyan edir. Bizcə, mitinq hər dəqiqə olammaz. Saniyən [ikincisi], haqqında yazılan sözləri təkzib etmək əvəzinə fabrikada vüqu bulmuş olan iclasların bəratülqövlünə and içməklə iktifa [kifayət] edir. Zənn edərsək, bu, kafi deyildir.

**İtibdir**

Balahəsən İman oğlunun Zəngəzur qəzasından aldığı pasportu itibdir. Etibardan saqitdir [etibarsızdır].

*5407*

**İtibdir**

Hüseyn Kamil oğlunun Suraxanıdan aldığı pasportu itibdir. Etibardan saqitdir.

*5408*

**İtibdir**

Əliabbas Nəsrulla oğlu Turabovun Bakıdan aldığı 5 illik pasportu itibdir. Etibardan saqitdir.

*5413*

**Qaçmışlar**

İyulun 1-də Şamaxı dairəsində 1 madyan və 2 at balası, birisi sarı, digəri isə boz, qaçmışlar. Yerlərini bilənlərdən xahiş olunur bəxşiş alaraq, telefon nömrə 33-31 vasitəsilə məlum etsinlər.

*5410*

**Təzə pianino**

"Offenbaxer"; xarici fabrika malı, iyirmi min (20000) manata, ittifaqən [təsadüfən] satılır. Ünvan: Kolyubakinski və Krivoy küçələrin küncündə musiqi mağazası "Vastoçna ya lira".

*5409*

**Satılır**

Ucuz qiymətə ingilis malından hər cür hazır kostyumlar, Busloviçin mağazasında. Korçakovski nömrə 12, telefon nömrə 24-70.

*5406*

**Xüsusi müsəlman təvəllüdxanası
Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi E. S. Karşteynbaumun**

Dişlər ağrısız çəkilir və qızıl dişlər qayırılır. Ünvan: Sisyanovski, nömrə 41, Çadrovının küncündə. Telefon nömrə 22-08. Qəbul edir: 8-dən 1-ədək; 5-dən 7-ədək.

İyul ayının 1-dən naxoşları Buzovnada Zərbəli Şeyxəli oğlunun bağında qəbul edir.

**Arvad diş həkimləri
Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Bəhri-Xəzər dənizində passajir
və yük gəmilərinin yola düşmələri**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Petrovsk*

15, 26 və 24-cü körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 12-də.

Qeyd: Lənkərana və Astaraya paroxodların gedişi ayrıca elan olunacaqdır.

*T-164*

**Berlin Darülfünunu doktoru
S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*10244*

**Doktor S. İ. Zaks**

Zöhrəvi, dəri, sifilis və daxili naxoşluqlarını qəbul edir. 606 və 914 müalicə. Naxoşları hər gün qəbul edir səhər saat 7-dən 8-ədək, axşam saat 6-dan 8-ədək. Vorontsovski küçə nömrə 43, 2-ci mərtəbə. Telefon nömrə 32-56.

*10237*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti
"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Fin-kelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*10257*

***Müvəqqəti müdir:
Xəlil İbrahimov***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

**Kinoteatr "Renessans"**

səh. 99. "Renessans": Bakı şəhərində, Torqovı (indiki Nizami) küçəsində fəaliyyət göstərmiş kinoteatr. Sovet dövründə əvvəlcə "Proletariy", sonra "Vətən" kinoteatrı adıyla fəaliyyətini davam etdirmişdir.

"məşhur «Transatlantik» adlı Amerika trestinin 6 seriyada 18 dövr və 38 hissə, misli görünməmiş Amerika ictimai və cinayət dramalı şəkillərinin birinci seriyası": mətnin bu hissəsində bəzi sözlərin yeri səhv düşmüş, qəzetdə belə getmişdir: "Amerika trestinin 6 seriyada 18 dövr və 38 hissə, misli görün-məmiş məşhur «Transatlantik» adlı Amerika ictimai və cinayət dramalı şəkillərinin birinci seriyası".

**İttifaqən**

səh. 100. "birjevoy fayton": "bahalı, elit fayton" mənasında işlədilirdi.

**Qismi-rəsmi**

səh. 100. "prixod": camaatın ianələri hesabına saxlanan yerli dini icma.

***Teleqraf xəbərləri***

səh. 101. "Libava": Latviyanın cənub-qərbində, Baltik dənizi sahilində indiki Liepaya şəhəri.

səh. 102. "Ulmanis": qəzetdə "Ulman" getmişdir.

"omnibus": çoxyerli ictimai nəqliyyat növü; avtobusun əcdadı hesab olunan ilk omnibusları atlar çəkirdi.

"Yamburq şosesi": Rusiyanın Leninqrad vilayətinin Kinqisepp şəhərində şose.

**Qəzetələrdən**

səh. 104. "Müttəfiq və Mötəlif döv-lətlər": Almaniya, Avstriya-Macarıstan, Os-manlı imperiyası, Bolqarıstandan ibarət olan İttifaq dövlətləri (Mərkəzi dövlətlər) və Böyük Britaniya, Fransa, Rusiyadan ibarət olan Etilaf (Antanta) dövlətləri.

**Bir əldə iki qarpız tutanlar!**

səh. 106. "Müshəfə müqabil": Quran kimi, Quran əvəzi (istehza ilə).

"F. A.": "Azərbaycan" qəzetində bu imza Fərhad Ağazadəyə məxsusdur.

**Erməni cümhuriyyətində müsəlmanların yaşayışı**

səh. 107. "Dəlmə": İrəvanın məhəlləsi və münbit bağları ilə məşhur ərazisi olmuşdur.

**Müasirləşmək**

səh. 108. "Avropa mədəniyyəti-möhtə-şəməsi ilə mütəməddin": qəzetdə "mütə-məddin" [mədəniləşmiş] yerinə "mütədəyyin" [dindar] getmişdir.

**Üşr məsələsi**

səh. 109. "üşr": kənd təsərrüfatı məh-sullarından onda bir miqdarında alınan dini vergi.

"əvvəli-cüz": keçmişdə məhəllə məktəb-lərində dərsə (cüz adı verilən əlifba kitabına) başlamaqla bağlı mərasim və verilən hədiy-yələr.

"isqat": ölünün guya günahlarını yumaq üçün verilən sədəqə.

"təqsim": "bölmə, bölüşdürmə" demək-dir; miras, alacaq kimi şeylərin şəriətə uyğun bölünməsi nəzərdə tutulur.

"Bəndə; mollanın ziddi, ya düşməni de-yiləm.": "mən" yerinə təvazökarlıq əlaməti olaraq "bəndə", "fəqir", "aciz" kimi sözlər işlədilirdi.

"Onun üçün deyirəm ayda 400 manat hökumətə verim, nəinki bunun müqabilində bir də hökumətdən alım.": bu cümlə qəzetdə belə getmişdir: "Onun üçün deyirəm ayda 400 manat hökumətə verim, olduğum nəinki bunun müqabilində bir də hökumətdən alım."

səh. 110. "xüms": varlıların öz qazancının beşdə biri miqdarında verməli olduqları dini vergi.

"hücrə": məscidlərdə, mədrəsələrdə ya-xud təkyələrdə kiçik otaq; "hücrə bucağın-dan gələnlər" deyərkən, xüsusən mədrəsə və təkyələrdə təhsil almış adamlar nəzərdə tutulur.

**"Vətən" şeiri (s. 110-111)
üçün lüğət:**

əbsəm: lal; səssiz
madəri-mehriban: mehriban ana
canu-tənim: canım və cismim; ruhum və bədənim
paymal olmaq: ayaq altında qalmaq, tapdalanmaq
madəri-müşfiqi-əhali: camaatın şəfqətli anası
Hali-əsrə nə gunə halisən?!: Zəmanə-mizdən, müasir dövrdən nə dərəcədə xə-bərdarsan?!
İsməti-madərin mühafizidir: Anasının ismətini qoruyandır
hərəm dəvairi: hərəm otaqları
divi-mənhus: uğursuz, nəhs div
vəli: ancaq
əjdahayi-fasiq: fitnəkar, dinsiz əjdaha
Akili-cümleyi-xəlaiqdir: Bütün adamları, bütün xalqları yeyəndir
vüfur: bolluq; çoxluq
sər: baş
sələf: keçmişlər; əcdadlar; ata-babalar
xələf: oğullar
vürud: gəlmək
kuh: dağ
Eşq oduyla dilin kabab eylə: Ürəyin eşq odu ilə kabab eylə
bəqa: əbədilik, ölməzlik
mücavir: türbə xidmətçisi

Rüstəm: Əfsanəvi İran qəhrəmanı Rüstəm Zal, yaxud Zal oğlu Rüstəm. Şərq folklorunda və ədəbiyyatında güc-qüvvət rəmzi kimi işlədilir.

Söhrab: Əfsanəvi İran qəhrəmanı; həm-çinin "Şahnamə"nin əsas qəhrəmanlarından biri; Rüstəmin oğlu.

**Azərbaycanda**

səh. 116. "Nöqsanını bil, bir işə ya eylə-mə iqdam, / Ya başladığın karı pəzirayi-xitam et!": "Ya öz əskikliyini bil və bir işə heç baş-lama, yaxud da başladığın işi başa çatdır!"; beyt Osmanlı şairi Ziya paşanındır.

səh. 118. "1918-mci il 18 mart facieyi-əliməsi": 1918-ci ilin 31 Mart soyqırımı nəzərdə tutulur.

**Batumdan**

səh. 119. "drednot": zirehli hərbi gəmi; drednout.

**Təzə pianino**

səh.121. "Offenbaxer" [Offenbacher]: Alman piano markası; bir sıra şəhərlərdə, o cümlədən Peterburqda da fabrikləri olmuş-dur.

"Krivoy" (yaxud Krivaya): Bakıda küçə olmuşdur; hal-hazırda Fəvvarələr meydanı ərazisinə daxil edilmişdir.

# Bir Vətən sevdalısı Xəzər vardı...

**"Gəl, mənim şəklimi çək. Şəhid olsam, bu şəklimi paylaşarsan. Deyəcəklər, üzü necə nurludur…" Xəzər Zamanov 2023-cü il sentyabrın 18-də sonuncu dəfə evdən çıxarkən qardaşına yarızarafat, yarıciddi bu sözləri demişdi. Sanki ürəyinə nəsə dammışdı. Bəlkə də qarşıdakı yolun əvvəlkilərdən fərqli olduğunu hiss etmişdi. Anası Vəfa xanım isə həmin an oğlunun bu sözlərinə fikir verməmişdi.**



"İndi fikirləşirəm ki, niyə soruşmadım: "Ay bala, niyə belə danışırsan?" Elə bil həmin an donub qalmışdım", - deyə şəhid anası o günü xatırlayır.

Üç il ötür. Amma Vəfa xanım üçün həmin 18 sentyabr hələ də bitməyib. Saat üç radələrində evdən çıxan oğlunu, hazırladığı yol çantasını, qardaşının çəkdiyi son şəkli, qapıdan çıxışını, gecə gələn görüntülü zəngi, telefondakı səsini bu gün də bütün detalları ilə xatırlayır. Çünki övladını sonuncu dəfə yola salan ana üçün zaman bəzən elə həmin gündə dayanıb qalır…

## Atasının öz canı bahasına xilas etdiyi Xəzər

Xəzər Azər oğlu Zamanov 1998-ci il iyulun 21-də Sədərək rayonunun Sədərək kəndində dünyaya gəlib. Adını bibisi seçib. "Atasının adı Azərdir, oğlunun da adı ona uyğun Xəzər olsun" deyib. Beləcə, ailənin sonralar böyük qürur və sonsuz nisgillə çəkəcəyi bu ad onun taleyinə yazılıb.

Xəzərin ailəsinə Vətən uğrunda şəhidlik anlayışı yad deyildi. Əmisi Aydın Zamanov 1992-ci ildə 25 yaşında Sədərək istiqamətində gedən döyüşlərdə şəhid olmuşdu. O, ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb. Xəzər də uşaqlıqdan əmisinin şəhidliyini, ailənin yaşadığı bu itkini eşidərək böyüyüb. Vətən, torpaq, Qarabağ anlayışı onun üçün yalnız kitablardan oxuduğu sözlər deyildi.

Amma Xəzərin uşaqlığına başqa bir ağır itki də yazıldı...

Cəmi doqquz yaşı vardı. Atası 36 yaşında idi. Birlikdə dənizə getmişdilər. Xəzər suda batmaq təhlükəsi ilə üzləşəndə atası oğlunu xilas etdi, özü isə həyatını itirdi.

Tarix iyulun 20-si idi. Ertəsi gün - iyulun 21-i isə Xəzərin ad günü…

Vəfa xanım üçün bu iki tarix bundan sonra həmişə yanaşı gəldi: bir gün həyat yoldaşının ölüm günü, ertəsi gün oğlunun doğum günü. Sevinc ilə kədərin arasındakı məsafə cəmi bir gün oldu.

Atalarını erkən itirən üç qardaş bir-birinə daha möhkəm bağlandılar. Şəhid anası danışır ki, övladları uşaqlıqdan bir-birlərinə qarşı son dərəcə mehriban olublar. Əllərinə bir konfet düşəndə belə onu üç yerə bölüb paylaşarmışlar.

"Oğlanlarımın hamısı mənim üçün əzizdir. Amma Xəzərin özünəməxsus xasiyyəti vardı. Çox sakit, ağıllı, mehriban, mərhəmətli idi. Mənə, qardaşlarına, ailəsinə həddindən artıq bağlı idi. İnanın, onun necə oğul olduğunu sözlə ifadə etməkdə çətinlik çəkirəm. Elə bir oğul bir də dünyaya gəlməz", - Vəfa xanım deyir.

Xəzər boylu-buxunlu, yaraşıqlı gənc idi. Anasının dediyinə görə, qapıdan keçəndə uca boyuna görə başını əyməli olurdu. Amma bu əzəmətli görünüşünün arxasında həlim, sakit, insanlara hörmətlə yanaşan bir xarakter vardı. Orta təhsilini Bakının Nizami rayonundakı 62 saylı məktəb-liseydə alan Xəzər daha sonra Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olmuşdu. Vəfa xanım deyir ki, onun ən çox sevdiyi sahələrdən biri polis peşəsi idi. Əmisinin şəhidliyi, uşaqlıqdan eşitdiyi hekayələri də peşə seçiminə təsirsiz qalmamışdı.

Xəzər hərbi xidmətdə olarkən 44 günlük Vətən müharibəsi başladı. Müharibə şəraiti ilə əlaqədar onun hərbi xidməti də uzandı və iki ilə yaxın əsgərlik həyatı yaşadı. Sonra evə qayıtdı. Ailə qurdu. Qarşıda yaşanacaq uzun illər, qurulacaq bir həyat, dünyaya gələcək övlad, ata olacağı gün vardı…

Amma ailə həyatının cəmi onuncu ayında Xəzər şəhid oldu. O, qızının dünyaya gələcəyini bilirdi, amma balasını qucağına ala bilmədi. Şəhidliyindən bir neçə ay sonra qızı Humay dünyaya gəldi. Atasının üzünü yalnız şəkillərdən görəcək Humay…

Xəzərin adı isə ailədə bir başqa körpənin taleyində yaşamağa başlayıb. Qardaşının oğlu dünyaya gələndə ona şəhid əmisinin - Xəzərin adını veriblər. Beləcə, bir vaxtlar üç qardaşın böyük sevgi və bağlılıqla böyüdüyü o ailədə Xəzər adı yenidən səslənib. İndi evdə balaca Xəzərə hər dəfə adı ilə müraciət ediləndə bu ad həm bir şəhidin xatirəsini yaşadır, həm də ailə üçün davam edən həyatın, gələcəyə uzanan ümidin rəmzinə çevrilir.

Vəfa xanım nəvələrindən danışanda səsində kədərlə yanaşı bir təsəlli də duyulur: "Nəvələrimin hamısı mənə əzizdir. Amma Xəzərin balasına baxanda başqa hisslər keçirirəm. O, mənim üçün atasından qalan ən qiymətli yadigardır. Yenə şükür edirəm ki, övladı var. Allah atasının yaşaya bilmədiyi gözəl günləri onun balasına yaşatsın. Ona gözəl bəxt, gözəl tale versin. Atasına layiq övlad olsun".

## "Hələ də elə bilirəm haradansa gələcək…"

2023-cü il sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində lokal antiterror tədbirləri başladı. Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayının əməkdaşı Xəzər Zamanov həmin gün Xocavənd istiqamətində gedən döyüşlərdə şəhid oldu.

Bir gün əvvəl qardaşına "Şəhid olsam, bu şəklimi paylaşarsan" deyən Xəzərin sözləri gerçəyə çevrildi.

O şəkil qaldı.

O səs qaldı.

"Sağ-salamat qalın. Biz gedirik…" dediyi son video qaldı.

Bir də qapıya baxan ana…

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis alayının qulluqçusu Xəzər Zamanov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamına əsasən, ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Vəfa xanım deyir ki, övlad itkisini qəbul etmək mümkün deyil. İllər keçir, insan gündəlik həyatına davam edir, bəzən üzü gülür, iş görür, amma daxilində həmin günə qədər yaşadığı adam olaraq qalmır: "O gedəndən mən də ölmüşəm, canlı ölüyəm. Hələ də içimdə bir ümid var. Elə bilirəm haradansa gələcək. Hələ də yolunu gözləyirəm. Üç ildir Xəzərimdən ayrıyam".

Bu sözlərdən sonra nə təsəlli vermək asandır, nə də söz soruşmaq. Çünki ana üçün şəhidlik həm qürurdur, həm də ömrün sonunadək daşınacaq övlad həsrəti.

Sentyabrın 18-i Vəfa xanımın yaddaşında Xəzərin evdən sonuncu dəfə çıxdığı gündür. Üç il əvvəl həmin gün saat üç radələrində oğlunu yola salmışdı. O zaman bunun son görüş olduğunu bilmirdi. Ana oğlunun paltarlarını yığmış, qardaşı onun şəklini çəkmiş, sonra onu yola salmışdı. Adi bir gün kimi başlayan həmin gün ailənin həyatını iki yerə böləcəkdi: "Xəzər gedənədək yaşanan və ondan sonra davam etdirilməyə çalışılan həyat".

"Allahın yazısıdır… Allah Vətənimizi bir də belə ağır sınaqlarla üz-üzə qoymasın. Allah heç bir anaya, heç bir ailəyə övlad acısı yaşatmasın. Şəhidlərimizin məqamı uca olsun" deyir ana.

Xəzər Zamanov 25 yaşında şəhid oldu. Taleyin qəribə təsadüfüdür ki, əmisi Aydın Zamanov da şəhid olanda 25 yaşında idi. İndi Xəzərdən ailəsinə xatirələri, şəkilləri, son videosu, haqqında danışılan saysız-hesabsız xoş sözlər və qızı Humay yadigar qalıb. Bir də anasının bitməyən gözləntisi…

*Ülkər XASPOLADOVA, "Azərbaycan"*




# Atadan oğula ötürülən Vətən əmanəti

**Bəzi ailələrin tarixini bir evin divarları arasında deyil, Vətənin taleyində oxumaq mümkündür. Belə ailələrdə ata ömrünün ağrısını, yarımçıq qalmış arzusunu oğluna danışır, oğul isə həmin arzunu həyatının amalına çevirir. Nəcəfovlar ailəsinin hekayəsi də belə bir taledir. Bu hekayədə ata Qarabağ uğrunda vuruşub, illər sonra oğlu həmin torpaqların azadlığı uğrunda döyüşərək şəhidlik zirvəsinə yüksəlmişdi.**

Birinci Qarabağ müharibəsinin iştirakçısı, igid döyüşçü Taleh Soltan oğlu Nəcəfov illərlə Qarabağ həsrətini ürəyində yaşadan qəhrəmanlardandır. O, müharibədə göstərdiyi şücaətə görə 1996-cı ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən "Azərbaycan Bayrağı" ordeni ilə təltif olunmuşdu. Taleh Nəcəfov üçün Qarabağın hər qarışında döyüş yoldaşlarının xatirəsi, itkilərin ağrısı və bir gün qələbə ilə geri dönmək ümidi vardı...

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda ata ilə oğul arasında baş tutan söhbət sanki iki müharibəni, iki nəsli və bir Vətən amalını birləşdirdi. Taleh Nəcəfov müharibənin başlanma xəbərini eşidəndə oğluna qətiyyətlə demişdi: "Fuad, get, torpaqlarımızı erməni işğalçılarından azad et. Mən buna tam əminəm ki, torpaqlarımız azad olacaq. Çünki bugünkü Azərbaycan ovaxtkı deyil". Bu sözlər bir atanın oğluna verdiyi adi məsləhət deyildi, həm də illər boyu Qarabağ ağrısını ürəyində daşımış bir döyüşçünün oğluna etimadı idi. Ata bilirdi ki, Azərbaycan əvvəlki Azərbaycan deyil, xalqın iradəsi, ordunun gücü və Vətənə bağlı minlərlə igidin cəsarəti illərlə həsrətində olduğumuz torpaqları geri qaytarmağa qadirdir.

F.Nəcəfov 1990-cı il oktyabrın 1-də İsmayıllı rayonunun Qalınçaq kəndində dünyaya göz açmışdı. Uşaqlıqdan Vətənə bağlı bir ailədə böyümüş, Vətən dərsini də ailədə almışdı. Həyatında atasının keçdiyi döyüş yolu xüsusi yer tuturdu. Birinci Qarabağ müharibəsinin iştirakçısı olan Taleh Nəcəfovun yaşadığı hadisələr, Qarabağ haqqında söhbətləri, itirilmiş torpaqların ağrısı Fuadın yaddaşında dərin iz salmışdı. Buna görə Fuad üçün əsgərlik, sadəcə, bir xidmət yox, həyat yolu idi.

2008-ci ildə həqiqi hərbi xidmətini başa vurduqdan sonra hərbi sahədə xidmətini davam etdirən Fuad əvvəlcə gizirlik yolu keçmiş, xüsusi təyinatlıların hazırlığı üzrə kurslarda iştirak etmiş, özünü peşəkar hərbçi kimi yetişdirmişdi. İntizamı, cəsarəti, fiziki hazırlığı və döyüş bacarığı ilə seçilən Fuad qarşısına qoyduğu vəzifənin məsuliyyətini dərindən dərk edirdi. 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusunun başladığı Vətən müharibəsi Fuadın illər boyu hazırlaşdığı sınaq idi. Fuad müharibənin ilk günlərindən döyüşlərə atılmış, xüsusi təyinatlı qüvvələrin tərkibində müxtəlif istiqamətlərdə gedən ağır əməliyyatlarda iştirak etmişdi. Döyüş yoldaşlarının xatirəsində peşəkar, cəsur və tapşırığı sonadək yerinə yetirməyə çalışan hərbçi obrazı canlanır.

Onların dediyinə görə, düşmənin xeyli tankının ələ keçirilməsində, 30-dan çox texnikasının məhv edilməsində Fuadın xüsusi xidməti olub. Fuadın göstərdiyi cəsarət və peşəkarlıq o qədər yüksək qiymətləndirilib ki, azad olunan Suqovuşan qəsəbəsində Azərbaycan bayrağının qaldırılması kimi şərəfli və məsuliyyətli vəzifə məhz ona həvalə olunmuşdu. Bu mənzərəni təsəvvür etmək belə insanda qürur hissi yaradır - illər əvvəl Qarabağ uğrunda döyüşmüş bir atanın oğlu indi işğaldan azad edilmiş torpaqda Azərbaycanın bayrağını ucaldır.

Fuad Nəcəfov Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində aparılan döyüş əməliyyatlarında fəal iştirak edərək ön cəbhədə özünü əsl Vətən əsgəri kimi göstərmişdi. Hər yeni azad edilən ərazi onun üçün qələbənin növbəti addımı, illərlə həsrətində olduğumuz Qarabağa qayıdışın müjdəsi idi. Müharibənin öz qanunu var. Qələbəyə aparan yol ən ağır itkilərdən keçir. 2020-ci il oktyabrın 7-də Fuad Nəcəfov da döyüş tapşırığını yerinə yetirərkən şəhid oldu, həyatı 30 yaşında yarımçıq qaldı...

Fuadın şəhid olması Nəcəfovlar ailəsinə ağır sarsıntı gətirdi. Anası Qərənfil xanım oğul itkisini, atası Taleh isə bir ata üçün təsəvvür edilməsi çətin olan ən böyük ağrını yaşadı. Amma bu ağrının içində qürur da vardı. Taleh Nəcəfov oğlunun döyüş yolu haqqında danışarkən deyib: "O, Vətən müharibəsində qəhrəman kimi döyüşüb. Qarabağımızın azad olunması üçün igidliklə vuruşub. Hələ müharibənin ilk günlərində Fuadla danışarkən "əmin ol, Ermənistan ordusu torpaqlarımızdan tezliklə qovulacaq" deyirdi.



Bu sözlər Fuadın özünə, döyüşə və qələbəyə olan inamını göstərirdi. O, qələbəyə, atası isə oğlunun sözlərinə inanırdı. Həmin qələbə gəldi. Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində böyük Zəfər qazandı. Bu, böyük Qələbənin qazanılmasında minlərlə Vətən övladı kimi Fuadın da payı var, həm də bu pay həyatından, gəncliyindən, ailəsindən, gələcəyindən, nəhayət, canından keçərək qazanılmışdı.

Fuadın Vətən qarşısındakı xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirildi. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə Fuad Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə, işğal olunmuş ərazilərin azad olunması zamanı döyüş tapşırığının yerinə yetirilməsində göstərdiyi qəhrəmanlığa və hərbi qulluq vəzifəsini yerinə yetirərkən nümayiş etdirdiyi igidlik və mərdliyə görə ölümündən sonra "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edildi.

Bu, canını Vətən yolunda qurban vermis bir şəhidin ailəsi üçün böyük təsəllidir. Heç bir medal bir övladın, bir qardaşın, bir atanın və bir ailə başçısının yoxluğunu doldura bilməz.

Rəmziyyə Mətləb qızı üçün Fuad ilk növbədə həyat yoldaşı, ailəsinin dayağı, qızları Nazlının atası idi. Onun yaddaşında Fuadın yalnız hərbi geyimli şəkilləri deyil, ailəsi ilə keçirdiyi günlər, danışığı, davranışı, həyat yoldaşına və övladına münasibəti yaşayır. Bu gün Fuadın qızı Nazlı onun ən qiymətli yadigarıdır. Nazlı böyüdükcə atasının kim olduğunu daha yaxşı anlayacaq. Ona atasının döyüş yoldaşlarının xatirələrini danışacaqlar, atasının aldığı orden və medalları göstərəcəklər. Ancaq bütün bunlardan daha qiymətlisi atasının sonadək Vətəninə sədaqətli olduğu söylənəcək. Nazlı üçün "ata" sözü bir gün yalnız ailə xatirəsi olmayacaq, həm də atasının adının Vətən tarixində yazıldığını biləcək.

Fuadın bacısı Leyla üçün də qardaşının adı yalnız "şəhid", "qəhrəman" sözü ilə bitmir, ailənin içindəki Fuad, doğmalarının sevdiyi Fuad, gülüşü, danışığı və xatirələri ilə yaddaşlarda yaşayan Fuad...

Şəhidlər haqqında yazarkən onların yalnız döyüş meydanındakı qəhrəmanlıqlarından danışmaq bəzən kifayət etmir. Çünki onlar əvvəlcə insan, övlad, qardaş, həyat yoldaşı və ata olublar. Onların həyatını bütövlükdə tanımaq üçün doğmalarının xatirələri də yaşadılmalıdır. Fuad Nəcəfov da belə bir ömür yaşadı. Onun atası Taleh Nəcəfov, anası Qərənfil Nəcəfova, bacısı Leyla İsmayılova, qardaşları Valeh və Qiyas Soltanzadə, həyat yoldaşı Rəmziyyə Nəcəfova və qızı Nazlıdan ibarət xatirələrində Fuad adlı doğmalarını əzizləyərək yaşadırlar. Bu ailənin hər bir üzvü Fuad haqqında fərqli xatirə daşıyır. Amma onları birləşdirən bir həqiqət var - Fuad Vətən uğrunda şəhid olub və onun adı ailəsinin qüruruna çevrilib.

Fuad Nəcəfovun həyatına nəzər salanda bir həqiqət aydın görünür - Vətən sevgisi nəsildən-nəslə ötürülən mənəvi mirasdır. Taleh Nəcəfov həmin sevgini döyüş yolu ilə yaşatmış, Fuad isə atasından aldığı Vətən əmanətini canı ilə qorumuşdu. Bəlkə də buna görə bu hekayənin ən yaddaqalan cümləsi elə bir atanın oğluna söylədiyi həmin sözlərdir: "Fuad, get, torpaqlarımızı erməni işğalçılarından azad et. Mən buna tam əminəm. Çünki bugünkü Azərbaycan ovaxtkı deyil".

Bu gün Fuad Nəcəfov həyatda deyil, amma adı atasının qürurunda, anasının ürəyində, bacı-qardaşlarının xatirəsində, həyat yoldaşının yaddaşında, qızı Nazlının gələcəyində, ən əsası isə azad Qarabağın səmasında dalğalanan Azərbaycan bayrağında yaşayır.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

# İyirmi yaşında qəhrəman oldu

**Yəqin ki, hamı kimi, Fərhad İslam oğlu Ağayev də uşaqlıq illərində, yeniyetmə çağlarında qəhrəman olmağı arzulayıb. Ürəyində özünə dərin yer etmiş bu arzuya çatmaq üçün daim öz üzərində çalışıb. Yorulmaq bilmədən məşq edib, hərbi dərsləri yaxşı oxuyub... Böyüyüb yaşa dolanda Qarabağı erməni işğalçılarından müdafiə etməyə yollanıb. Döyüşlərdə göstərdiyi igidliyə, cəsarətə görə Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. Hələ gənc ikən uşaqlıq, yeniyetməlik arzularına çatıb.**



Azərbaycanın Milli Qəhrəmanı Fərhad Ağayevin ömrü elə də uzun olmayıb, cəmi 20 il yaşayıb. Qısa, amma gələcək nəsillərə nümunə olacaq şərəf dolu bir ömür yolu keçib.

Fərhad İslam oğlu Ağayev 4 avqust 1975-ci ildə Lerik rayonunun Şivlə kəndində anadan olub. Sonralar ailə vəziyyəti ilə əlaqədar Sabirabad rayonunun Əlilənbəyli kəndinə köçüblər. Fərhad 1982-ci ildə böyük sevinc içində Əlilənbəyli kənd orta məktəbinin 1-ci sinfinə gedib. Nizam-intizamı, davranışı ilə başqa şagirdlərdən seçilib. Sanki on il tez ötüb arxada qalıb. Fərhad Ağayev ürəyində, qəlbində min bir arzu ilə 1992-ci ildə orta məktəbi bitirib. Bir il sonra, 1993-cü ilin yanvarında həqiqi hərbi xidmətə çağırılıb.

Həmin günlərdə erməni işğalçılarına qarşı Qarabağda, eləcə də Ermənistanla sərhəd bölgələrində gərgin döyüşlər gedirdi. Fərhad Ağayev 24 yanvar 1993-cü ildə Vətən qarşısındakı övladlıq borcunu yerinə yetirmək üçün böyük həvəslə ordu sıralarına gedib. Əsgər Fərhad Ağayev Azərbaycan Milli Qvardiyasında xidmətə başlayıb. Xidmətinin elə ilk günlərindən hərbi sirləri dərindən öyrənib. Ağır əməliyyatların getdiyi cəbhə bölgəsində vəziyyətin gərginləşdiyinə görə onları da Qarabağa döyüşməyə göndəriblər.

Fərhadın ilk döyüşü Füzuli rayonunun Seyidəhmədli kəndi uğrunda olub. O, döyüşdə qəhrəman kimi vuruşub, düşmənə sarsıdıcı zərbələr endirib. Füzuli istiqamətində bir neçə döyüş əməliyyatında iştirak etdikdən sonra onları ağır əməliyyatlar gedən Kəlbəcərə göndəriblər. Fərhad Murovdağ, Ömərdağ, Güzgü adlanan strateji əhəmiyyətə malik yüksəkliklər uğrunda gedən döyüşlərdə böyük cəsarət göstərib. O, cəbhə bölgəsində olduğu vaxtlarda iştirak etdiyi 27 döyüş əməliyyatında böyük şücaət və igidliklə vuruşub.

İgid əsgərin komandiri olmuş Azərbaycanın Milli Qəhrəmanı general Fəxrəddin Cəbrayılov Fərhad Ağayevin cəsarətindən söz açaraq deyib: "Fərhadgil 8 əsgər idilər. Hamısı da sərrast atırdılar, gülləleri hədəfdən yayınmırdı. Düşmənə qan uddururdular. İşğalçılar onları zərərsizləşdirmək üçün daim izləyirdilər, axtarırdılar. Buna görə də tapşırmışdım ki, həmin əsgərlər çox qabağa getməsinlər. Çünki bu cəsur əsgərlərin elə uzaqdan erməni qəsbkarlarına endirdikləri dəqiq və məhvedici zərbələr düşmən üzərində üstünlüyümüzü təmin edirdi. Fərhad çox cəsarətli əsgər idi. Qarlı-şaxtalı qış günlərinin birində tapşırığı icra edərkən o, dizindən ağır yaralanmış qərargah rəisi mayor Sadilovla azaraq üç gün meşədə ac-susuz qalmışdı. Nəfəsi tükənmək üzrə olan mayor Sadilov ona demişdi ki, məni burada qoy get, özün xilas ol. Onsuz da mənim belə yaralı vəziyyətdə sağ qalmaq şansım yoxdur. Amma Fərhad dediklərinə məhəl qoymayaraq onu köməksiz qoymamışdı. Zabiti azdıqları meşədən sağ-salamat çıxarıb gətirmişdi. Yaxşı xatırlayıram ki, Murov ətrafında gərgin döyüş gedirdi. Vəziyyət olduqca ağır idi. Havadarları düşməni dayanmadan hərbi texnika və silah-sursatla təmin edirdilər. Təəssüf ki, həmin döyüşdə itkilərimiz oldu. Geri çəkiləndə atəş güclü olduğuna görə şəhidlərimizi çıxara bilmədik. Fərhad güllə yağışı altında qorxmadan bir-bir onların üzlərini papaqları ilə örtərək geri qayıtdı. Mən ondan niyə belə etdiyini soruşanda "Qurd-quş üzlərini dağıdıb tanınmaz hala salmasın" cavabını verdi. Gözlərim yaşardı, Fərhadı qucaqlayıb köksümə sıxdım".

1995-ci il martın 12-dən 13-nə keçən gecə ölkənin ən ucqar bölgəsində - Qazax və Ağstafada Xüsusi Təyinatlı Polis Dəstəsi silaha əl atdı, dövlətçiliyimiz əleyhinə çıxdı. Bu bölgələrdə yerləşən polis bölmələri tərəfindən dövlət idarələrinə silahlı hücum təşkil edildi. Ağır sınaq günləriydi, qardaş qardaşa güllə atır, qanını axıdırdı. Fərhad Ağayevin xidmət etdiyi taborun şəxsi heyəti bunun qarşısını almaq üçün Ağstafa rayonuna göndərildi. Erməni işğalçılarına qarşı ağır döyüşlərdən sağ çıxmış Fərhad Ağayev 1995-ci il martın 13-də qardaş gülləsindən ağır yaralandı. İki gün sonra, martın 15-də bu yaradan gözlərini əbədi olaraq yumdu. Yaxınlarının, doğmalarının və ictimaiyyət nümayəndələrinin iştirakı ilə Sabirabad rayonundakı Şəhidlər xiyabanında torpağa tapşırıldı.

Ulu Öndər Heydər Əliyevin 4 aprel 1995-ci il tarixli fərmanı ilə Fərhad İslam oğlu Ağayev ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görüldü.

Xalq qəhrəmanlarının adını həmişə uca tutur, əbədiləşdirir. Bir zamanlar təhsil aldığı orta məktəb indi Fərhad Ağayevin adını daşıyır. Sabirabad və Lerik rayonlarında, eləcə də Əlilənbəyli kənd orta məktəbinin həyətində qəhrəmanın büstü ucaldılıb.

*Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"*

## Ağcabədi xəbərləri

# Kənd təsərrüfatının inkişafı istiqamətində işlər davam etdirilir

**Azərbaycan Respublikası Prezidentinin 25 may 2026-cı il tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın icrasının gedişini öyrənmək məqsədilə Azərbaycan Respublikası Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin sektor müdiri Qiyas Yusifov, Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov və müvafiq qərargah üzvləri rayonda bir sıra istehsal və emal müəssisələrində olmuşlar.**

Səfər çərçivəsində rayonun kənd təsərrüfatı sahəsində həyata keçirilən layihələr, istehsal və emal imkanları, suvarma infrastrukturu və təsərrüfatların fəaliyyəti ilə tanışlıq olmuşdur.

Belə ki, rayonda suvarma infrastrukturunun genişləndirilməsi istiqamətində "Azərşəkər" MMC tərəfindən müasir pivot suvarma sistemləri qurularaq istifadəyə verilmiş, əlavə pivotların quraşdırılması üçün layihələndirmə işlərinə başlanılmışdır. Dənli bitki toxumlarının saxlanılması üçün müasir anbar kompleksləri də tikilərək istifadəyə verilmişdir.

"Ağcabədi taxıl" Aqropark tərəfindən xurma, şaftalı, nektarin, heyva, badam və ərik bağları salınmış, yeni badam bağlarının salınması üçün tinglər sifariş edilmişdir. Həmçinin suvarma sistemlərinin yerli istehsal hesabına təmin edilməsi məqsədilə yastı damlama şlanqı istehsalı müəssisəsinin tikintisi davam etdirilir.




Kənd təsərrüfatı istehsalında müasir texnologiyaların tətbiqi məqsədilə yerli təsərrüfatlar tərəfindən yeni şum və becərmə traktorları alınmışdır.

Rayonda cins heyvandarlığın inkişafı istiqamətində də işlər görülür. Anqus cinsli iribuynuzlu ətlik mal-qara gətirilərək saxlanılmasına başlanılmış və bala alınmışdır. Cins qoyunlar alınmış, "Qaradolaq" MMC və digər təsərrüfatlar tərəfindən heyvanların saxlanılması üçün tövlələr, dalan və ahullar tikilərək istifadəyə verilmişdir.

Rayonda həyata keçirilən layihələr kənd təsərrüfatı istehsalının artırılmasına, müasir texnologiyaların tətbiqinə, məhsuldarlığın yüksəldilməsinə və aqrar sahənin inkişafına xidmət edir.

# Fermerlərlə aqrar dəstək mexanizmləri müzakirə edilib

**Ağcabədidə təşkil olunan Aqrar Biznes Festivalı və mövsümün ilk Toxum Sərgi-Satış Yarmarkası çərçivəsində fermer və sahibkarların iştirakı ilə "Aqrar sahədə dövlətin dəstək mexanizmləri" mövzusunda panel müzakirəsi keçirilib.**

Paneldə kənd təsərrüfatının inkişafı üzrə dövlət siyasətinin əsas istiqamətləri, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn hədəflər, yeni subsidiya mexanizmləri, "Toxumçuluq haqqında" qanunun əsas müddəaları, aqrar sığorta və fermerlərin maliyyə imkanlarına çıxışı ilə bağlı məsələlər müzakirə olunub.

Bildirilib ki, dövlət proqramı kənd təsərrüfatında məhsuldarlığın və istehsalın artırılması, intensiv və texnoloji təsərrüfatçılığa keçidin sürətləndirilməsi, su və torpaq ehtiyatlarından səmərəli istifadə, emal və ixracyönümlü istehsalın genişləndirilməsi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi və aqrar sahənin rəqabətqabiliyyətliliyinin artırılması istiqamətlərini əhatə edir.



Qeyd olunub ki, Aqrar Subsidiya Şurasının yeni qərarı ilə bitkiçilik, heyvandarlıq və balıqçılıq sahələrində subsidiya mexanizmləri yenilənib, fermerlər üçün mövcud dəstək şərtlərində dəyişikliklər edilib. Yeni mexanizmlər müasir suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsi, məhsuldarlığın artırılması, emal və ixracyönümlü istehsalın təşviqi, heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması və ərzaq təminatının gücləndirilməsinə yönəlib.

Paneldə həmçinin "Toxumçuluq haqqında" qanunun əsas müddəaları, toxum istehsalçıları və digər toxumçuluq subyektləri üçün müəyyən edilən tələblər, toxumların sertifikatlaşdırılması, qablaşdırılması, etiketləşdirilməsi və satışına dair qaydalar barədə məlumat verilib. Qeyd olunub ki, yeni qanunvericilik toxumçuluq sahəsində şəffaflığın və keyfiyyətə nəzarətin gücləndirilməsinə, toxum istehsalçılarının qeydiyyatının və sertifikatlaşdırma proseslərinin elektronlaşdırılmasına, fermerlərin keyfiyyətli və sertifikatlı toxuma çıxışının yaxşılaşdırılmasına xidmət edir.

Müzakirələrdə müasir suvarma, lazer hamarlama, texnika və texnoloji avadanlıqlara güzəştlər, bağçılıq və yeni istehsal istiqamətlərinə dövlət dəstəyi kimi yeni imkanların fermerlər üçün əhəmiyyəti diqqətə çatdırılıb.

Tədbirin sonunda fermer və sahibkarların ünvanladığı suallar aidiyyəti qurumların nümayəndələri tərəfindən cavablandırılıb, dövlət dəstəyi mexanizmlərindən səmərəli istifadə ilə bağlı tövsiyələr verilib.

# Aqrar Biznes Festivalı və mövsümün ilk Toxum Sərgi-Satış Yarmarkası

**Ağcabədi Rayon İcra Hakimiyyəti, Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzi və Aqrar Xidmətlər Agentliyinin birgə təşkilatçılığı ilə Ağcabədi rayonunda növbəti Aqrar Biznes Festivalı və mövsümün ilk Toxum Sərgi-Satış Yarmarkası keçirilib.**

Tədbirin əsas məqsədi kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən fermer və sahibkarlar arasında əməkdaşlığın genişləndirilməsi, aqrar sahədə tətbiq olunan yeniliklər və müasir texnologiyalar barədə fermerlərin məlumatlandırılması, innovativ avadanlıqlara çıxış imkanlarının artırılması, eləcə də yüksək məhsuldarlığa malik, sertifikatlaşdırılmış və rayonlaşdırılmış toxumların fermerlər üçün əlçatanlığının təmin edilməsi olub.

Aqrar Biznes Festivalında müxtəlif stendlərdə kənd təsərrüfatı təyinatlı texnika və avadanlıqlar, gübrə və pestisidlər, həmçinin Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən qurumlar tərəfindən göstərilən aqrar xidmətlərə dair məlumatlar təqdim edilib.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov rayonun kənd təsərrüfatı potensialı, fermer və sahibkarların fəaliyyətinin dəstəklənməsinin əhəmiyyətinə toxunub. Rayonun aqrar ənənələrinin qorunması və müasir yanaşmalarla inkişaf etdirilməsinin vacibliyini vurğulayan Rafil Hüseynov belə tədbirlərin fermerlərin dövlət qurumları və aqrar sahənin digər iştirakçıları ilə birbaşa əlaqələrinin gücləndirilməsinə xidmət etdiyini bildirib.

Kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın əsas hədəflərindən danışıb. Bildirib ki, proqramın əsas məqsədləri kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin rəqabət qabiliyyətinin artırılması, yüksək əlavə dəyər yaradan intensiv təsərrüfatçılığa keçidin sürətləndirilməsi, məhsuldarlığın yüksəldilməsi və müasir texnologiyaların tətbiqinin genişləndirilməsidir.

Digər çıxışlarda da dövlət proqramından irəli gələn hədəflər, fermerlər üçün yaradılan yeni imkanlar və dövlət dəstəyi mexanizmləri barədə məlumat verilib.

Festivalda 10-dan çox arıçı müxtəlif növ bal və digər arıçılıq məhsullarını sərgiləyib. Həmçinin Arıçılar Assosiasiyası, Kənd Qadınları Assosiasiyası və Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının qadın qrupları hazırladıqları məhsullarla iştirak ediblər.

Sərgi çərçivəsində mövsümün ilk Toxum Sərgi-Satış Yarmarkası da keçirilib. Yarmarkanın əsas məqsədi fermerlərin yüksək məhsuldarlığa malik, sertifikatlaşdırılmış və rayonlaşdırılmış toxumlara çıxışının təmin edilməsi, yerli toxum istehsalçılarının məhsullarının geniş auditoriyaya təqdim olunması və toxumçuluq sahəsində dövlət-özəl tərəfdaşlığının gücləndirilməsidir.

Yarmarkada Ağcabədi rayonu və ətraf rayonlardan olan 20-dən artıq toxumçu məhsullarını sərgiləmək və nümayiş etdirmək imkanı qazanıb. Eyni zamanda sərgidə ayrı-ayrı rayonların ixtisaslaşmasına uyğun yerli və xarici toxum nümunələri də təqdim olunub. Fermerlər toxumların məhsuldarlıq göstəriciləri, rayonlaşdırılması, istifadə xüsusiyyətləri və əldə olunma imkanları barədə məlumat alıblar.

Qeyd edək ki, 2026-cı il üzrə Toxum Sərgi-Satış yarmarkalarının kənd təsərrüfatı bitkiləri üzrə müəyyən edilmiş ixtisaslaşma nəzərə alınmaqla digər rayonlarda da keçirilməsi nəzərdə tutulur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# 32 ilin həsrətlisi qayğı ilə əhatə olunub

**17 sentyabr 2026-cı il tarixində Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov RİH-in inzibati binasında Ağdam şəhər sakini, Birinci Qarabağ müharibəsində itkin düşmüş şəhid nişanlısının yolunu 32 il gözləyən Sevda Əliyeva ilə görüşüb.**

Görüş zamanı RİH başçısı Sevda Əliyevanın problem və qayğıları ilə maraqlanıb, onun müraciətlərini dinləyib. Səsləndirilən məsələlərin həlli ilə bağlı müvafiq tapşırıqlar verib.




Qeyd edək ki, Sevda Əliyeva Birinci Qarabağ müharibəsi zamanı, 1993-cü il martın 27-də Kəlbəcər rayonunun Çıraqlı kəndi istiqamətində gedən döyüşlər zamanı itkin düşmüş nişanlısı, şəhid Musayev Mehman Camal oğlunun yolunu 32 il gözləyib. Uzun illər davam edən intizardan sonra Mehman Musayevin nəşinin qalıqları 2025-ci ildə tapılıb və doğulduğu Kəlbəcər rayonunda torpağa tapşırılıb.

*L. QULİYEV,*
*"Azərbaycan"*

## BEYNƏLXALQ HƏYAT

# ABŞ Pezeşkian və Əraqçinin BMT Baş Assambleyasında iştirak etməsi üçün vizaları təsdiqləyib

**ABŞ hakimiyyəti gələn həftə BMT Baş Assambleyasında iştirak etmək üçün İran nümayəndə heyətinin üzvlərinə, o cümlədən Prezident Məsud Pezeşkian və xarici işlər naziri Abbas Əraqçiyə viza verəcək. Bu barədə yerli media xəbər yayıb.**

"NBC News" telekanalı bir mənbəyə istinadən xəbər verir ki, "Pezeşkian və Əraqçi ABŞ vizası alan nümayəndə heyətinin tərkibində olacaqlar".



ABŞ Dövlət Departamenti BMT tədbirlərində iştirak etmək üçün vizaların İranın "əsas nümayəndə heyəti"nin üzvlərinə veriləcəyini dəqiqləşdirib.

Lakin İranın Baş Assambleyadakı nümayəndə heyəti ötən ilə nisbətən daha kiçik olacaq.

# Fransa prezidentliyinə namizəd Qabriel Attal "Avropa Birləşmiş Ştatları" ideyasını irəli sürüb

**Fransanın keçmiş Baş naziri və "Renessans" Partiyasından prezidentliyə namizəd Qabriel Attal Avropa İttifaqını "Avropa Birləşmiş Ştatları"na çevirməyi təklif edib. Bu barədə "Le Figaro" qəzeti xəbər verir.**

O, Reyms şəhərində çıxışı zamanı bildirib ki, "yalnız iki seçim var: Frexit (Fransanın Aİ-dən çıxması) kimi kabus bir ideya və ya yeni, reallaşdırıla bilən bir xəyal - Avropa Birləşmiş Ştatları".



Onun anlayışına görə, bu konsepsiya vahid bir dövlətin yaradılmasını deyil, "əsas Avropa ölkələrinin iqtisadi və ekoloji birləşməsini" nəzərdə tutur. Məsələn, Attal "iqtisadi sərhədlərin tamamilə ləğvini" istəyir.

Onun fikrincə, "27 dövlətdən ibarət Avropa öz həddinə çatıb" və buna görə də bu inteqrasiya birliyinin daha da inkişafı transformasiya tələb edir.

"Avropa Birləşmiş Ştatları" ifadəsi ilk dəfə 1849-cu ildə Dünya Sülh Konqresində fransız yazıçısı Viktor Hüqo tərəfindən istifadə edilib.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Bilmək istəyirəm

**- 64 yaşım var, tək yaşayıram. Nə işləyirəm, nə də təqaüd alıram. Övladım hər ay dolanışığım üçün 100 manat pul verir. Lakin bu ehtiyaclarımı qarşılamağa kifayət etmir. Dolanışığımı yaxşılaşdırmaq üçün hansı hüquqi imkanlardan yararlana bilərəm?**

*Ziba HƏSƏNOVA,*
*Masazır qəsəbəsi*

- Yaşadığınız çətin vəziyyətlə bağlı hüquqi müstəvidə mövcud olan imkanları, qanunvericiliyin tələblərini və bu vəziyyətdən çıxış yollarını nəzərdən keçirərək bildiririk ki, Azərbaycan Respublikasının qanunvericiliyinə görə, hər bir vətəndaşın sosial müdafiə hüququ var və xüsusilə yaşlı şəxslərin maddi təminatı ilə bağlı qanunvericilikdə mühüm mexanizmlər nəzərdə tutulub.

Həmçinin vurğulanmalıdır ki, Azərbaycan Respublikasının Konstitusiyasına görə, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır (maddə 16, hissə I) və işsizlərin dövlətdən sosial müavinət almaq hüququ vardır (maddə 35, hissə VII).

Nəzərə alınmalıdır ki, qanunvericiliyə görə, övladın valideyni maddi olaraq saxlamaq öhdəliyi var və bu öhdəlik yalnız mənəvi deyil, həm də hüquqi və məcburi xarakter daşıyır. Belə ki, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 82.1-ci maddəsinə əsasən, əmək qabiliyyəti olan yetkinlik yaşına çatmış övladlar maddi yardıma ehtiyacı olan əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa və onlara qayğı göstərməyə borcludurlar. Həmçinin Məcəllənin 83.1-ci maddəsinin tələbinə görə, yetkinlik yaşına çatan övladlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamadıqda və valideynləri ağır xəstəliyə tutulduqda, əlilliyi müəyyən edildikdə, onlara qulluq etməyə görə kənar şəxslərə haqq ödəmək lazım gəldikdə və digər müstəsna hallarda, yetkinlik yaşına çatmış övladlar məhkəmə qaydasında yuxarıdakı hallarla əlaqədar əlavə xərclərin çəkilməsinə cəlb edilə bilərlər.

Bildirdiyiniz kimi, siz 64 yaşındasınız, işləmirsiniz və pensiya almırsınız. Əgər sizin əmək qabiliyyətiniz yoxdursa və övladınızın könüllü olaraq ayda verdiyi 100 manat ehtiyaclarınızı ödəmirsə, siz məhkəmə qaydasında (aliment ödənilməsi barədə saziş olmadıqda əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan valideynlər üçün aliment əmək qabiliyyəti olan və yetkinlik yaşına çatmış övladlardan məhkəmə qaydasında tutulur) övladınızdan valideynin saxlanılması üçün aliment tələb edə bilərsiniz. Həmçinin zərurət yarandığı təqdirdə Ailə Məcəlləsinin 83.1-ci maddəsinin tələbləri çərçivəsində ondan əlavə xərclərin tutulmasını da tələb etmək hüququnuz vardır.

Övladdan tutulan alimentin həcmi məhkəmə tərəfindən valideynin və övladın maddi vəziyyəti, ailə vəziyyəti və tərəfindən diqqətəlayiq digər maraqları nəzərə alınmaqla hər ay ödənilməli olan sabit pul məbləğində müəyyən edilir. Alimentin miqdarı müəyyən olunarkən məhkəmə, tələbin valideynin əmək qabiliyyəti olan və yetkinlik yaşına çatmış övladlarından hamısına, birinə və ya bir neçəsinə verildiyindən asılı olmayaraq, onların hamısını nəzərə almağa haqlıdır.

Xüsusilə nəzərə almaq lazımdır ki, əgər valideynin öz valideynlik vəzifələrini yerinə yetirməməsi məhkəmə tərəfindən müəyyən olunarsa, uşaq (uşaqlar) əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan valideynini saxlamaq vəzifəsindən azad edilə bilər.

Bundan başqa dövlət tərəfindən həssas təbəqəyə aid şəxslərə sosial müdafiə tədbirləri tətbiq olunur. Siz bu tədbirlərdən istifadə edərək maddi vəziyyətinizin yaxşılaşmasına nail ola bilərsiniz. Bunun üçün müvafiq olaraq rəsmi qurumlara müraciət etməli və sözügedən tədbirlərdən yararlana bilmək imkanınızı araşdırmalısınız.

Bildiririk ki, "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikasının Qanununun 3-cü maddəsinə əsasən, sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən (ailə üzvlərinin əmək qabiliyyətsiz olması, ailənin əmək qabiliyyətli üzvünün orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxsə, əlilliyi olan uşağa və ya 8 yaşına çatmamış uşağa qulluq etməsi, 23 yaşınadək əyani təhsil alması, müvafiq icra hakimiyyəti orqanında dövlət qurumunun və ya hüquqi şəxsin ləğv edilməsi, fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi ilə əlaqədar işsiz kimi qeydə alınması, vəfat etməsi, məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi, azadlıqdan məhrum edilməsi, ailə üzvünün olduğu yerin məlum olmaması) hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr malikdirlər.

Qanunun 7.1-ci maddəsinə görə, sosial yardımın məbləği ailənin orta aylıq gəliri ilə hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusu arasında yaranan fərq məbləğində hesablanır.

Məlumat üçün qeyd edək ki, ünvanlı dövlət sosial yardımının təyin edilməsi məqsədilə 2026-cı il üçün ehtiyac meyarının həddi 300 manat məbləğində təsdiq edilmişdir.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

Azercell abunəçilərinin nəzərinə!

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 22.09.2026-cı il tarixində gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə imkanı təmin ediləcəkdir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3315
Sifariş 1206

Qiyməti 60 qəpik